


# G20 ölkələri COP29-a dəstək ifadə ediblər

**Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən G20 ölkələri sammitinin yekun Bəyannaməsinin iqlim bölməsində Azərbaycanın COP29-da Sədrliyinə dəstək ifadə olunub. Bu barədə məlumat BMT-nin rəsmi saytında yer alıb.**

Sənəddə deyilir: "Biz uğurlu Yeni Kollektiv Kəmiyyət Hədəfinin nəticəsini gözləyirik. Eyni zamanda, Azərbaycanın COP29-da Sədrliyinə dəstəyimizi vəd edirik və Bakıda danışıqların uğur qazanacağını öhdəmizə götürürük. Biz, həmçinin 2025-ci ildə Braziliyanın COP30-da Sədrliyinə də dəstəyi öhdəmizə götürürük".

Bəyannamədə təmiz, dayanıqlı, ədalətli, əlverişli və inklüziv enerjinin sürətləndirilməsinə dair öhdəlik də götürülüb. Bununla yanaşı, iqlim maliyyəsinin artırılması məqsədilə ayrılacaq vəsaitin məbləğinin "milyardlarla dollardan trilyona çatdırmaq" üçün bütün mənbələrin səfərbər edilməsinin vacibliyi vurğulanıb.




Xalqın qəzeti!

# Xalq qəzeti

№ 257 (30661) 22 noyabr 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Kəlbəcərin küləyi də enerjiyə çevriləcək




Səhifə ⇨ 9

## Bakı dünyaya təhlükəsiz gələcəyin "Yol xəritəsi"ni təqdim edir




Səhifə ⇨ 10

# COP29: Şərqdən Qərbə "yaşıl" enerji dəhlizi



**Mərkəzi Asiya respublikaları ekoloji cəhətdən təmiz enerji mənbələri, o cümlədən, günəş, külək və s. ilə zəngindir. Hökumətlər uzun müddətdir ki, qalıq yanacaqlardan asılılığı azaltmağa çalışırlar. Buna görə də bərpaolunan enerjiyə keçid strategiyasına üstünlük verirlər.**

Lakin təmiz enerji layihələrinin (külək, günəş), o cümlədən, təmiz hidrogen istehsalının genişləndirilməsi çoxşaxəli səylər tələb edir. Bu sahədə Qazaxıstan və Özbəkistanla yanaşı, beynəlxalq ictimaiyyətin dəstəyi ilə maliyyələşdirmə və normativ bazanın yaradılması dekarbonizasiya prosesini asanlaşdıra bilər. Artıq belə bir imkan yaranıb.

Qazaxıstanın Energetika Nazirliyi Birləşmiş Ərəb Əmirliyinin şirkəti ilə Jambıl vilayətində 1 giqavat gücündə külək elektrik stansiyasının tikintisinə imkan verəcək investisiya sazişi imzalayıb. Nazirlikdən verilən məlumata görə, saziş Bakıda keçirilən COP29 iqlim sammiti çərçivəsində bağlanılıb. Külək turbinlərinin tikintisinin investoru "Abu Dhabi Future Energy Company PJSC (Masdar)" şirkətidir. Layihəyə 1,5 milyard dollar sərmayə qoyulacaq. Bu barədə "Asian Power" yazır: "Tikintisi tamamlandıqdan sonra stansiya Qazaxıstanın cənubunda, təxminən, 300 min evi elektrik enerjisi ilə təmin edəcək və ildə 2 milyon ton kömür emissiyasının qarşısını alacaq".

Bu arada Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Bakıda keçirilən COP29 iqlim sammitində Azərbaycan və Özbəkistan prezidentləri ilə vahid "yaşıl" enerji sisteminin formalaşdırılması ilə bağlı razılığa gəlib və saziş imzalayıb. Saziş 29-cu iqlim konfransının regional və transregional səviyyədə mühüm nəticələrindən biridir. COP29 regionda "yaşıl" enerji dəhlizinin yaradılması, inteqrasiya olunmuş elektrik enerjisi bazarlarının inkişafı və bərpaolunan enerjinin digər regionlara ixracının asanlaşdırılması üçün güclü təməl yaradır. Yalnız Azərbaycan üçün deyil, həm də Mərkəzi Asiya və Avropa regionları üçün "yaşıl" enerji keçidi və qlobal enerji təhlükəsizliyinin təmin olunmasında dönüş nöqtəsidir.

*(ardı 10-cu səhifədə)*

## Rusiyanın nüvə zərbəsi ehtimalı gündəmə gəlib



**Rusiya–Ukrayna müharibəsində gərginlik getdikcə daha təhlükəli xarakter alır. Kiyevin Rusiya ərazisinin dərinliklərinə zərbə endirməsindən sonra dünən Moskvanın Ukraynanı daha ölümcül raket zərbəsi ilə vurduğu bildirilir. Hər iki tərəfdən verilən açıqlamalar, Ukraynanı dəstəkləyən Qərb ölkələrindən səsləndirilən bəyanatlar və atılan addımlar belə deməyə əsas verir ki, Rusiya–Ukrayna müharibəsi sülhə gedən yolu yenidən bağladı.**

Ukraynanın Rusiyanı Qərb raketləri ilə vurması perspektivinin müzakirəsi fonunda Prezident Vladimir Putin Rusiya Federasiyasının yenilənmiş nüvə doktrinasını təsdiqlədi. O, Ukrayna Silahlı Qüvvələrinin Qərbin qeyri-nüvə raketlərindən istifadəsinə nüvə reaksiyasının mümkünlüyünü nəzərdə tutur. Moskva açıq şəkildə bildirir ki, münaqişə kəskinləşərsə, o öz suverenliyini hər vasitə ilə müdafiə etmək niyyətindədir. Doktrinada qeyd olunduğu kimi, nüvə silahından istifadə Rusiyanın suverenliyini qorumaq üçün son çarə olacaq.

**(ardı 15-ci səhifədə)**

## Axsaq atın kor nalbəndi



Səhifə ⇨ 7

# "Cırtdanlar"ın qəzəbi

*Yaxud lüksemburqlu "parlamentarilər"in anti-Azərbaycan qətnamələrinə sözardı*

**Yəqin, belə bir durumla rastlaşanlarınız olub. Bir güclü adamın üstünə beş-altısı düşüb onu döymək istəyir. Bir qorxaq isə arada həmin güclüyə zərbə vurub qaçır. İndi Lüksemburq da həmin qorxaq adamı xatırladır. Əlbəttə, ölkənin Deputatlar Palatası deyilən qurumun mövqeyini birbaşa dövlətin mövqeyi kimi qəbul etməmək də olar. Hərçənd, Avropanın qurama deputat industriyasının tapşırıqları haradan aldığını bildiyimizdən məsələni məhz bu formada qoyur və zənnimizdə yanılmırıq. Onu da nəzərə alırıq ki, sözügedən palata indiyədək də anti-Azərbaycan mövqe nümayiş etdirib.**

Bəli, Lüksemburq Deputatlar Palatası Qərbin ermənipərəstlik marafonunda növbəti "mən də varam" mesajını verib. Qurum "Azərbaycan hakimiyyətinin deputatların və vətəndaş cəmiyyəti nümayəndələrinin söz azadlığına qarşı tətbiq etdiyi sanksiyalarını pisləyən" qətnamə qəbul edib. "Vətəndaş cəmiyyəti nümayəndələri" ənənəvi qərəzli klişedir. Deputatların söz azadlığına sanksiya nə deməkdir? Böyük ehtimalla, lüksemburqlu parlamentarilər "təcrübələrindən" çıxış edirlər. Görünür, onlara yuxarıdan nəyi necə danışmaq, hansı qərarlar çıxarmaq barədə direktivlər verildiyindən hər şeyi öz arşınları ilə ölçürlər.



**(ardı 4-cü səhifədə)**



# Azərbaycan Dövlət Tərcümə Mərkəzinin və Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin ləğv edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** "Azərbaycan Dövlət Tərcümə Mərkəzi" publik hüquqi şəxs ləğv edilsin.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi" publik hüquqi şəxsin ləğv edilməsi ilə bağlı on gün müddətində zəruri tədbirlər görsün;

2.2. bu Sərəncamın 1-ci hissəsində və 2.1-ci bəndində nəzərdə tutulan publik hüquqi şəxslərin tərcümə və dövlət dilinin tətbiqi sahəsində funksiyalarının aidiyyəti dövlət orqanlarına (qurumlarına) ötürülməsi ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. bu Sərəncamın 1-ci hissəsi və 2.1-ci bəndi nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. bu Sərəncamın 1-ci hissəsində və 2.1-ci bəndində nəzərdə tutulan publik hüquqi şəxslərin ləğvi ilə əlaqədar onların istifadəsində olan dövlət əmlakı ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 noyabr 2024-cü il**

# Azərbaycan–Misir diplomatik məsləhətləşməsi

**Noyabrın 21-də Xarici İşlər naziri Ceyhun Bayramov ilə Misir Ərəb Respublikasının Xarici İşlər, miqrasiya və xaricdə yaşayan misirlilərlə iş naziri Bədr Əbdelati arasında telefon danışığı aparılıb.**




Telefon danışığı zamanı Azərbaycan ilə Misir arasında qarşılıqlı etimada əsaslanan dostluq münasibətlərinin, ikitərəfli və çoxtərəfli əlaqələrinin daha da inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb. Beynəlxalq təşkilatlar və çoxtərəfli formatlar çərçivəsində əlaqələndirmə işlərinin təkmilləşdirilməsi, ölkələrimizin maraqlarına daxil olan istiqamətlərdə birgə səylərin artırılmasının vacibliyi qeyd olunub.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında aparılan müzakirələr, qlobal əhəmiyyətli bu tədbirin iqlim dəyişmələri ilə mübarizə sahəsində rolu və "yaşıl" enerji sahəsində Azərbaycan–Misir əməkdaşlığı üçün əlavə imkanlar yarada biləcəyi diqqətə çatdırılıb.

***XQ***

# Sahibə Qafarovanın Sankt-Peterburq görüşləri

**MDB Parlamentlərarası Assambleyasının Şura və 57-ci Plenar iclaslarında iştirak etmək üçün Rusiyanın Sankt-Peterburq şəhərində işgüzar səfərdə olan Milli Məclisin sədri Sahibə Qafarova noyabrın 21-də Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ilə görüşüb.**



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, görüşdə ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə dair fikir mübadiləsi aparılıb. Həmçinin parlamentarilərimizin beynəlxalq təşkilatlarda, o cümlədən, MDB PA çərçivəsində əməkdaşlıq məsələləri nəzərdən keçirilib.

*

Milli Məclisin sədri Sahibə Qafarova həmin gün Belarus Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanova ilə də görüşüb.

Görüşdə Azərbaycan və Belarus arasında münasibətlərin bütün sahələri əhatə etməklə, dostluq və qardaşlıq prinsiplərinə söykəndiyi qeyd olunub. Vurğulanıb ki, münasibətlərin inkişafında iki ölkənin dövlət başçıları arasında yüksəksəviyyəli münasibətlərin mühüm rolu var.

Söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın mühüm bir istiqamətini təşkil edən parlamentlərimiz arasında münasibətlərin də hazırkı səviyyəsindən razılıq ifadə olunub. Sahibə Qafarova Azərbaycanda keçirilən növbədənkənar parlament seçkilərində Belarus parlament nümayəndə heyətinin geniş tərkibdə müşahidələr apardığını bildirib və qarşı tərəfə minnətdarlığını ifadə edib.

Natalya Koçanova Azərbaycanın sədrliyi ilə Bakıda COP29 kimi qlobal tədbirin uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırıb.

# "İİV və İqlim Dəyişikliyi üzrə Çərçivə Sənədi"nin təqdimatı



**Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflərin Konfransının 29-cu sessiyasında BMT-nin HİV/QİÇS üzrə Proqramının (UNAIDS) "İİV və İqlim Dəyişikliyi üzrə Çərçivə Sənədi"nin təqdimatı keçirilib.**

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və UNAIDS tərəfindən təşkil olunan tədbirdə BMT Baş katibinin köməkçisi, BMT İnkişaf Proqramının (UNDP) Siyasət və Proqrama Dəstək Bürosunun direktoru Markos Neto, BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreyeva, QİÇS və Pandemiya üzrə UNAIDS-in xüsusi müşaviri Mbulava Muqabe, Braziliya Səhiyyə Nazirliyinin Səhiyyə Nəzarəti Katibi Etel Masiel və digər rəsmilər çıxış ediblər.

Azərbaycanın səhiyyə naziri Teymur Musayev qeyd edib ki, İnsanın İmmunçatışmazlığı Virusu (İİV) qlobal səhiyyənin əsas problemlərindən biri olaraq qalır: "Hər il dünyada bir milyondan çox insan İİV-ə yoluxur, 600 mindən çox insan isə İİV-lə bağlı xəstəliklərdən vəfat edir".

Teymur Musayev Azərbaycanın İİV-ə qarşı mübarizədə mühüm addımlar atdığını və yüksək nailiyyətlər əldə etdiyini vurğulayıb. Nazirin sözlərinə görə, ölkəmizdə İİV-ə yoluxan şəxslər antiretrovirus preparatları ilə dövlət tərəfindən təmin olunurlar: "Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı və Qlobal Fond kimi beynəlxalq təşkilatlarla möhkəm tərəfdaşlıq qurub. 2023-cü ilin sonunadək Azərbaycan İİV-lə yaşayan insanlar üçün "89-80-93" səviyyəsində müayinə və müalicə xidmətlərinin göstərilməsi üzrə Qlobal Məqsədlərə nail olmaqda nəzərəçarpacaq irəliləyiş əldə edib. Bu da, bölgə üzrə ən yaxşı göstəricilərdən biridir".

İqlim dəyişikliyinin COP29-da əsas müzakirə mövzusu olduğunu və konfrans zamanı çıxışçılar tərəfindən iqlim dəyişikliyinin təsirlərinin qeyri-mütənasib şəkildə paylandığının dəfələrlə vurğulandığını xatırladan nazir qeyd edib ki, ən çox təsirlənən ölkələr qlobal problemin həllinə çox vaxt minimal töhfə verirlər.

Diqqətə çatdırılıb ki, sübuta əsaslanan araşdırmalar belə vəziyyətdə insanların psixi sağlamlıq problemlərinin gərginləşməsini, zorakılığın və uşaq nikahların artırdığını, eyni zamanda narkomaniyanı təşviq etdiyini təsdiqləyir.

"Bakıda keçirilən COP29-da beynəlxalq ictimaiyyət iqlim dəyişikliyinin qlobal təsirlərini həll etmək üçün bir araya gəlib. Mövcud problemlər arasında sağlamlığa təsir ən əhəmiyyətlidir. İqlim dəyişikliyinin sağlamlığa təsirlərinin azaldılması kifayət qədər uzun və mürəkkəb prosesdir. Ancaq biz nə qədər tez zəruri addımlar atsaq, bir o qədər tez uğur qazanacağıq", – deyə səhiyyə naziri fikrini tamamlayıb.

Təqdimat panel müzakirələrlə davam edib.

***XQ***

# Azərbaycanda enerji keçidi barədə məlumatlılıq yüksəkdir



**Azərbaycanda və Qazaxıstanda insanlar enerji keçidinin təcili olmasını dərindən dərk edirlər.**

Bu sözləri Bakıda keçirilən COP29 çərçivəsində İtaliya pavilyonunda təqdimat zamanı "MAIRE" Fondunun baş direktoru İlaria Katastini deyib.

2024-cü ilin sentyabr və oktyabr ayları ərzində "MAIRE" Fondu hər iki ölkədən olan 2 min ali təhsilli şəxs və ictimai fikir liderləri arasında sorğu keçirib.

"İnnovativ həllər tələb edən enerji keçidinin qarşıya qoyduğu çağırışlara cavab vermək üçün Azərbaycanda hesab edirlər ki, problemi həlletmə bacarıqları əsas amildir. Qazaxıstanda isə düşünürlər ki, tənqidi fikirləşmə bacarıqları kompleks məlumatların təhlilində, yanaşmaların qiymətləndirilməsində və əsaslandırılmış qərarların qəbul olunmasında mühüm əhəmiyyət kəsb edir", – deyə Katastini bildirib.

"Azərbaycanda respondentlərin 55 faizi enerji keçidini prioritet hesab edirsə, Qazaxıstanda bu rəqəm 39 faizdir. Bu göstərici ətraf mühitlə bağlı problemlər və onların yaratdığı iqtisadi imkanlar haqqında artan məlumatlılığı əks etdirir və gələcək təşəbbüslər üçün münbit zəmin yaradır", – deyə o əlavə edib.

Katastini, həmçinin vurğulayıb ki, Azərbaycandan olan respondentlərin 64 faizi (BƏƏ, Səudiyyə Ərəbistanı və Hindistan kimi ölkələri üstələyir), Qazaxıstandan olan respondentlərin isə 53 faizi (İtaliyanı, Böyük Britaniyanı, ABŞ-ni və Çini üstələyir) enerji keçidini iqlim dəyişmələri ilə mübarizədə vacib hesab edir.

Hər iki ölkədə respondentlərin 80 faizdən çoxu təlim və bacarıqların artırılmasını vacib məsələ kimi qeyd edirlər ki, bu göstərici də Hindistandakı göstəricidən 71 faiz, ABŞ-dakı və Cənubi Afrikadakı göstəricidən isə 75 faizdən çoxdur.

"Enerji keçidi Azərbaycanda və Qazaxıstanda işçi qüvvəsinin əhəmiyyətli dərəcədə təkmilləşdirilməsini tələb edir ki, bu da həmişəkindən daha çox yaşıl iş yerlərinin açılmasına şərait yaradır", – Katastini deyib.

"MAIRE" təşkilatının törəmə şirkətləri olan "NEXTCHEM" və "TECNIMONT" tərəfindən maliyyələşdirilən araşdırma nümayiş etdirdi ki, beynəlxalq ictimaiyyət getdikcə daha çox dərk edir ki, enerji keçidinin biznes və məşğulluq sahələrinin imkanlarını genişləndirə bilməsi üçün yeni bacarıqlar tələb olunur. Qısamüddətli çətinliklərə və məsrəflərə baxmayaraq, respondentlərin mütləq əksəriyyəti enerji keçidi üzrə səylərin uzunmüddətli əhəmiyyətini və müsbət təsirlərini qəbul etdiklərini bildiriblər.

"MAIRE" Fondunun araşdırması dörd qitədə aparılmaqla 12 ölkəni əhatə edib və beynəlxalq bazar araşdırması ilə məşğul olan IPSOS şirkəti ilə birgə 2 mindən çox müsahibə götürülüb.

"MAIRE" enerji keçidinə dəstək verən aparıcı texnologiya və mühəndis qrupu kimi çıxış edərək istehsal sənayesi ilə enerji resurslarının kəsişməsində fəaliyyət göstərir. Qrup dayanıqlı gübrələr, aşağıkarbonlu enerji vektorları və dairəvi həllər kimi biznes istiqamətləri üzrə aşağı bazar üçün inteqrasiya edilmiş E&C həllər və davamlı texnologiyalar təklif edir. "MAIRE" 45 ölkədə fəaliyyət göstərir və bütün dünya üzrə 9 min 300-dən çox əməkdaşı var.

***XQ***

# Uşaq və gənclər yaşıl savaşa qoşulurlar



**"Uşaqların və gənclərin NDC 3.0 prosesinə məzmunlu cəlb edilməsi: irəliləyişlər və nailiyyətlər üzrə inventarlaşdırma" mövzusunda panel müzakirəsi keçirilib.**

COP29-un İqlim üzrə gənclər çempionu Leyla Həsənova bildirib ki, iqlim fəaliyyətində uşaqların və gənclərin iştirakı COP29 Sədrliyi üçün prioritetdir.

"COP29-un Gənc İqlim Çempionu olaraq, gənclərin səslərini və prioritetlərini ən yüksək səviyyələrə qaldırmağa və dəstəkləməyə davam etməyə sadiqəm. Mən müxtəlif gənclər təşkilatları tərəfindən dəstəklənən NDC 3.0 prosesində uşaq və gənclərin cəlb edilməsi üçün göstərilən müxtəlif heyrətamiz səyləri bacardığım qədər dəstəkləməyə davam edəcəyəm və tərəfləri də eyni şeyi etməyə çağırıram", – deyə L.Həsənova qeyd edib.

"Care about Climate" təşkilatının baş direktoru Heyli Kembel diqqətə çatdırıb ki, Gəncləri Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrinin (NDC) prosesinə cəlb etmək olduqca zəruridir, çünki gənclər böyük potensiala malikdirlər. Gender bərabərliyi və gənclərin cəlb edilməsi məsələləri ilə məşğul olan ölkələr Paris Sazişinə uyğun olaraq karbon emissiyaların azaldılması istiqamətində daha çox səylər göstərirlər.

Milli Məclisin deputatı Nigar Məmmədova bildirib ki, gənclərin NDC prosesinə cəlb olunması aktiv iqlim fəaliyyətinə töhfə verə bilər: "Təəssüf ki, dünya bir milyarda yaxın uşaq iqlim dəyişikliyi səbəbindən son dərəcə yüksək risk altında olan 33 ölkədə yaşayırlar. Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr (NDC) ölkələrin qlobal iqlim məqsədlərini formalaşdıran və gələcəyimizin necə olacağını müəyyən edən əsas mexanizm olacaq".

***XQ***

# COP29 və Rio-Trio Təşəbbüsü əməkdaşlıq edəcək

**COP29 Sədrliyi və Rio Konvensiyaları (UNFCCC, CBD, UNCCD) ilə əməkdaşlıq çərçivəsində Rio-Trio Təşəbbüsünə həsr olunmuş görüş keçirilib.**



Toplantıda ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva çıxış edərək bildirib ki, Azərbaycan, Kolumbiya və Səudiyyə Ərəbistanı Krallığı hökumətlərinin yeni tərəfdaşlığı çərçivəsində həyata keçirilən "Rio Üçlüyü" təşəbbüsü çərçivəsində gələcək əməkdaşlıq davam etdiriləcək.

Əməkdaşlığın əsas məqsədi Azərbaycandan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası, Kolumbiyadan BMT-nin Bioloji müxtəliflik haqqında Konvensiyası və Səudiyyə Ərəbistanı Krallığından BMT-nin Səhralaşma ilə mübarizə haqqında Konvensiyasını təmsil edən üç yeni COP Sədrliyinin səylərini koordinasiya etməklə, qlobal dayanıqlılıq təşəbbüslərini gücləndirməkdir.

Nazir müavini qeyd edib ki, məqsəd hər üç Rio Konvensiyası üzrə əməkdaşlığı gücləndirməklə sinerji yaratmaq, səmərəliliyi artırmaq, həm insanlara, həm də planetə fayda verəcək konkret nəticələri təmin etməkdir.

Sonra Səudiyyə Ərəbistanının, Kolumbiyanın, Hondurasın, Seneqalın, Birləşmiş Ərəb Əmirliklərinin, Barbadosun, Dominikan Respublikasının nümayəndələri çıxış edərək Rio-Trio təşəbbüslərinə qoşulmaq niyyətlərini ifadə ediblər.

***XQ***

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# Torpağımıza və suyumuza qənim kəsilənlər...

## Ermənistanın COP29-a gəlməməsinin səbəbi törətdiyi ekoloji cinayətlərdir

**Hayastan 30 il ərzində işğal altında saxladığı torpaqlarımıza nəinki divan tutub, eyni zamanda, mənbəyini öz ərazisindən götürən və Azərbaycana gələn çayları da daim çirkləndirib. Məlumdur ki, ölkəmizin yerüstü su ehtiyatlarının, təxminən, 70 faizi qonşu ölkələrdə formalaşan transsərhəd su axınları hesabınadır. Bu təbii su mənbələrinin Ermənistan tərəfindən çirkləndirildiyi danılmaz faktdır. Azərbaycanın şirin su ehtiyatları əsasən Kür və Araz çaylarının hesabına ödənilir. Bu çaylar mənbəyini Türkiyədən götürür, sonra Gürcüstan və Ermənistan ərazilərindən keçərək Azərbaycan ərazisindən Xəzər dənizinə tökülür. Qonşu ölkələrin ərazilərində çay suları sənaye və məişət tullantıları ilə çirklənir. On illərlə davam edən bu proses nəticəsində Kür və Araz çaylarının sahilyanı və dib çöküntüləri kimyəvi və radioaktiv tullantılarla çirklənməyə məruz qalıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Monitorinq Departamentinin məlumatına əsasən, Meğri, Qaçaran, Qafan və Dəstəkert dağ-mədən kombinatlarının yüz min tonlarla qatı turş suları, ağır metal duzları və başqa tullantıları Arazın qolu olan Oxçuçaya axıdılır. Ayrı-ayrı vaxtlarda suyun tərkibində misin miqdarı normadan 25-50 dəfə, fenolların miqdarı isə mütəmadi olaraq normadan 6-15 dəfə artıq olub.**



Konkret olaraq, transsərhəd çay sayılan Oxçuçay Ermənistan ərazisində daim kəskin çirklənməyə məruz qalır. Bakı bununla bağlı dəfələrlə "həyəcan təbili" çalıb. Amma Ermənistan hələ də Transsərhəd su hövzələrinə dair Helsinki Konvensiyasına qoşulmayıb. 1992-ci ildə qəbul edilmiş bu beynəlxalq sənəd transsərhəd səth və yeraltı suların ekoloji cəhətdən etibarlı idarə olunmasına və qorunmasına yönəlmiş milli tədbirlərin, eləcə də beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün bir mexanizm rolunu oynayır.

*

Oxucuların diqqətinə çatdıraq ki, ABŞ-nin Azərbaycandakı səfiri Mark Libbi COP29-dakı çıxışında Azərbaycan və Ermənistanın hidroloq və mühəndislərinin bölgədə sərhəd çaylarının su ehtiyatlarının vahid idarəetmə sxeminin yaradılması istiqamətində birgə fəaliyyəti barədə danışmışdı. Səfirin bu təşəbbüsü barədə məlumatın yayılmasından dərhal sonra, "Sputnik Ermənistan"ın sorğusuna cavab olaraq Ermənistan Xarici İşlər Nazirliyi bu sahədə rəsmi səviyyədə təmasları bəyənmədiyini açıqlayıb və Azərbaycanla əməkdaşlıq ehtimalını təkzib edib. Hayların baş diplomatiya idarəsi açıqlamasında sərhədyanı su ehtiyatlarının idarə edilməsində Ermənistanla Azərbaycan arasında rəsmi əməkdaşlığın olmadığını bildirib. Məlumatda o da vurğulanır ki, Ermənistan beynəlxalq hüquqa, o cümlədən, ekoloji konvensiyalara uyğun olaraq öz öhdəliklərini "vicdanla və konstruktiv şəkildə yerinə yetirən" tərəfdaşlarla su ehtiyatlarının idarə edilməsində fəal əməkdaşlıq edir: "Bu ölkələr arasında Gürcüstan, İran və Türkiyə də var idi". Dördüncü qonşusunun–Azərbaycanın adını çəkməyən İrəvanın nədən ehtiyat etdiyinin səbəbi məlumdur. Ermənistan bu gün də çaylarımızı çirkləndirməkdə davam edir.

İntəhası, "su ehtiyatlarının idarə edilməsi məsələlərinə konstruktiv yanaşmaya sadiq qalacağına" əmin edən Ermənistan XİN-in yaydığı məlumatın sonuncu cümləsi bu sahədə qarşılıqlı təmasların mövcudluğunun etirafına işarədir: "Bu mövzuda təmaslar yalnız iki ölkənin qeyri-hökumət təşkilatları səviyyəsində olub". Maraqlıdır ki, səfir Mark Libbinin bir müddət bundan əvvəl Ermənistan və Azərbaycan mütəxəssislərinin transsərhəd çayların ehtiyatlarının idarə olunmasının kompleks sxeminin yaradılması üzərində birgə fəaliyyət göstərdiyi barədə danışmışdı.

*

"Ermənistan uzun illər ərzində bizim çaylarımızı, su mənbələrimizi öz ərazisində çirkləndirməklə yanaşı, həm də onlardan özünün şübhəli məqsədləri üçün istifadə edib". **Bu barədə bizimlə fikirlərini bölüşən Qərbi Kaspi Unuversitetinin professoru, politoloq Fikrət Sadıxova görə, keçən ilin yazında azərbaycanlı ekofəalların Laçın yolunda keçirdikləri etiraz aksiyası ermənilərin məhz Qarabağda ərtaf mühitə vurduqları zərər, törətdikləri ekosidlə bağlı idi:** "İndi Bakı həbsxanasında məhkəmənin hökmünü gözləyən zəngin erməni Ruben Vardanyanın, eləcə də digərlərinin Qarabağdakı fəaliyyəti birbaşa ətraf mühitə, yerin təkinə, axar sulara qarşı yönəlmişdi. Bəli, onlar bizim torpağımızda təxribatçı fəaliyyətlə məşğul idilər. Xankəndidəki separatçı rejimin, o cümlədən, Ermənistan hakimiyyətinin su mənbələrimizin, təbii su tutarlarımızın çirkləndirilməsində "xidmətləri" böyükdür. Rəsmi Bakı bu problemi beynəlxalq təşkilatların tribunalarından səsləndirib. Onlar da reallığı, məsələnin mahiyyətini yaxşı anlayırlar. Əgər indi İrəvan hansısa əməkdaşlıqdan yayınmaq istəyirsə, bu, onun öz işidir. Heç Azərbaycanın da Ermənistanla bu istiqamətdə birgə fəaliyyət göstərmək niyyəti yoxdur. Bunu ermənilər kimi ABŞ-nin Azərbaycandakı səfiri də bilməlidir ki, tərəflər arasında ortaq məxrəc axtarışlarının, təşəbbüslərin və yumşaq mövqe sərgiləməyin heç bir mənası yoxdur. Belə bir mövqe ilə sülh müqaviləsini imzalamağa tələsməyən Ermənistanla Azərbaycanın birgə fəaliyyət perspektivini yaratmaq qeyri-mümkündür".



Ermənistan bir müddət öncə Azərbaycanın Naxçıvanla həmsərhəd ərazisində–Arazdəyən kəndində ağır metallurgiya zavodu inşa etmək istəyirdi. Bu isə 1991-ci ildə qəbul olunmuş "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiya"nın kobud şəkildə pozulması demək idi. Konvensiyanın tələblərinə uyğun olaraq, zavodun ətraf mühitə təsirinin hərtərəfli qiymətləndirilməsi aparılmalı, tikinti ilə bağlı qiymətləndirmə sənədi Azərbaycanın müvafiq qurumlarına, ekoloji fəallar tərəfindən bölgəyə yaxın ərazidə yaşayan qonşu azərbaycanlıların rəyi nəzərə alınmaqla nəzərdən keçirilməli idi. Ancaq qarşı tərəf belə bir razılığa ehtiyac duymamışdı. Rəsmi Bakının bu məsələyə çox şərt şəkildə etirazından sonra inşaat işləri dayandırıldı.

**Mövzu ilə bağlı "XQ"yə açıqlama verən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı Elxan Şahinoğlu bildirib ki, ABŞ-nin Azərbaycandakı səfiri Mark Libbi çıxışında, əslində, məhz qarşılıqlı təmasları nəzərdə tutub:** "O deməyib ki, su ehtiyatlarının birgə idarə olunması mövzusunda iki ölkənin rəsmiləri danışıqlar aparırlar. Səfir nəzərə çatdırıb ki, rəsmi Vaşinqton bu təmasları dəstəkləyir. Məsələnin maraqlı tərəfi odur ki, Ermənistan XİN tərəfdaşı olduğu ölkənin səfirinin açıqlamasını dərhal təkzib etməyə tələsib. Bu, onunla izah oluna bilər ki, Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxladığı müddət ərzində bütün bölgənin ekologiyasına böyük zərər vurub. Elə indinin özündə də Ermənistan Araz çayını çirkləndirir və rəsmi Bakı bu məsələni beynəlxalq təşkilatlar qarşısında dəfələrlə qaldırıb. Ermənistanda bir çox müəssisələr və mədənlər çirkli sularını və tullantılarını Araz çayına axıdırlar. Məhz ona görə bu problem də iki ölkə arasında müzakirə predmeti olmalıdır. Rəsmi İrəvan yaxşı bilir ki, ətraf mühitin çirklənməsində onun məsuliyyət payı var. Bu səbəbdən rəsmi danışıqlardan yayınmağa çalışır".



2024-cü ilin fevralında Azərbaycan Prezidenti İlham Əliyev bu problem barədə Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "İqlim və enerji təhlükəsizliyi. İstiləşmə hələ də davam edirmi?" mövzusunda keçirilən panel müzakirədəki çıxışında bildirib: "Bizim üçün real təhlükə ondan ibarətdir ki, bizi su ilə təchiz edən əsas çaylarımız mənbəyini qonşu ölkələrdən götürür və xüsusilə Ermənistanda Araz çayının çox ciddi çirklənməsi müşahidə olunur. Bu da bizim hamımız üçün təhlükədir. Çayın çirklənməsinin dayandırılması ilə bağlı etdiyimiz bütün müraciətlərimizə baxmayaraq, əfsuslar olsun ki, Ermənistan bu siyasəti davam etdirir".

Ayaqları ilə torpağımızı murdarlayan, nəfəsləri ilə havamızı zəhərləyən, çirkabları ilə suyumuzu korlayan hayların bu cinayətlərə görə də cavab verəcəkləri gün uzaqda deyil.

*İmran BƏDİRXANLI*
*XQ*

---

**Replika**

# "Cüt bacılar"ın pozğunluğu

**Şah üsuli-idarəsi çağlarında Tehranla Paris arasında isti münasibətlərin mövcudluğu heç kəsə sirr deyil. İranın elit təbəqəsinin fransızsayağı həyat tərzi keçirməsi, az qala, normaya çevrilmişdi. Yəni, İranda hürriyyət Fransadakı demokratiyadan heç də geri qalmırdı. Rza şaha və Pəhləvi sülaləsinə qarşı mübarizəyə qalxmış və monarxiyanın qəbrini qazmış Ayətullah Xomeyninin təqiblərdən canını qurtarıb əvvəl Türkiyəyə, sonra İraqa və nəhayət, məhz Fransaya pənah aparması və oradan müxalifətin lideri kimi geri dönüşü yaşlı nəslin yadında olar. Fransaya kapitalist, SSRİ-yə kommunist rejimi yaradacağını vəd edən Xomeyni sonda İranda İslam Respublikası qurmaq barədə qərarını açıqladı.**

Bu tarixi arayışı ona görə oxuculara nəzərinə çatdırırıq ki, iki ölkə arasında münasibətlərin yeni dönəmdə maraqlı tərəfləri üzə çıxıb. Fransa və İran arasında tarixi əlaqələr indi başqa bir formada, həm də gizli müstəvidə davam edirmiş. Həmin əlaqələrin bir qolu Ermənistanın vasitəçiliyi ilə həyata keçirilirmiş. Bunu Azərbaycanın nüfuzlu media qurumlarından biri üzə çıxarıb. Əslində, Parisin Tehranla ənənəvi əlaqələrini və qarşılıqlı maraqlarını nəzərə alsaq, burada təəccüblü heç nə yoxdur. Yaxın vaxtlara qədər "TOTAL" və "Peugeot" kimi tanınmış fransız şirkətləri Qərbin sanksiyalarına baxmayaraq, İranda fəaliyyətlərini davam etdirirdilər. Bəs, Parislə Tehran arasında gizli əlaqə kanalı kimi Ermənistandan hansı keyfiyyətdə istifadə olunur? Sayt hələlik bu məsələyə tam aydınlıq gətirməyə tələsmir.

*

Məsələni bizim üçün maraqlı edən tərəfi ondan ibarətdir ki, Fransa Ermənistanı silahlandırmaq planlarını daha çox İranın vasitəçiliyi ilə həyata keçirir. Məlum olduğu kimi, "Sezar" artilleriya sistemlərinin bir hissəsi, eləcə də digər silahlar məhz İran ərazisi vasitəsilə Ermənistana çatdırılıb. Bundan başqa, İran vətəndaşlarının Fransa kəşfiyyatına işləmək üçün cəlb edilməsi prosesində Ermənistan mühüm halqa rolunu oynayırmış. Bu, Hayastan ərazisini belə əməliyyatların icrası üçün ən əlverişli məkanlardan birinə çevirib. Fransanın Ermənistan vasitəsilə İrana daha hansı mesajları ötürdüyü barədə əllərində ətraflı məlumatın olduğunu yazan sayt məqamı yetişdikdə, bu məlumatların dərc olunacağını açıqlayıb.



Bu günlərdə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın İranlı həmkarı Abbas Araqçi və Fransanın xarici işlər naziri Jan-Noel Barro ilə telefon danışıqları olub. Təsdiqlənməmiş məlumata görə, noyabrın 7-də Paşinyan Budapeştdə Avropa Siyasi Birliyinin sammiti çərçivəsində Fransa prezidenti Emmanuel Makronla görüşündə İrana müəyyən mesajların çatdırılması ilə bağlı göstəriş alıb.

Yeri gəlmişkən, Ermənistan hakimiyyətində gözlənilməz "istefa dalğasını" da bu hadisələrlə əlaqələndirənlər az deyil.

Maraqlıdır ki, daxili müxalifətə qarşı sərt repressiyaların aparılmasında baş nazir Nikol Paşinyanın keçmiş məktəb yoldaşı və yaxın silahdaşı daxili işlər naziri əsas rollardan birini oynayıb. İndi o da istefaya göndərilənlərin arasındadır. Baş verənlərə baxmayaraq, Paşinyana öz adamı kimi baxan Qərb hələlik susur. Yerli ekspertlərin fərziyyələrinə görə, Fransa və İran arasında Ermənistan vasitəsilə aparılan məxfi danışıqlara dair məlumatların kənara sızması məhz istefaya göndərilənlərin əli ilə baş verib. Onların arasında, həmçinin Paşinyanın əhatəsində qalanların sırasında ABŞ və Qərbin digər strukturları ilə yaxından bağlılığı olan kadrların da adları çəkilir. İntəhası, Paşinyan onlarla yolları ayırmağa qərar verib.

Fransa Yaxın Şərq və Afrikadakı çoxillik "təcrübəsindən" istifadə edərək, Ermənistanı, faktiki olaraq, yeni müstəmləkəsinə çevirmək üçün Paşinyandan eninə-uzununa istifadə edir. Bu hadisələr Makron rejiminin ikiüzlülüyünü nümayiş etdirməklə yanaşı, hətta onun müttəfiqləri sayılan Qərb ölkələrini də çaşdırıb. Parisin İranla pərdəarxası sövdələşməsi Avropa İttifaqında İrana qarşı yeni sanksiyaların müzakirə olunduğu dövrə təsadüf edir. Belə məlum olur ki, "cüt bacılar" – Makron Ermənistan vasitəsilə Tehranla gizli danışıqlar aparır.

Bu, eyni zamanda, Fransanın NATO müttəfiqi ABŞ-yə, o cümlədən, məlum olduğu kimi, rəsmi Vaşinqtonun İrana qarşı siyasətini sərtləşdirmək niyyətində olan yeni seçilmiş Prezident Donald Trampa xəyanət etmək mənasına gəlir.

Bu arada daha bir maraqlı detal ortaya çıxıb. Ermənistan Cinayət Məcəlləsinin 393-cü maddəsinin 3-cü hissəsinin 2-ci bəndi və 399-cu maddəsinin 3-cü hissəsinin 2-ci bəndi ilə başlanmış cinayət işi çərçivəsində İstintaq Komitəsinin və Milli Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən həyata keçirilmiş müvafiq tədbirlər nəticəsində İran İslam Respublikasından qaçaqmalçılıq yolu ilə Ermənistana xüsusilə külli miqdarda narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı daha bir faktın üstü açılıb.

Ermənistan baş prokurorluğunun mətbuat xidmətindən "Armenpress"-ə verilən məlumata görə, istintaqın əldə etdiyi məlumata əsasən, noyabrın 11-də saat 05:00 radələrində İrəvan şəhərinin 52 və 32 yaşlı sakinləri "Mitsubishi Grandis" markalı avtomobillə Meqriyə gediblər. Onlar Ermənistan–İran dövlət sərhədinin Meğri-Agarak hissəsində İrandan Ermənistana qaçaqmalçılıq yolu ilə gətirilən külli miqdarda narkotik vasitəni qəbul ediblər. Daha sonra İran–Ermənistan dövlətlərarası avtomobil yolunda, daxil olmuş əməliyyat məlumatlarını həyata keçirmək məqsədilə MTN əməkdaşları tərəfindən avtomobil göstərilən yerdə saxlanılıb və bir neçə bağlama müəyyən edilərək götürülüb. Müstəntiq cinayətin törədilməsinə bilavasitə əsaslı şübhələr yarandığından həmin şəxslərin həbsinə qərar verib.

Həyata keçirilən əməliyyat-istintaq tədbirləri, o cümlədən, təyin olunmuş ekspertizanın rəyinə əsasən, avtomobilə baxış nəticəsində yuxarıda qeyd olunan bağlamaların içərisindən ümumi çəkisi 10 kiloqram 294 qram olan narkotik maddə–marixuana aşkar edilib. Ermənistanın narkotik vasitələrin Şərqdən Qərbə daşındığı tranzit ölkəyə çevrildiyini hamı bilir. Burada, necə deyərlər, "no comment".

*İ.HƏSƏNQALA*
*XQ*

COP29 Baku Azerbaijan
COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024
COP29 Baku Azerbaijan

# "Cırtdanlar"ın qəzəbi



**(əvvəli 1-ci səhifədə)**

Sən demə, Lüksemburq Deputatlar Palatasının Azərbaycanla bağlı qərəzli rəyə gələrkən nəzərə aldığı məqamlar var imiş. Bunlardan birincisi Avropa Şurası Parlament Assambleyasının 24 yanvar 2024-cü il tarixində qəbul etdiyi 2527 saylı qətnamə imiş. O qətnamə ki, Azərbaycan nümayəndə heyətinin qurumda təmsilçiliyinə qarşı idi. Sözügedən sənədin hansı şərtlər daxilində, nə səbəbdən qəbul edildiyi aydındır. O da aydındır ki, Qərbin ermənipərəst qüvvələri belə bir qətnamə ilə növbəti anti-Azərbaycan fəaliyyəti gerçəkləşdirmiş, nəticə etibarilə Ermənistanın havadarlarının sifarişini yerinə yetirmişdilər. İndi Lüksemburq Deputatlar Palatası isə sifarişi, bir növ, ehkamlaşdırmaq yolu tutur.

Lüksemburq Deputatlar Palatasının qətnamə çıxararkən nəzərə aldığı ikinci məsələ Azərbaycan Xarici İşlər Nazirliyinin 26 avqust 2024-cü il tarixli qərarı ilə AŞPA-nın 76 deputatının, o cümlədən lüksemburqlu deputatlar Oktav Moder və İv Kruxten arzuolunmaz şəxslər – "persona non qrata" elan edilmələridir. Qeyd edək ki, bu şəxslərin hər biri barələrində çıxarılmış qərara layiq idilər. Çünki birtərəfli mövqe tirajlayır, ermənipərəst sifarişlər yerinə yetirirdilər. Onlar nəinki tutduqları posta, eyni zamanda, adi etik standartlara zidd hərəkət və davranışlarla gündəmə gəlirdilər.

Lüksemburqlu "palataçılar" Azərbaycana qarşı qətnamə məntiqinə köklənərkən, eyni zamanda, 2024-cü il fevralın 7-də ölkəmizdə keçirilən növbədənkənar Prezident seçkilərinin də üzərində dayanıblar. Daha doğrusu, seçki ilə bağlı ATƏT-in qərəzli yekun rəyinə istinad ediblər. Sən demə, proses siyasi alternativlər olmadan, məhdud və kritik səs təzyiqi şəraitində keçirilibmiş, Azərbaycan hakimiyyəti vətəndaş cəmiyyəti fəallarına, siyasi müxalifətə və müstəqil mediaya təzyiqləri artıraraq qorxu mühiti yaradırmış. Çox güman, yenə ənənəvi anti-Azərbaycan tezislərin gündəmə gətirildiyini hiss etdiniz. Üstəlik, bu tezislərin "Amnesty İnternational" və "Human Rights Watch" kimi qərəz yuvası olan təşkilatların ölkəmizdə siyasi məhbusların olduğuna dair lakmus kağızı mahiyyətli hesabatları ilə möhkəmləndirildiyi də diqqətdən yayınmır.

İndi isə keçək "palataçıların" qarınlarının ağrısına. Bəli, əminliklə söyləyə bilərik ki, onların bu qətnamələri də Ermənistanı müdafiə məramına söykənir. Ayının min oyunu bir armudun başındadır. Yəni, ənənəvi "tezislərin" gündəmə gətirilməsində məqsəd ermənipərəstlikdir. Axı lüksemburqlu deputatlar həm də Qarabağla bağlı qəbul edilmiş qətnamələri rəhbər tuturlar. Bu "cırtdanlar" ürəklənib Azərbaycan hakimiyyəti qarşısında tələb də qoyurlar. Həbsxanalarımızda olan məhbuslar dərhal azad edilməli imiş (?). Ad çəkməsələr də, Qarabağdakı artıq canını tapşırmış separatçı rejimin özünü "prezident", "baş nazir", "xarici işlər naziri", "dövlət naziri" adlandıran təmsilçilərini nəzərdə tutduqları gün kimi aydındır.

İkinci tələb "Azərbaycan hakimiyyətinin demokratik yolla seçilmiş nümayəndələrin sərbəst hərəkətinə mane olan bütün məhdudiyyətləri aradan qaldırması" imiş. Söhbət ölkəmizdə "persona non qrata" elan edilmiş şəxslərdən gedir. Görünür, cizgi filmi personajları "Qulliverin səyahəti"ni yaxşı oxuduqlarından belə iddia səsləndirib sərsəmləməkdən çəkinmirlər. Hələ tələblərini, guya, parlament dialoquna və diplomatiyaya sadiqlik əlaməti olaraq Azərbaycan Milli Məclisinin sədrinə təqdim etməyi də düşünürlər.

Lüksemburq Deputatlar Palatasının qətnamə adı altında çıxardığı anti-Azərbaycan oyunbazlığının digər tərəflərinə diqqət yetirməyə lüzum görmürük. Başlıca məqam budur ki, Qərb institutları ölkəmizə qarşı ən müxtəlif metodların köməyi ilə kampaniya aparırlar. Bu kampaniyanın qərəz motivləri ortaya son dərəcə eybəcər durum çıxarır. Bu eybəcərlik isə Avropanın öyündüyü dəyərlərin deqredasiyası perspektivini doğurmaqdadır. Çünki dəyərlər cəfəng məsələlər, avantürist baxışlar üçün alətə çevrilir.

Sonda əvvəldəki bənzətməmizə qayıdaq. Bir daha deyək ki, Avropanın "cırtdan" dövlətlərindən olan Lüksemburqun Deputatlar Palatasının qətnaməsi güclü adamla mübarizə aparanlara öz aləmində dəstək olmağa çalışan namərd və qorxaq birinin əməlinə bənzəyir. Yelin isə qayadan apardığı yalnız tozdur.

*Ə.RÜSTƏMOV*
*XQ*

# "Monumentwatch.org"un vay-şivənliyi

## *Qarabağın "erməni mədəni mirası"na təcavüz ritorikasının məqsədləri*

MONUMENT WATCH

**Sən demə, "Monumentwatch.org" adlı bir sayt var imiş və bu sayt "Artsax"ın mədəni irsinin monitorinqini aparırmış. Əvvəla, onu deyək ki, belə bir saytın yaradılması və fəaliyyət göstərməsi birbaşa rəsmi İrəvanın təşəbbüsüdür. Doğrudur, elektron resursda onun Ermənistan dövlətinə bağlılığına dair hansısa qeyd yer almasa da, partnyor təşkilatlar sırasında ölkənin ayrı-ayrı dövlət müəssisələrinin, o cümlədən, elmlər akademiyasına bağlı qurumların yer almaları bunu söyləməyə əsas verir. Digər yandan, baş nazir Nikol Paşinyan administrasiyasının Qarabağın erməni mirası məsələsində başlatdığı kampaniyanın mövcudluğundan xəbərdarıq. Həmin kampaniya çərçivəsində ölkəmizə qarşı hədyanların yağdırılmasından da həmçinin.**

Bəli, Ermənistanda "Monumentwatch.org" adlı "Artsax"ın mədəni irsinin monitorinqini apardığını bəyan edən, ingilis, rus və erməni dillərində fəaliyyət göstərən elektron resurs varsa və o, qarşısına Qarabağın abidələrindəki hansısa dəyişiklikləri və ya onların dağıdılması hallarını qeydə almağı məqsəd qoyubsa, deməli, necə deyərlər, torbada pişik var. İndi, obrazlı desək, o pişik Xankəndidəki memorial kompleksdir. O kompleks ki, onun "Artsax"ın "qəhrəmanlarının" şərəfinə ucaldıldığı haqqında yaramaz balladalar qoşulur.

"Monumentwatch.org"da yazılıb ki, 2024-cü ilin noyabrında sosial şəbəkələrin Azərbaycan seqmentində "Stepanakert memorial kompleksi"ndə müxtəlif istifadəçilər tərəfindən lentə alınan videolar yayılıb. Videolarda kompleksin zədələndiyi görünməsə də, bununla bağlı çağırışlar ifadəsini tapır və sən demə, belə çağırışlar təhlükəli imiş. Sayt onu da yazıb ki, 2024-cü il noyabrın 17-də dözümsüzlük və aqressiv təqdimatlı teleqram kanallarından birində ermənilərin qanunsuz tikililərinin dağıdılması məsələsi açıq şəkildə müzakirə olunub.

Sayt bir sıra başqa məqamların üzərində də dayanıb ki, onları diqqətə çatdırmağa ehtiyac duymuruq. Çünki bildirilənlər əvvəlki sərsəmləmələrin davamıdır. Bir daha vurğulayaq ki, Ermənistan hakimiyyətinə yaxın dairələr Qarabağın mədəni mirası məsələsini həmişə diqqətdə saxlamağa və bununla anti-Azərbaycan təbliğatına xüsusi görkəm qazandırmağa çalışırlar. Bu onların 44 günlük müharibədən və lokal xarakterli antiterror tədbirlərindən sonra yeritdikləri mənfur kursun mühüm tərkib hissəsidir.

Ermənistan hakimiyyəti bir yandan Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bəyan edir, digər tərəfdən isə bu sayaq cəfəng məsələlər qaldırır. Heç şübhəsiz, "Monumentwatch.org" saytı kimi bir elektron resursun meydana çıxması və fəaliyyəti də avantürist niyyətlərin gerçəkləşdirilməsinə xidmətdir. Nəzərə alaq ki, sözügedən saytda Qarabağda və işğaldan azad edilmiş digər ərazilərimizdəki ayrı-ayrı abidələrin foto görüntüləri yer alır, onlar erməni mirası kimi təqdim edilir.

Qeyd edək ki, bu təqdimatlarda çox sadə məntiq var. Fikrimizə aydınlıq gətirmək üçün Ermənistan hakimiyyətinin beynəlxalq məhkəmələrdə Azərbaycana qarşı qaldırdığı iddiaların məzmununa nəzər salaq. Təsəvvür edin, həmin iddiaların birində Ağdamdakı abidənin erməni mədəni irs nümunəsi kimi təsdiqlənməsi tələb olunur. Təxminən belə: torpaq Azərbaycanındır, ancaq torpağın üzərində yerləşən tikili erməni abidəsidir. Ermənistan hakimiyyəti məsələnin hüquqi təsdiqinə nail olmaqla gələcək üçün zəmin formalaşdırır.

Deməli plan belədir ki, nə vaxtsa Ermənistan güclənəcək və Azərbaycana qarşı ərazi iddiası irəli sürəcək və o zaman məsələn, Ağdamdakı abidənin beynəlxalq məhkəmələr tərəfində erməni abidəsi olaraq təsdiqlənməsi əsas götürüləcək. Yəni, bildiriləcək ki, abidə ermənilərindirsə, həmin abidənin yerləşdiyi torpaq da onlarındır. Hazırda "Monumentwatch.org" saytı da məhz bu məqsədlə ortaya atılıb.

O ki qaldı, bilavasitə Azərbaycan hakimiyyəti tərəfindən Qarabağın erməni mirasının dağıdılması məsələsinə, Xankəndidə ucaldılmış qondarma mahiyyətli abidə miras statusunda ola bilməz. Çünki onun inşasına 2015-ci ildə başlanılıb, bunun üçün xərc çəkilib və sair. Beynəlxalq hüquqa əsasən torpağın sahibi olan Azərbaycan isə heç kəsdən ərazisində nəyinsə inşasını xahiş etməmişdi. Odur ki, istəyinə uyğun şəkildə hansısa tikilini sökə bilər. Yeri gəlmişkən, qondarma "Artsax Respublikasının" "parlament" binası eyni aqibəti yaşadı. Digərləri də yaşayacaq və burada mədəni irsə təcavüzdən söhbət belə gedə bilməz.

Bir məqamı vurğulayaq. Əslində, Ermənistan hakimiyyətinin məqsədi heç də hansısa abidəni qorumaq deyil. Erməni varlığı üçün mirasa hörmət anlayışı, qətiyyən, yoxdur. Əgər olsaydı, işğalçılıq edib mədəniyyət nümunələrimizə, dini məbədlərimizə münasibətdə vandal münasibət göstərməzdi. Erməni varlığı, əksinə, Qarabağdakı abidələrin dağıdılmasını istəyir. "Monumentwatch.org" Xankəndidəki memorial kompleks barədə söz açmaqla və onunla bağlı "Artsax qəhrəmanları" ritorikasını gündəmə gətirməklə qıcıq doğurmaq niyyəti güdür. Erməni düşüncə sistemi, bir növ, həmin kompleksin dağıdıla biləcəyini yada salır.

Sonda onu da deyək ki, Ermənistan hakimiyyəti Qarabağ ermənilərinin bölgədən çıxarılmasını həyata keçirməklə erməni avantürizmi üçün niskil ritorikasını əsas götürdüyü kimi, abidələrə təcavüz cəfəngiyyatını da həmin ritorikanın tərkib hissəsi olaraq təsəvvürə gətirir və təbliğ edir. Azərbaycanın yurisdiksiyasında yaşayan ermənilər anlayışı yoxdursa, ölkəmizin ərazisində olan erməni abidələri, daha doğrusu, erməni abidələri kimi təqdim olunan tikililər də olmamalıdır.

*Ə.CAHANGİROĞLU*
*XQ*

**Köşə**

# Prodüser Qoar Xodjabaqyana çətin sual:

## *150 min çoxdur, yoxsa 1 milyon?*



**İttifaq MİRZƏBƏYLİ**
**i-mirzebeyli@mail.ru**

**Ermənilərin İkinci Qarabağ müharibəsindəki rüsvayçılığından, xüsusən Azərbaycanın 2023-cü ilin sentyabrında həyata keçirdiyi 23 saatlıq antiterror əməliyyatından sonra əli heç yerə çatmayan ABŞ erməniləri ayda bir "film çəkdirməklə", guya, dünyanın diqqətini Artsaxa yönəltmək istəyirlər. Bu məqsədlə fəaliyyətə başlayanda isə əsrlərdən bəri topladıqları mifyaratma təcrübəsindən bəhrələnirlər.**

Dünən işğalçı ölkənin jurnalist və "ekspert"lərinin ərsəyə gətirdiyi "Armİnfo" xəbər portalında mifyaratma prosesindəki fəallardan biri – "Evdən yaxşı yer yoxdur" adlı, guya, sənədli olan filmin prodüserləri sırasında yer almış Qoar Xodjabaqyanla müsahibəni oxudum. Yeri gəlmişkən, Qoarın Gövhər, Xodjanın Xoca, baqın bəy olduğunu bilməyən varmı? Yoxdur. Yəni onların nəyi varsa, hamısı türklərdən oğurlanmadır. Ən əsası isə dövlət qurduqları torpaqlar.

Xatırladım ki, bu saxta təfəkkürlü və məkirli prodüserə– insafən, yaraşıqlı qadındır – dilim çatsaydı, onların filminin adını bəyəndiyimi deyərdim. Çünki ermənilər Cənubi Qafqaza gələndən bəri yüz minlərlə azərbaycanlı öz doğma ev-eşiyindən, yurd-yuvasından didərgin salınmışdır. Ona görə hələ də doğma ev həsrətiylə yaşayan çoxsaylı soydaşımız hər addımda ata-babasının torpağı, mülkü, malı haqqında danışanda ermənilərin indi işlətdiyi "evdən yaxşı yer yoxdur" arqumentini dilə gətirirlər. Yüz minlərlə soydaşımız isə həmin ürək göynərtiləri ilə dünyasını dəyişmişdir.

"Müsahibə"dəki bəzi məqamları xatırladaq. **Birinci.** Jurnalistin suallarını cavablandıran Qoar deyir ki, əsas məqsədimiz Azərbaycanın 2020-ci ilin payızındakı haqsızlıqlarından və 2023-cü ilin sentyabrında törətdiyi etnik təmizləmədən əziyyət çəkmiş 150 min artsaxlının problemini qabartmaqdır.

İndi mən bu məxluqa sual verirəm: "150 min çoxdur, yoxsa bir milyon?" Üstəlik, Qarabağda heç zaman o qədər erməni olmayıb.

**İkinci.** ABŞ-dəki himayədarlarının yalı hesabına danışan bu şərəfsiz deyir ki, son dörd ildə Artsaxdakı bütün erməni abidələri məhv edilib.

İndi mən ona sual verirəm: Otuz il vəhşi qəbilələrin, insan qanı içən terrorçu, təxribatçı və qatillərin işğalı altında qalaraq viranəliyə çevrilmiş Azərbaycan ərazilərindəki milli, dini, mədəni və tarixi abidələrimizin hamısı sağ-salamatdırmı? Yox! Hamısını sənin soyundan olah heyvanxislətlər yer üzündən siliblər.

**Üçüncü.** Prodüser deyir ki, çəkdiyimiz sənədli filmlə (İrəvanda və Nyu-Yorkda oturub Qarabağ haqqında "sənədli" nə isə çəkməyi ancaq ermənilər bacararlar) dünyanın diqqətini Artsaxda törədilənlərə yönəltməyə çalışmışıq.

Siz indi o istiqamətdə "çalışırsınız". Azərbaycan isə artıq dörd ildir ki, sizin Qarabağda və Şərqi Zəngəzurda törətdiklərinizi dünya ictimaiyyətinə göstərir, çatdırır. Artıq dünyanın müxtəlif ölkələrini təmsil edən səyyah, turist, jurnalist, çoxsaylı beynəlxalq təşkilatların nümayəndələri, siyasətçi, diplomat, deputat, ekspert və ziyalılar hayların "əl izi" olan xarabalıqları, Hirosimaya çevrilmiş şəhərləri görmüş və sizin zatınıza söymüş, əcdalarınızı yada salaraq tüpürmüşdür.

**Dördüncü.** Qoar deyir ki, Azərbaycan dövlətinin Artsaxda törətdikləri əvvəlcə blokada , sonra soyqırımı və nəhayət, etnik təmizləmə idi.

İndi sual olunur: Bəs Ermənistan dövlətinin Xocalıda törətdiyi nə idi? Xeyriyyəçilik marafonu, yoxsa humanitar addımlar idi? Üstəlik, Azərbaycan bütün addımlarını öz ərazilərini xain düşmənin işğalından azad etmək üçün atmışdır. Ermənistan dövləti isə Xocalıda, sonradan Ağdam, Füzuli, Cəbrayıl və digər ərazilərimizdəki vəhşiliklərini qonşunun ərazilərini ələ keçirmək üçün törətmişdi. Ona görə də dünyanın diqqətini nəyə yönəltmək istəyirsiniz, yönəldin. Dünya artıq sizin böyüklü-kiçikli vəhşi sürüsündən ibarət olduğunuzu çox yaxşı bilir.

Yazını burada yekunlaşdırmaq istəyirdim. Ancaq onun "Artsax sakinləri ən dözümlü insanlardır" – ifadəsinə də münasibət bildirməmək mümkün deyil. Bu prodüserə xatırladıram ki, "Artsax respublikasının buraxılması haqqında" tarixi sənədi məhz həmin "ən dözümlü" sakinlərin özləri imzaladılar. Ermənistan mətbuatı hələ də Artsax rəhbərlərinin bir-birinə xəyanət etdiyini yazır və onların "kom halında" Bakıda "istirahət etməsinin" səbəbini də məhz xəyanətdə axtarırlar.

**P.S. İnsafən, filmə yaxşı ad veriblər. Həmin ad 1 milyondan çox azərbaycanlının ürək göynərtisini özündə əks etdirir.**

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

## III MƏQALƏ

**Dövlətçilik hər bir şəxsin qəlbində olmalıdır.**

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

# Liderin quruculuq kursu



### Azərbaycan nümunəsi

II məqalədə quruculuğun politoloji anlamının Azərbaycan Prezidenti İlham Əliyevin nümunəsində daha geniş məna kəsb etməyə başladığını vurğulamışıq. Həmin anlamın siyasi-nəzəri kriteriyalarının tədqiqi çox aktualdır. Çünki onlar, faktiki olaraq, postsovet məkanında yeni liderlik nümunəsinin liderin hansı mənalarda qurucu ola biləcəyinə nəzəri-konseptual işıq salır. Demək istəyirik ki, müasir tarixi mərhələdə liderin quruculuğu dərin və çoxfaktorlu məsələdir və onu əsaslı fəlsəfi, siyasi-nəzəri təfəkkürün araşdırma hədəfinə gətirmək vacibdir. Bununla Azərbaycan fəlsəfi və politoloji fikri üç mühüm istiqamətdə addım atmış olur.

Birincisi, müasir mərhələdə, bütövlükdə, fəlsəfi və politoloji tədqiqatlarda keşməkeşli XXI əsrdə pozitiv mənada quruculuğun məzmun, məna və strateji hədəflərinə nəzəri baxışların formalaşmasına təkan verər.

İkincisi, Azərbaycan nümunəsinin ciddi surətdə fəlsəfi və siyasi-nəzəri tədqiqi əsrlərdir arxa plana atılmış Azərbaycan və onun əsasında, bütövlükdə, türk analitik təfəkkürünün yenidən ön sıraya çıxmasına töhfə olar.

Üçüncüsü, dünya miqyasında Azərbaycanda qurucu liderlik nümunəsinin fəlsəfi və siyasi-nəzəri tədqiqinin təməli qoyular.

Bunları həyata keçirmək mümkün və zəruridir. Azərbaycanda kifayət qədər istedadlı, yaradıcı və vətənsevər gənc alimlər vardır. Təmənnamız onların bu kimi mövzulara artıq getdikcə daha çox yönləndirilmələri və ya özlərinin yönlənməsindən ibarətdir.

### Çevik və strateji qərarqəbuletmə

Çevik strateji qərar qəbuletmə özlüyündə tarixin bütün dönəmlərində siyasi lider və dövlət başçıları üçün vacib keyfiyyət olmuşdur. Lakin XXI əsr milli, regional, regionlararası və qlobal miqyaslarda dövlətin və cəmiyyətin həyatının bütün sferalarına elə sürətli dəyişmə və mürəkkəbləşmə dinamikası gətirmişdir ki, strateji qərar qəbuletmə yeni məna çalarları almışdır. İndi faktiki olaraq fəlsəfi və siyasi-nəzəri təfəkkür üçün "strategiya", "strateji məqsəd", "strateji konsepsiya", "strateji proqnozlaşdırma" və s. kimi anlayışlarla yanaşı, "strateji qərar qəbuletmə" anlamı da olduqca aktuallaşmışdır. Məsələnin yalnız siyasi-nəzəri və ya fəlsəfi aspektdə aktuallaşdığını düşünmək tam doğru deyildir. Çünki fundamental elm sahələrində uzun müddətdir ki, qərar qəbuletmənin təbiətşünaslıq, informasiya, kulturoloji, idarəetmə, etik, ekoloji və digər anlamları üzərində ciddi araşdırmalar aparılır. Qısaca olaraq, onlardan ikisi üzərində dayanaq.

Onlardan birincisi, böyük azərbaycanlı alim Lütfi zadə qeyri-səlis məntiq və qeyri-səlis çoxluq nəzəriyyəsi çərçivəsində qərar qəbuletmənin konseptual və metodoloji izahı riyazi modelləşdirilməsi (yəni faktiki olaraq fundamental bilik aspektində dərki) ilə bağlıdır. Lütfi zadə keçən əsrin 60-cı illərinin ikinci yarısında qərar qəbuletmənin qeyri-səlis məntiq əsasında riyazi modelini qurmuşdur (Lütfi Zadə–Mamdani-Bellman). Orada göstərilir ki, hətta ən optimal modeldə belə elə sahə vardır ki, qərar qəbuletmədə nəzərə almaq imkansız olur. Buna görə də hər bir situasiyada qərar qəbul etmək nisbi xarakter (bu anlamda qeyri-səlis) daşıyır. Onun qurduğu qrafikdən aydın olur ki, qərar qəbuletmə sahəsindən kənarda olan sfera mövcuddur. Bu sfera həmin anda qərar qəbul edənin diqqətində obyektiv olaraq kənarda qalan faktorları ifadə edir.

Eyni nəticəni sinergetikada keçən əsrin 70-ci illərində almışlar. H.Haken tədqiqatında qərar qəbuletmənin sinergetik modelini qurmuşdur və orada faktiki olaraq Lütfi zadənin gəldiyi qənaət təsdiqini tapmışdır.

Bu iki ciddi və əsaslı elmi tədqiqat nümunəsi nəyi ifadə edir? Aydın olur ki, ümumiyyətlə, insan fəaliyyətində qərar qəbuletmənin həmişə bir qeyri-müəyyən, "qaranlıq", elmi olaraq "tutula bilinməyən" tərəfi vardır. Eyni zamanda, burada müəyyən-qeyri-müəyyən dixotomiyası kontekstində standart nisbət müəyyən etmək mümkün deyildir. Çünki fəaliyyət sferaları fərqlidir və hər birinin özəl şərtləri, dinamikası mövcuddur. Siyasi fəaliyyət bu anlamda XXI əsrdə daha çox fərqlənməyə və mürəkkəb faktorların təsiri əhatəsinə düşməyə başlamışdır.

İndi müxtəlif fəlsəfi, politoloji, analitik, sosial-psixoloji, kulturoloji və sair araşdırmalarda siyasi liderin çox çətin və mürəkkəb şəraitdə qərar qəbul etməsi təhlil olunur. Lakin onların hər birinin bir qüsuru mövcuddur – universal kriteriyalar axtarmağa çalışırlar. Bunun əvəzində hər bir dövlət üçün real olan qərar qəbuletmə kriteriyalarının müəyyən edilməsi daha faydalı olardı. Bu barədə indi alimlər yazırlar.

Ancaq konkret dövlətdə liderin qərar qəbuletməsini əsaslı araşdırmaq üçün həmin liderin real fəaliyyəti olmalıdır, o öz nümunəsini yaratmalıdır. Məhz bu aspektdə İlham Əliyev nümunəsini tədqiq etməyə ehtiyac yaranmışdır.

Məsələ probleme daha geniş aspektdə yanaşanda bir az da mürəkkəbləşir. Çünki strateji qərar qəbuletmənin çevik formasından bəhs edilirsə, meydana əlavə müxtəlif şərtlər çıxır. Bununla aydın olur ki, çevik strateji qərar qəbuletmə reallıqda ierarxik struktura və mürəkkəb funksional xüsusiyyətlərə malikdir. Şübhəsiz, məsələnin bu cür qoyuluşu strateji qərar qəbuletmədə baza rolunu oynayan prinsipin müəyyən edilməsi ilk addım olmalıdır. Ona da iki prizmada baxmaq lazımdır. Birincisi, hansı göstəricilər strateji qərarın çevik olduğunu göstərir? İkincisi, hansı meyarlarla müəyyən etmək olar ki, çevik qəbul edilmiş strateji qərar düzgündür? Bu iki sualın semantik anlamlarının siyasət müstəvisində kəsişdiyi "zona"dan cavab axtaraq.

### Siyasi varislik-kreativlik: nəticəverici nisbət axtarışı

Bizcə, çevik və düzgün strateji qərar qəbuletmənin baza prinsipi siyasi varisliklə kreatviliyin (tətbiqi yenilik sayılan yaradıcı fikir, mövqe, qərar) dinamik vəhdətindən ibarətdir. Burada müstəqil dövlət üçün siyasi varisliyin təmələ yerləşdirilməsində məqsəd XXI əsrin meydana gətirdiyi və öncəki tarixi dövrlər üçün qeyri-standart sayılan şərtlərə mütləq surətdə dövlətçilik ənənəsi kontekstində baxılması zərurətini vurğulamaqdan ibarətdir.

Əgər kimlərsə, bu cür seçimi qeyri-demokratik, konservativ və ya hansısa köhnəlmiş "izm"lə əlaqələndirməyə çalışırsa, haqlı deyil. Çünki XXI əsr getdikcə daha geniş, intensiv və şiddətli formada sübut edir ki, indiki yüzildə yalnız dövlətçiliyində varisliyin yerini düzgün müəyyən edə bilən ölkələr milli müstəqil dövlət kimi ayaqda qala biləcəklər. Məlumdur ki, indi, bir sıra nəzəriyyələrdə, ümumiyyətlə, milli dövlətlərə ehtiyacın qalmadığı kimi təhlükəli ideyalar irəli sürürlər. Bunun fonunda milliliklə müstəqilliyin yeni məzmunları və münasibətləri formalaşır. "Milli" olmaqla "müstəqil" olmağın müasir anlamı, onların qarşılıqlı əlaqəsi və bütün bunların lider tərəfindən dərk edilməsi miqyası aktuallaşır.

Məsələnin bu cür qoyuluşu avtomatik olaraq siyasətdə liderin missiyası ilə fəaliyyət miqyası (bu anlayışlara akademik İsa Həbibbəyli mənasında baxırıq) arasında münasibətlərin və onun çevik strateji qərar qəbuletməyə təsirinin tədqiqini ön plana çıxarır. Çünki strateji qərar qəbuletməyə liderin öz missiyasını dərk etməsi ilə real fəaliyyət miqyasının sərhədləri ciddi təsir göstərməlidir. Hər bir lider bu sərhədlər daxilində ümumi mənzərəni görür və qiymətləndirir.

Əgər lider öz missiyasını siyasi varisliyə dayanan şərtlər daxilində həyata keçirmək kontekstində görürsə, onun fəaliyyətində mütləq, bu, öz əksini tapır – dövlətçilik ənənəsinə sadiqlik ön plana çıxır. Buna əsasən də lider fəaliyyət miqyasını milli səviyyədən, regional, regionlararası və qlobal miqyaslara transformasiya edə bilir (həmin səviyyələrə realpolitika müstəvisində keçid edir). Bu prosesdə milli liderin missiyası ilə fəaliyyət miqyasının dinamikası əhəmiyyətli rol oynayır. Strateji qərarlar həmin dinamika əsasında qəbul edilir.

Belə çıxır ki, XXI əsrdə strateji qərarların qəbil edilməsində öz missiyası ilə fəaliyyət miqyasını (liderlik miqyası) hansı nisbətdə görməsi lider üçün istiqamətverici rol oynayır. Buradan "çevik strateji qərar qəbuletmə" ilə "düzgün qərar qəbuletmə"-nin məzmununa baxmaq olar. Çeviklik hər bir situasiyada liderin zamanında strateji məqamları nəzər alaraq qərara gəlməsini ifadə edir. Yəni "çeviklik" maksimum qısa müddətdə tələsik qərara gəlmək deyildir. Çeviklik elə qərar qəbuletmədir ki, birincisi, mövcud situasiyaya adekvat reaksiyadır, ikincisi, alınan qərar strateji faydalı olur. Çevikliyin nəticəvericiliklə əlaqəli dərk edilməsi yekunda qərarın strateji cəhətdən düzgün olduğunu təşkil edən arqumentlərdəndir.

Bizim əsas tezisimiz vurğulanan bu anlamların politoloji sintez edilməsindən formalaşır. Yəni düzgün və çevik strateji qərar qəbuletmə siyasi varisliklə mövcud situasiyada kreativ (yaradıcı, əhəmiyyətli dəyişdirici) görünən məqamların sintezindən yaranır. Bir neçə faktda İlham Əliyevin çevik və düzgün strateji qərarlar qəbul etdiyinə baxa bilərik.

İlham Əliyev Avropa İttifaqı ilə münasibətləri Şərq Tərəfdaşlığı Proqramı çərçivəsindən zamanında çıxararaq müstəqil əməkdaşlıq müstəvisinə keçirə bildi. XXI əsrin ikinci on illiyi və üçüncü onilliyin ilk illəri sübut etdi ki, Azərbaycan Prezidenti düzgün strateji qərar vermişdir.

İlham Əliyev 2009-cu ildə Türk Dövlətlərinin Naxçıvan Sammitində strateji hədəf olan əməkdaşlıq modelini sənədlərə konkret ifadə etməklə Türk dünyasının gələcəyi ilə bağlı düzgün qərar verdi. Bu prosesin sonrakı mərhələsi Şuşa Bəyannaməsi və daha sonrakı mərhələsi Qarabağ Bəyannaməsi oldu. İndi aydın olur ki, TDT vurğulanan kontekstdə uğurlu stategiyaya malikdir. Artıq TDT-nin himni səsləndirilir!

Bunların fonunda İlham Əliyevin bir neçə il müddətində milli ideyanın ərazi bütövlüyünün təmini kimi reallaşması istiqamətində həyata keçirdiyi proqramlar ciddi faktlardır. Çünki bu strateji baxış və fəaliyyət Vətən müharibəsində Qələbəyə gətirdi. Milli ideyanın reallaşmasının əsas nəticəsi isə Azərbaycan üçün yeni tarixi mərhələnin başlaması oldu.

Bu məqam siyasi liderlikdə əhəmiyyəti danılmaz olan bir faktoru ifadə edir: strateji çevik və düzgün qərar yeni bir mərhələnin əsasını yaradırsa və növbəti strateji hədəfləri müəyyən edirsə, uğurlu liderliyin missiyası ilə miqyasının səmərəli vəhdətindən xəbər verir.

Deməli, düzgün strateji qərar qəbuletmə qabiliyyəti siyasi varisliklə kreativliyin optimal nisbəti olduğu halda quruculuğun XXI əsrə xas olan başqa bir parametrini – ölkə üçün strateji məna daşıyan tarixi dövrləşdirməni gündəmə gətirir. İlham Əliyev Azərbaycanın yeni tarixi mərhələsini müəyyən edən milli siyasi liderdir! Burada nyə "Azərbaycan Respublikası" ifadəsini deyil, "Azərbaycan" terminini işlətdiyimizin xüsusi fəlsəfi, ideoloji və politoloji mənası vardır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

# "Vətəndən kənarda yaşasaq da..."

**Azərbaycançılıq ideyası yalnız Vətəndə yaşayan soydaşlarımız tərəfindən deyil, həm də bütün dünya azərbaycanlıları tərəfindən milli-mənəvi məfkurə kimi qəbul olunub. Bu məfkurəyə sadiq soydaşımız harada yaşamasından asılı olmayaraq, Azərbaycanı düşünür, onun təəssübünü çəkir, adını uca tutur.**

Belə vətənpərvər soydaşlarımızdan biri 20 ildən çox Rusiyanın Sankt-Peterburq şəhərində yaşayan pedaqoq, diaspor fəalı, "Çinar" Azərbaycan Milli Mədəniyyət Mərkəzinin həmtəsisçisi, Dünya Azərbaycan Qadınları İctimai Birliyinin sədr müavini Ülviyyə Abbasovadır. 11 ildir Sankt-Peterburqdakı məktəblərin birində ibtidai sinif müəllimi işləyən soydaşımız, eyni zamanda, Azərbaycan təhsil sistemində aparılan islahatları da yaxından izləyir. Ülviyyə xanımla söhbətimiz Rusiyada Azərbaycan mədəniyyətini təbliğ edən "Çinar" Azərbaycan Milli Mədəniyyət Mərkəzinin yaranması və fəaliyyət istiqamətləri barədə oldu.

**– Ülviyyə xanım, mədəniyyət mərkəzi nə vaxtdan fəaliyyət göstərir?**

– "Çinar" Azərbaycan Milli Mədəniyyət Mərkəzi 2020-ci il iyunun 14-də yaranıb. Bu, rəsmi qeydiyyata alındığımız tarixdir. Əslində, buna qədər də fəaliyyət göstərirdik. Mərkəz "Çinar" Rəqs Ansamblının əsasında yaranıb. Ansamblın qurucusu isə Xeyransa Mirzəyeva olub. Xeyransa xanım Sankt-Peterburq Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirib, hazırda orada müəllim işləyir. 26 il bundan əvvəl məhz onun rəhbərliyi ilə konsulluğun nəzdində ansambl qrupu yaradılıb.





Rəqs qrupu ilk dəfə 1998-ci ilin martında Novruz bayramı ərəfəsində şəhər administrasiyası tərəfindən təşkil edilən tədbirlərin birində çıxış edib. Bundan sonra ansamblın fəaliyyət dairəsi böyüyüb, üzvlərinin sayı artıb. Əslində, həmin dövr üçün, bu, böyük hadisə idi. Çünki o vaxt mobil telefon, sosial şəbəkə yox idi. İnformasiya da bol deyildi, geniş yayılmırdı. Burada yaşayan azərbaycanlılar bir-birini yaxşı tanımırdılar, əlaqələr yox dərəcəsində idi. Belə bir ansamblın yaranması Sankt-Peterburqda təhsil alan, çalışan azərbaycanlılar arasında yaxın ünsiyyətin yaranmasına rəvac verdi. Valideynlər övladlarını ansambla yazdırır, bir-birilə tanış olan ailələr arasında isti təmaslar qurulurdu. Bayramları bir yerdə keçirməyə başladılar. Yəni ansambl vasitəsilə möhkəm dostluq münasibətlərinin əsası qoyuldu. Hətta, ansamblda tanış olan bəzi gənclər sonradan ailə qurdular. Sonra bu şəhərdə yaşayan azərbaycanlılar bir birlik yaratdılar.

Sonradan bu birlik milli mədəniyyət mərkəzinə çevrildi. "Çinar" Rəqs Ansamblı da onun tərkibində idi. Burada təşkil edilən konsertlərdə Azərbaycan həqiqətləri, milli mədəniyyətimiz təbliğ olunurdu. Onu da qeyd edim ki, "Çinar" Vətəndən kənarda yaradılmış ilk milli rəqs ansamblıdır. Rusiyanın müxtəlif şəhərlərində, eləcə də bir sıra xarici ölkələrdə konsert proqramlarımız olub.

Sonrakı dövrdə "Çinar" Azərbaycan Milli Mədəniyyət Mərkəzi adı altında fəaliyyət göstərməyi qərara aldıq. Həmtəsisçilərdən biri mən oldum. Artıq on iki ildir buradayam. Övladlarımı da bura gətirdim və fəaliyyət göstərməyə başladım. Tədbirlərimizin sayı və səviyyəsi daha da artdı. Bu şəhərdə yaşayan azərbaycanlı ziyalılara həsr olunmuş böyük tədbir keçirdik, Sankt-Peterburq Dövlət Universitetində Novruz bayramı ilə bağlı elmi konfrans təşkil elədik.

**– Bəs bir pedaqoq kimi çalışdığınız illərdə hansı uğurlara imza atmısız?**

– Əldə etdiyim uğurlardan biri Rusiyada ilk dəfə Azərbaycan dilində etnoimlanın keçirilməsidir. İmla ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Mənim Azərbaycanım" mövzusunda idi. Sonra həmin layihə Novosibirskdə də baş tutdu. Eləcə də müxtəlif səpgili tədbirlər təşkil elədik. Azərbaycan Prezidenti İlham Əliyev Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin keçirilməsi ilə bağlı sərəncam imzalamışdı. Biz də buna əsasən Sankt-Peterburqda müxtəlif ictimai təşkilatların, Azərbaycan diasporunun nümayəndələrinin və gənclərin iştirakı ilə tarixi konfrans keçirdik.

**– Övladlarınız necə, diaspor fəaliyyəti ilə məşğul olurlarmı?**

– Bəli. Övladlarım Sankt-Peterburqda yaşamalarına baxmayaraq, doğma Vətənə çox bağlıdırlar. Ölkəmizin təbliği ilə bağlı müəyyən işlərin görülməsinə cəhd edirlər. Məsələn, mərkəzimizin tərkibində bir il əvvəl gənclər şurası təsis olunub. Oğlum Cavidin təşəbbüsü ilə yaradılan şuraya gəncləri toplamışıq. Azərbaycan Gənclər Günü ərəfəsində burada tədbirimiz oldu. Bu ilin yayında baş tutan festivala artıq "Çinar" Gənclər Şurası kimi dəvət aldı, çox gözəl təqdimatımız oldu və Azərbaycan mədəniyyət nümunələrini bir daha təbliğ elədik.

**– Azərbaycanın zəngin mədəniyyətinin, incəsənətinin təbliği ilə bağlı daha hansı işləri görmüsünüz?**

– Cari ilin oktyabr ayında Mayakovski adına Sankt-Peterburq şəhər kitabxanasının medioholl zalında Azərbaycan kəlağayı sənətinin UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsinin 10 illiyi və bizim ictimai birliyin bu əlamətdar hadisə ilə bağlı elan etdiyi müsabiqənin nəticələri ilə bağlı tədbirimiz oldu. Dekabrın 15-də isə Moskvada Leyla Əliyevanın redaktorluğu ilə Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi tərəfindən nəşr olunmuş "Azərbaycan xalq nağılları" kitabının təqdimatını keçirəcəyik. Həmin kitablar Moskva Mərkəzi Şəhər Kitabxanasına hədiyyə olunacaq.

Əlbəttə, fəaliyyətimiz bununla yekunlaşmır. Qarşıda görüləcək işlərimiz çoxdur. Xaricdə fəaliyyət göstərən diaspor təşkilatları, ilk növbədə, ana dilimizin, mədəniyyətimizin təbliği istiqamətində fəaliyyətlərini daha da gücləndirməlidirlər. Bu zaman gənclərin ana dilini unutmamaları məsələsi ön planda durur. Vətəndən kənarda yaşasaq da, ana dilimizi heç vaxt yaddan çıxarmamalı, onu daim yaşatmalıyıq.

***Söhbəti yazdı:***
***Azər MUSTAFAYEV***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№471** **Bakı şəhəri, 1 noyabr 2024-cü il**

**"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 574-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 iyun tarixli 574-VIQD nömrəli Qanununun tətbiqi və "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 18 avqust tarixli 1812 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 26 oktyabr tarixli 341 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1559 (Cild I) ilə təsdiq edilmiş 2 nömrəli əlavə – "ASAN ödəniş" sistemindən istifadə Qaydaları"nın 3.14-cü bəndində "saxlanılır" sözü "mühafizə edilir" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 yanvar tarixli 21 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 104 (Cild I) ilə təsdiq edilmiş "İnnovativ layihələrin ictimaiyyət üçün açıq reyestrinin aparılması və "Startap" pasportunun verilməsi Qaydaları"nın 2.2.4-cü yarımbəndində "saxlanılmasını" sözü "mühafizə olunmasını" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421 (Cild I); 2024, № 1, maddə 98, № 3, maddə 301, № 7, maddə 892; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 oktyabr tarixli 448 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nın 4.1.1-ci yarımbəndinin 1-ci abzasında və 4.1.4-cü yarımbəndində "saxlanılan" sözü "mühafizə edilən" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№472** **Bakı şəhəri, 4 noyabr 2024-cü il**

**"Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin tabeliyində "Turizm və Rekreasiya Zonalarının İdarə Edilməsi və İnkişafı Mərkəzi" publik hüquqi şəxsin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında**

"Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin tabeliyində Turizm və Rekreasiya Zonalarının İdarə Edilməsi və İnkişafı Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 avqust tarixli 172 nömrəli Fərmanının 4.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin tabeliyində "Turizm və Rekreasiya Zonalarının İdarə Edilməsi və İnkişafı Mərkəzi" publik hüquqi şəxsin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi bu Qərardan irəli gələn məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№473** **Bakı şəhəri, 5 noyabr 2024-cü il**

**"Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 mart tarixli 63 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 10.6-cı bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 mart tarixli 63 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 3, maddə 330 (Cild I) 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin kollegiya üzvlərinin sayı 11 (on bir) nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədrinin birinci müavini

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədrinin müavinləri

Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Aparatının rəhbəri

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Aparatının rəhbərinin müavini

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Aparatının Dövlət qulluğu və insan resursları şöbəsinin müdiri

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutunun rektoru

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№474** **Bakı şəhəri, 6 noyabr 2024-cü il**

**"Naftalan" Kurortu haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında**

"Sağlamlıq turizminin inkişafında Naftalan neftinin rolunun artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 308 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Naftalan" Kurortu haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 475** **Bakı şəhəri, 6 noyabr 2024-cü il**

**"Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1170-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1170-VIQD nömrəli Qanununun tətbiqi və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 540 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 iyun tarixli 115 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Xüsusi təhsil müəssisələri haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 10 may tarixli 78 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 315 (Cild I); 2024, № 1, maddə 73; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 sentyabr tarixli 404 nömrəli Qərarı) 1-ci hissəsi ləğv edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 iyul tarixli 270 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1000 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 sentyabr tarixli 404 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Ümumi təhsil müəssisələrinin növlər üzrə Meyarları"nın 10.1.8-ci və 11.1.7-ci yarımbəndlərinin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 10.1.9-cu və 11.1.8-ci yarımbəndləri ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№476** **Bakı şəhəri, 6 noyabr 2024-cü il**

"Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 299 (Cild I); 2024, № 1, maddə 78, № 3, maddə 354, № 6 (II kitab),

maddə 715; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 16 oktyabr tarixli 455 nömrəli Qərarı) aşağıdakı məzmunda 4.24-1-ci bənd əlavə edilsin:

"4.24-1. "Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin təsdiqedici sənədləri əsasında, gömrük rüsumlarından azad olunmaqla idxal edilən bərpa olunan enerji və ondan səmərəli istifadə edilməsi sahəsində tətbiq olunan qurğuların, onların istehsalı üçün avadanlıqların hissə və ləvazimatlarının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə Siyahısı" təsdiq edilsin (əlavə olunur).".

**2.** Bu Qərar 2024-cü il iyunun 1-dən tətbiq edilir və 3 (üç) il müddətində qüvvədədir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№485** **Bakı şəhəri, 20 noyabr 2024-cü il**

**"Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçotun onun ailə üzvləri üçün saxlanılması Qaydası"nın təsdiq edilməsi haqqında**

"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1199-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 iyun tarixli 1380 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində göstərilən xidmətlərin və həmin xidmətləri göstərən dövlət orqanlarının (qurumlarının) siyahısı"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 16 iyul tarixli 145 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçotun onun ailə üzvləri üçün saxlanılması Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№477** **Bakı şəhəri, 7 noyabr 2024-cü il**

**"Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 121 (Cild I); 2024, № 1, maddə 116, № 4, maddə 471) ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"nın 8.1-ci bəndinin ikinci abzasında ", Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının qanunlarına" sözləri "Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinə" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 30 dekabr tarixli 247 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1246 (Cild I); 2024, № 1, maddə 116) ilə təsdiq edilmiş "Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları"nın 1.1-ci bəndində "Təbii inhisarlar haqqında" sözləri "Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinin" sözləri ilə, "qanunlarının" sözü "Qanununun" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№478** **Bakı şəhəri, 15 noyabr 2024-cü il**

**Füzuli rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid torpaq sahəsinin bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi haqqında**

"Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Qarabağ iqtisadi rayonuna daxil olan Füzuli rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid 482,0 hektar torpaq sahəsi qoyuluş gücü 160 MVt olan günəş elektrik stansiyasının tikintisi məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilsin (torpaq sahəsinin yerləşdiyi yeri, ölçülərini və sərhədlərini göstərən yerquruluşu xəritəsi əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Energetika Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə müəyyən edilmiş bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi ilə bağlı tədbirləri Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 avqust tarixli 2285 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası"nın tələblərinə uyğun olaraq həyata keçirsin.

**3.** Bu Qərar qüvvəyə mindiyi tarixdən elektrik enerjisinin istehsalı məqsədilə bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilmiş 482,0 hektar torpaq sahəsində günəş elektrik stansiyasının tikintisinə icazə "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun 6.7-ci maddəsində nəzərdə tutulmuş müddətdə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq alınır.

**4.** Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu Qərarın 3-cü hissəsinə uyğun olaraq tikintiyə icazə verildikdə həmin gündən, müəyyən edilmiş müddətdə tikintiyə icazə verilmədikdə isə müddət başa çatdığı gündən üç gün ərzində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**5.** Bu Qərarın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinə həvalə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№479** **Bakı şəhəri, 16 noyabr 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 14 iyun tarixli 303 nömrəli Qərarı ilə təsdiq edilmiş "Müdafiə və ya dövlət təhlükəsizlik ehtiyaclarının meyarları və onlarla bağlı satınalmaların keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 14 iyun tarixli 303 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 723) ilə təsdiq edilmiş "Müdafiə və ya dövlət təhlükəsizlik ehtiyaclarının meyarları və onlarla bağlı satınalmaların keçirilməsi Qaydası"nın 13.3.8.2-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 13.3.9-cu yarımbənd əlavə edilsin:

"13.3.9. satınalma predmeti ərzaq məhsulları olduqda.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№480** **Bakı şəhəri, 20 noyabr 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 29 may tarixli 87 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili Qaydaları"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 29 may tarixli 87 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 324 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 sentyabr tarixli 404 nömrəli Qərarı) ilə təsdiq edilmiş "İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili Qaydaları"nın 7-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№483** **Bakı şəhəri, 20 noyabr 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 yanvar tarixli 7 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 yanvar tarixli 7 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 151 (Cild I); 2024, № 5 (I kitab), maddə 626) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 4.14.5-ci yarımbənddə "cədvəlini" sözündən sonra ", onların əməkhaqlarının məbləğini (vəzifə maaşını, vəzifə maaşına əlavələri, mükafatları və digər ödənişləri)" sözləri və "razılaşdırmaqla" sözündən sonra "gəlir və" sözləri əlavə edilsin.

2. 4.14.6-cı yarımbəndə və 4.18-ci bəndin ikinci cümləsinə "ali təhsil müəssisəsinin" sözlərindən əvvəl "Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla," sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**




# Axsaq atın kor nalbəndi

## *Vardanyanın vəkilinin açıqlamaları beynəlxalq hüquqa ləkədir*

**Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsindən sonra bu işğalı legitimləşdirmək məqsədilə yaratdığı qondarma separatçı rejimin sonuncu "dövlət naziri" Ruben Vardanyanın vəkili Cared Qenser "Azadlıq" radiosunun Azərbaycan xidmətinə müsahibə verib. "Vardanyan ailəsinin beynəlxalq hüquq məsləhətçisi" kimi təqdim edilən C.Qenserin 21 dəqiqəlik müsahibə zamanı bir dəfə də olsun doğru-dürüst fikir səsləndirmədiyi diqqəti cəlb edir.**

Sözsüz ki, onun ən böyük yalanı R.Vardanyanı və keçmiş separatçı rejimin digər "qlavar"larını "siyasi məhbus" adlandırmasıdır. Özünü vəkil adlandıran şəxs heç bir beynəlxalq insan hüquqları təşkilatının və dövlətin, o cümlədən Ermənistanın özünün də siyasi məhbus kimi tanımadığı şəxslərlə bağlı bu ifadəni işlətməklə gerçək simasını, xislətini və məsələlərə yanaşma tərzini bəri başdan ortaya qoyur. Yaxşı ki, aparıcı bu məqamı dərhal qabardır. C.Qenser isə buna cavab olaraq ciddi fakt ortaya qoya bilmir və deyir: "Məncə, onu siyasi məhbus adlandıran çoxlu təşkilat və şəxs olub. Məsələn, İrlandiyanın sabiq prezidenti və BMT-nin insan hüquqları üzrə keçmiş ali komissarı Meri Robinson, "Unilever" şirkətinin keçmiş baş direktoru Paul Polman və bir sıra digər tanınmış şəxslər... Yəni məncə, onu siyasi məhbus hesab etmək kifayət qədər asandır".

Göründüyü kimi, vəkil M.Robinson və P.Polman istisna olmaqla, tanınmış şəxslərdən heç kəsin adını çəkə bilmir. Hansısa beynəlxalq təşkilatın və insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərdiyini iddia edən qurumların adını isə ümumiyyətlə, dilə gətirə bilmir. Çünki belə təşkilatlar və şəxslər yox dərəcəsindədirlər. Adları çəkilən iki şəxsdən biri – P.Polman isə R.Vardanyanın Niderland əsilli biznes tərəfdaşıdır. Onlar birlikdə bir sıra layihələrdə iştirak ediblər. Həmçinin P.Polman R.Vardanyanın təşəbbüsü ilə verilən "Avrora" mükafatının seçim komissiyasının üzvlərindəndir.

Səksən yaşı bu ilin mayında tamam olan M.Robinsonun da R.Vardanyanı müdafiə etməsi təsadüfi deyil. O da "Avrora"nın seçim komissiyasının tərkibinə daxildir. Yeri gəlmişkən, qeyd edək ki, R.Vardanyan "Avrora" mükafatını Nubar Afeyan və Vardan Qriqoryanla birlikdə 2016-cı ildə təsis etmişdi. Tam adı "Bəşəriyyətin oyanışı üçün Avrora mükafatı" olan və "beynəlxalq humanitar mükafat" adlandırılan mükafat "erməni soyqırımı"ndan sağ çıxanlar adından verilir. Onun təqdimetmə mərasimləri 2016-cı il aprelin 24-dən etibarən hər il keçirilir. Laureat 1 milyon ABŞ dolları alır. Mükafatın seçim komitəsində dünyanın bir çox yerlərindən tanınmış şəxslər cəmləşiblər. O cümlədən ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) direktoru Samanta Pauer də 2017-ci ildən "Avrora"nın seçim komitəsinin üzvü idi. Komitənin, ümumilikdə, 13 üzvü var. İndi həm M.Robinson, həm P.Polman, həm də S.Pauer və digərləri R.Vardanyanla vaxtilə mövcud olmuş sıx əlaqələri, daha doğrusu, ondan külli miqdarda pul almaları səbəbindən onun azadlığa çıxması üçün canfəşanlıq edirlər. Onların Vardanyanı müdafiə edəcəkləri əzəl gündən bəlli idi. Beləliklə, C.Qenser Vardanyanı onun dostlarından, biznes tərəfdaşlarından və pul kisəsindən asılı olanlardan başqa heç kimin "siyasi məhbus" hesab etmədiyini etiraf etmiş olur.

"Yalan ayaq tutar, yeriməz!" deyiblər. Zənnimizcə, bu atalar sözünü vəkilin dünyaya sırımaq istədiyi növbəti yalanlarla bağlı işlətmək yerinə düşər. O, daha sonra digər ermənipərəstlərin irəli sürdükləri, amma beynəlxalq ictimaiyyətə həqiqət kimi qəbul etdirə bilmədikləri "etnik təmizləmə" məsələsinin üstünə gəlir. C.Qenser bir qədər də irəli gedərək "bu kampaniya"nı mərhələlərə bölür. İddia edir ki, kampaniya 3 mərhələdən (?) ibarət olub və Vardanyan da kampaniyanın bir hissəsi kimi saxlanılıb. Guya, birinci mərhələdə 120 min (?) etnik erməni Azərbaycanın həmin bölgəsindən Ermənistana köçürülüb. İkincisi, "respublika"nın "dövlət qurumları" sistemli şəkildə dağıdılıb, "prezident hökuməti buraxmağa" məcbur edilib, üçüncüsü isə bölgənin 8 keçmiş rəhbərinin eyni ittihamlarla həbs olunmasıdır.

Beləliklə, C.Qenser hamıya aydın olan faktları utanıb-qızarmadan danır, yalanlarının, necə deyərlər, dozasını artırır. Birincisi, Qarabağın heç bir yerində etnik təmizləmə aparılmayıb. Bunu təsdiq etmək üçün ortada heç bir subut, fakt və arqument yoxdur! İkincisi, dünyanın heç bir ölkəsi, o cümlədən Ermənistan rəsmən 2020-ci ildə baş verən İkinci Qarabağ müharibəsində etnik təmizləmə baş verdiyini iddia etməyib, habelə 2023-cü ildə həyata keçirilən lokal xarakterli antiterror tədbirlərini "etnik təmizləmə" kimi qiymətləndirməyib. Hətta, bu yaxınlarda Ermənistan parlamentinin sədri Alen Simonyan elə "Azadlıq" radiosunun erməni xidməti – "Azatutyun"a verdiyi geniş müsahibə zamanı Azərbaycanın hərbi əməliyyatının legitim olduğunu etiraf etmişdi. O demişdi: "İkinci Qarabağ müharibəsi başlananda biz çox üzüldük. Buna səbəb dünya ictimaiyyətinin hadisəyə bizim istədiyimiz kimi reaksiya verməməsi idi. Səbəb də legitimliyin olmaması, daha doğrusu, bizim tərəfimizdən legitimliyin olmaması idi. Azərbaycan BMT-nin 3-4 qətnaməsi əsasında Qarabağda əməliyyat keçirib".



Qarabağdan Ermənistana köçənlərin sayına gəldikdə isə Qenser bu məsələdə də uydurmaya yol verir. Məsələ ondadır ki, Ermənistan hökumətinin açıqladığı rəqəmlərdə Qarabağdan getmiş hayların sayının 101 848 nəfər olduğu qeyd edilir. Nəzərə almaq lazımdır ki, bu, şişirdilmiş rəqəmdir. Ən yaxşı halda söhbət 55-60 min "artsaxlı"dan gedir. Sözsüz ki, vəkilin 120 min rəqəmini səsləndirməsi hadisənin miqyasının daha böyük olduğunu göstərməyə xidmət edir.

"Etnik təmizləmə"nin üç mərhələdən ibarət olması fikrinə gəldikdə isə deməliyik ki, hansısa "etnik təmizləmə" olmadığı kimi onun mərhələləri də olmayıb. Azərbaycan Ordusu öz ərazisində uzun illər mövcud olmuş qanunsuz silahlı xunta rejiminin varlığına elə onların öz başa düşdükləri dildə – silah gücünə son qoyub. Buna qədər isə, yəni, təxminən, 3 il ərzində rejimin özünü buraxması istiqamətində çoxlu çağırışlar edilib. Onlara ən yüksək səviyyədə bildirilib ki, "miatsum" kitabı, separatizmin kitabı bağlanıb. Müstəqillik xülyası statusun dalınca gedib. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı lazım olan yerə göndərmişik. Bildirilib ki, separatçı "liderlər" qondarma rejimi ləğv edəcəkləri, tərk-silah olacaqları, Azərbaycanın normal, loyal vətəndaşları olacaqları təqdirdə amnistiyadan söhbət gedə bilər. Ancaq onlar bundan nəticə çıxarmadılar və yenə də xaricdəki havadarlarına arxayın olaraq xilas ola biləcəklərinə dair son şansı əldən verdilər. Beləliklə, Azərbaycan Ordusu antiterror tədbirləri keçirmək məcburiyyətində qalıb və cəmi bir sutka davam edən tədbirlər rejimin təslim olmasına, necə deyərlər, "ağ bayraq" qaldırmasına səbəb olub. Bu tədbirlərin məntiqi nəticəsi olaraq, qondarma rejimin sonuncu "qlavarı" onun 2024-cü il yanvarın 1-dən öz mövcudluğunu dayandırması barədə "fərman" imzalayıb.

Daha bir məntiqi nəticə isə rejimə rəhbərlik edənlərin, bu qədər qanın axmasına, azərbaycanlıların böyük müsibətlər yaşamasına bilavasitə səbəb olan şəxslərin saxlanılmasıdır. Onların həbsi olmadan bizim işimiz yarımçıq olardı. Zənnimizcə, bu məqamda Prezident İlham Əliyevin 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində səsləndirdi fikirlərdən iqtibas gətirmək yerinə düşər: "Bilirsiniz, bizim tarixi Qələbəmiz o qədər parlaq idi və cəmi bir neçə saat ərzində davam edən əməliyyat nəticəsində suverenliyimiz bütün ərazidə bərpa olunanda bunu bəziləri qavraya da bilmədilər. O qədər tez bir zamanda başladı və sona çatdı və eyni zamanda, bu parlaq Qələbə fonunda o personajların da tutulması bir qədər kölgədə qaldı. Halbuki bu, özlüyündə böyük tarixi hadisədir. Bizə qarşı qanlı müharibə aparan, vandallıq törədən, Xocalı soyqırımını törədən, torpaqlarımızı, şəhərlərimizi, kəndlərimizi yerlə-yeksan edən canilər bu gün həbs olunub, saxlanılıb və ədalət qarşısında cavab verəcəklər. Onların arasında Qarabağda olmuş bütün "keçmiş liderlər", ondan sonra Qarabağa ixrac edilmiş "baş nazir" və digərləri var. Təkcə o qruplaşmada iki nəfər çatışmır, onlar da İrəvandadırlar, onlar da olsa, onda tam heyət formalaşır".

Dövlətimizin başçısı qeyd etmişdi ki, bu, doğrudan da ədalətin Zəfəridir: "Mən deyəndə ki, ədalətə inanmaq və ədaləti təmin etmək üçün mübarizə aparmaq lazımdır, məhz bunu nəzərdə tuturdum. Onların heç ağlına gələ bilməzdi ki, bir gün onlar Bakıda çay içmək istəyini belə reallaşdıracaqlar, istintaq təcridxanasında oturacaqlar və ədalət məhkəməsinin qərarını gözləyəcəklər".

Yeri gəlmişkən, onu da bildirək ki, separatçılar, həqiqətən də, tanklarla Bakıya gəlib burada çay içəcəklərini bildirmişdilər. Onlar "haqlı" çıxdılar. Onların tankları bu gün Bakıda, Hərbi Qənimətlər Parkındadır. Özləri isə istintaq təcridxanasında çay içirlər. Aralarında olan bir nəfər – keçmiş xunta rejiminin "xarici işlər naziri" David Babayan isə Azərbaycanı Qarabağda bayrağını dalğalandırmaq üçün Xankəndidə səfirlik açmağa çağırmışdı. Bu gün Azərbaycan Bayrağı Qarabağın hər bir yaşayış məntəqəsində inamla dalğalanır. Babayana isə Dövlət Təhlükəsizlik Xidmətinin İstintaq Təcridxanasından Dövlət Bayrağı Meydanında dalğalanan Dövlət bayrağımızı seyr etmək qalır.

Ancaq tarixin acı ironiyaları belələrinə dərs olmur. Dərs olsaydı, vəkil C.Qenser R.Vardanyan kimisinə vəkil olmağa razılaşmaz, yaxud verdiyi müsahibədə "Vardanyan ona görə təqib və həbs edilib ki, o, özünün fikir və ifadə azadlığından, sərbəst toplaşmaq və siyasi iştirak hüquqlarından istifadə edib" sözlərini deməzdi. Onun aparıcının faktları təqdim etməsindən yayınması isə cılızlığının göstəricisidir. Ümumiyyətlə, müsahibəni izləyərkən vəkilin çox həyasız birisi olduğu qənaətinə gəlmək olur. "YouTube" videohostinqində şərhlərdə də Qenserin ünvanına yazılmış "çox həyasız insandır" sözü diqqətimizi cəlb etdi. Onun aparıcının faktlara söykənən suallarına əsəbi cavab verməsi də arqumentsizliyinin göstəricisi sayıla bilər. Ümumiyyətlə, vəkil adı daşıyan bu adamın açıqlamaları hüquq elmi adına ləkə kimi qiymətləndirilməlidir. Beynəlxalq hüquqla Azərbaycanın suveren əraziləri kimi tanınan torpaqlarla bağlı hətərən-pətərən danışanın fikirlərini başqa cür dəyərləndirmək mümkün deyil.

**Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru, politoloq Fərhad Məmmədov Vardanyanın vəkilinin müsahibəsinə özünün teleqram kanalında münasibətini açıqlayıb.** "Azadlıq radiosu bunu da etdi!"



sərlövhəli paylaşımda bildirilib ki, ABŞ Konqresinin maliyyələşdirdiyi "Azadlıq" radiosu, onun Azərbaycan xidməti Vardanyanın vəkili üçün platforma təqdim edib. Vəkil isə öz növbəsində aparıcını sözün məcazi mənasında əzib, onu yerinə oturdub: "Aparıcının sualları o qədər zəif idi ki, məndə bunun qəsdən edildiyi barədə qəti fikir formalaşdı. Bununla yanaşı, söhbət, daha dəqiq desək, Vardanyanın vəkilinin, bu yaramazın monoloqlarını dediyi yerlər videolarla müşayiət olunurdu ki, buna heç bir ehtiyac yox idi. Əgər bu müsahibə "hard talk" ("sərt danışıq") üslubundadırsa, o zaman aparıcı israrlı olmalı idi. Daha jurnalist olduğunu, özünün fikrinin olmadığını tutuquşu kimi təkrar etməməli idi. Bu əclaf isə bütün tezislərini ağzından çıxarıb dərhal sağollaşdı..."

F.Məmmədov bildirib ki, Vardanyan da cinayət ortaqları kimi Azərbaycan cəzaçəkmə müəssisəsində çürüyəcək. Antiterror tədbirlərinin baş verməsi bilavasitə onların əməllərinin nəticəsidir.

***Səxavət HƏMİD***
***XQ***

# Mediaya sosial güzəştlər sistemli xarakter daşıyır

## *Jurnalistika ilə məşğul olanlara 75 faizlik vergi güzəşti təklifinin müzakirəyə çıxarılması bundan xəbər verir*

**Azərbaycanda jurnalistika üzrə sosial proqramların tətbiq edilməsi ənənəsi 1990-cı illərdə ümummilli lider Heydər Əliyev tərəfindən yaradılıb. Həmin illərdə bazar iqtisadiyyatının şərtlərinə uyğunlaşması, müstəqilləşməyə çalışan media subyektlərinin keçid dövrünü uğurla adlaması üçün dövlət yardım əlini uzadıb. Kütləvi informasiya vasitələrinin müstəqilliyinin dəstəklənməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə qərarlar verilib. Bu kontekstdə mətbuat orqanlarının vergi yükünün azaldılması, qəzet redaksiyalarına kreditlərin ayrılması, qəzetlərin borclarının dövlət vəsaiti hesabına silinməsi, aparıcı KİV-lərə maliyyə yardımı göstərilməsi, o cümlədən, jurnalistlər üçün sosial güzəştlərin tətbiq edilməsi kimi addımlar atılıb.**

2008-ci ildən etibarən bu yanaşma xüsusi proqram halını alıb. Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli Sərəncamı ilə "Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyası" qəbul edilib. Konsepsiya effekt verib, ölkədə fikir, söz və məlumat azadlığının inkişafı, KİV-lərin müstəqilliyinin dəstəkləməsi, redaksiyalara yardım mexanizminin təkmilləşdirilməsi, informasiya sektorunda yeni kommunikasiya texnologiyalarının tətbiqi stimullaşdırılıb. O cümlədən, media subyektlərinin institutlaşmasına, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artmasına şərait yaradılıb. Dövlətin informasiya sektoruna yönəlik dəstək siyasətinin nəticəsidir ki, bu gün ölkəmizdə media müstəvisində fərd, cəmiyyət və dövlətin maraqlarının uyğunlaşdırılması təmin edilib. Media cəmiyyətin obyektiv məlumatlandırılması funksiyasını səmərəli şəkildə yerinə yetirə bilir.

Azərbaycanda media sektoruna yönəlik dəstək siyasətinin mühüm bir özəlliyi də budur ki, media subyektlərinin və jurnalistlərin müstəqilliyi qorunur, onların fəaliyyətinə hər hansı kənar müdaxilə istisna edilir. KİV-in inkişafına yönəlik dövlət dəstəyi qanunçuluq, məsuliyyət və şəffaflıq prinsiplərinə söykənir.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" 12 yanvar 2021-ci il tarixli Fərmanından sonra bu sektorda yeniləşmə xüsusi vüsət alıb. İslahatlar dalğası media sektorunun bütün sahələri kimi, KİV-ə dəstək proqramlarını da əhatə edib. Fərmana uyğun olaraq, ölkədə media qanunvericiliyi yeniləşdirilib. 2022-ci ildə "Media haqqında" Qanun qəbul edilib, həmçinin Media Reyestri yaradılıb.

Yeni qanun media sektorunda anlayışları konkretləşdirir. Şəffaflığı artırır və sui-istifadə hallarının qarşısını alır. Media Reyestrinin tətbiq edilməsi isə həm media subyektlərinin, həm də jurnalistlərin sayını müəyyənləşdirməyə imkan verir. Bu aydınlaşma media subyektləri və jurnalistlər üçün sosial layihələrin həyata keçirilməsini asanlaşdırır, sosial proqramların hüquqi-iqtisadi əsaslandırılmasına şərait yaradır.



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin analitiki**

Təsadüfi deyil ki, yeni qanunun qəbul edilməsindən və Media Reyestrinin yaradılmasından sonra Jurnalistlər və media subyektləri üçün yeni güzəştlər, imtiyazlar müəyyənləşdirilib. Azərbaycan Prezidenti ipoteka qanunvericiliyinə edilən dəyişiklikləri təsdiqləyərək, jurnalistlərin güzəştli ipoteka kreditindən istifadə etmək hüququnu təsdiqləyib. Həmçinin, kütləvi informasiya məhsullarının, kitabların, dərsliklərin ərsəyə gəlməsi üçün istifadə edilən kağızın idxalı və satışı ƏDV-dən azad edilib. Çap və onlayn media subyektlərinin əldə etdikləri gəlirlər, o cümlədən, onlara verilən müvafiq maddi yardımlar gəlir, mənfəət və sadələşdirilmiş vergilərdən 3 il müddətinə azad olunublar.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin aparat rəhbəri Rəqsanə Kərimovanın dünən APA İnformasiya Agentliyinə verdiyi açıqlamasından məlum olur ki, jurnalistika ilə məşğul olan fiziki şəxslərin bu fəaliyyətdən əldə etdikləri gəlirlərin 75 faizinin gəlir vergisindən azad edilməsini nəzərdə tutan qanun layihəsi müzakirəyə təqdim edilib. Onun sözlərinə görə, Vergi Məcəlləsinə təklif edilən bu dəyişiklik qəbul olunarsa, təqvim ili üzrə əldə etdiyi gəlirlərin həcmi xərclər nəzərə alınmadan 45 000 manatadək olan jurnalistlər bu fəaliyyətdən əldə edilən gəlirin vergisinin 75 faizindən azaddırlar".

Vergi Məcəlləsi üzrə nəzərdə tutulan bu təklif onu göstərir ki, dövlətimiz media sektorunun inkişafını daimi olaraq diqqət mərkəzində saxlayır. Jurnalistlərin sosial rifahının daha da yaxşılaşdırılması üçün öz səylərini davam etdirir.

# Qızlara da yaşıl cəbhə açılır




**COP29 çərçivəsində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin təşkilatçılığı ilə (İRİA) "İqlim dəyişikliyində qadın liderlər: Dünyanın iqlim problemlərinin həllinə sadiq qızlar nəslini necə yetişdirmək olar" adlı panel müzakirə keçirilib.**

IDDA-da İnvestisiya və Esositem Dəstəyi Departamentində Layihə Meneceri Nikita Yudin, "Women in Tech" təşkilatının Azərbaycandakı nümayəndəliyinin səfiri Leyla Seyidzadə və "Femmes Digitales"də həmtəsisçi və İdarə Heyətinin üzvü Şəhla Məmmədova sözügedən müzakirədə iştirak ediblər.

Panel müzakirəsində iqlim dəyişikliyinə qarşı mübarizədə qadınların liderliyi, texnologiya və innovasiyanın bu mübarizədə rolu, habelə gələcək nəsillərin bu sahədə maarifləndirilməsi məsələləri müzakirə edilib. Tədbir iştirakçıları qadınların iqlim problemlərinin həllinə verdiyi töhfələrin əhəmiyyətini vurğulayıb, qızların texnologiya, mühəndislik və iqlim sahələrində təhsil və peşəkar inkişaf imkanlarının artırılmasının vacibliyini qeyd ediblər.

***XQ***

COP29 Baku Azerbaijan
COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024
COP29 Baku Azerbaijan

# İqlim dəyişikliyi və aqrar sektorda innovativ yanaşmalar

**Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin təşəbbüsü ilə COP29-un Yaşıl Zonasında "İqlim dəyişikliyinə dayanıqlı aqrar sektor üçün innovativ yanaşmalar və birgə əməkdaşlığın rolu" mövzusunda tədbir keçirilib. Toplantıda Aqrar Kredit və İnkişaf Agentliyinin rəhbər şəxsləri, fermerlər, banklar da daxil olmaqla özəl sektorun, eləcə də beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.**



Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, COP29 çərçivəsində Qida, Kənd Təsərrüfatı və Su Günündə keçirilən tədbirdən məqsəd aqrar sahənin inkişafı üzrə müəyyən edilən strateji prioritetlərin – dayanıqlı kənd təsərrüfatının təşviqi, fermerlərin maliyyə resurslarına çıxışının artırılması və beynəlxalq tərəfdaşlığın daha da gücləndirilməsi istiqamətində iqlimlə bağlı tədbirlərə töhfə vermək, bu istiqamətdə fermerlərə daha çox məlumat çatdırmaq olub.

Aqrar Kredit və İnkişaf Agentliyinin şöbə müdiri Rəşad Fəttahov dövlət dəstəyi mexanizmləri və onların təsirinin artırılması yolları mövzusunda çıxış edib. O, təmsil etdiyi qurum tərəfindən qəbul edilən yeni dəyişikliklərlə bağlı ətraflı məlumat verib, daha sonra dövlət dəstəkləri və ən son dəyişikliklərin fermerlər üçün yaratdığı imkanlardan danışıb.

İqlim dəyişiklikləri dövründə dayanıqlı kənd təsərrüfatı üçün innovativ texnologiyalardan istifadənin artırılmasının əhəmiyyəti mövzusunda çıxış edən "Beta Azərbaycan" MMC-nin regional müdiri Ahmet Arslan risklərin idarə olunması və məhsuldarlığın artırılmasına dair praktiki nümunələr təqdim edib, iştirakçılara, xüsusən də fermerlərə dayanıqlı təsərrüfat yaratmağın yolları barədə faydalı məlumatlar çatdırıb.

Aqrar Kredit və İnkişaf Agentliyinin sədr müavini Mehman İsmayılov kənd təsərrüfatının maliyyələşdirilməsində bankların və digər kredit təşkilatlarının rolu mövzusunda çıxış edərək dövlət – özəl tərəfdaşlığının dayanıqlı kənd təsərrüfatının əsaslarından biri olduğunu deyib. O, tədbir iştirakçılarına Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemindən alınan məlumatlarla fermerlərin maliyyə tarixçəsinin vizual təqdimatını nümayiş etdirib.

Qurumun sədr müavini kənd təsərrüfatının subsidiyalaşdırılması üzrə təqdimat keçirib, iştirakçılara Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində formalaşan dataların subsidiya siyasətinin formalaşmasına təsiri barədə məlumat verib. O formalaşan dataların dövlət dəstəyi mexanizmlərinin səmərəlilik göstəricilərini ölçməyə, vəsaitin daha optimal yönləndirilməsinə imkan verdiyini diqqətə çatdırıb.

Daha sonra agentliyin layihə və proqramlar şöbəsinin müdiri Fərid Əmirov çıxış edərək iqlim dəyişikliyinin kənd təsərrüfatına mənfi təsirini azaltmaq məqsədli beynəlxalq təşkilatlar və donorlarla əməkdaşlığın artırılması istiqamətləri mövzusunda təqdimat edib. İqlim dəyişikliyinin qlobal təsirlərinə qarşı daha geniş əməkdaşlığın vacibliyini vurğulayan şöbə müdiri deyib ki, bu mənada beynəlxalq layihələrin və dövlət proqramlarının kənd təsərrüfatına olan müsbət təsiri nəzərə alınaraq xüsusilə qadın və gənc fermerlər üçün həyata keçirilən layihələr mühüm əhəmiyyət daşıyır.

Tədbir iştirakçıları xüsusi maraq doğuran digər mövzular ətrafında da geniş fikir mübadiləsi aparıblar.

# COP29-da təmiz nəqliyyat təqdimatı



**COP29-un Mavi Zonasında Urbanizasiya, Nəqliyyat Turizm Günü çərçivəsində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən keçirilən yüksək səviyyəli dəyirmi masada "Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə görülən işlər və əldə olunan nəticələr"in təqdimatı keçirilib. Bu barədə XQ-yə "Azərişıq" ASC-dən məlumat verilib.**

Bildirilib ki, tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin baş məsləhətçisi Gülnaz Cavadova daha təmiz dünya və daha dayanıqlı gələcəyin formalaşdırılmasında karbon izini azaltmağa yönəlmiş ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin rolunu xüsusi vurğulayaraq ölkəmizdə bu sahədə aparılan islahatlar barədə məlumat verib.

Təqdimatda biznes mühiti və beynəlxalq reytinqlər üzrə komissiya çərçivəsində ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması istiqamətində görülən tədbirlər, o cümlədən aidiyyəti dövlət qurumlarının təşəbbüsü ilə ölkəmizdə tətbiq olunan vergi və gömrük güzəştləri, habelə maliyyə əlçatanlığının artırılmasını hədəfləyən güzəştli kredit qaydaları barədə məlumat verilib. Qeyd olunub ki, təşviq sahəsində görülən işlər nəticəsində idxal olunan elektrik nəqliyyat vasitələrinin xüsusi çəkisi 2021-ci ildəki 0,19 faizdən 2023-cü ildə 3,5 faizə yüksəlib.

Eyni zamanda, enerjidoldurma infrastrukturun inkişafı sahəsində "Azərişıq" ASC tərəfindən həyata keçirilən tədbirlərin və Vahid Elektrikdoldurma Platformasının əhəmiyyəti vurğulanıb. Bildirilib ki, hazırda "Azərişıq" ASC və digər dövlət təşkilatları ilə yanaşı, özəl sektor nümayəndələrinin təşəbbüsləri nəticəsində, ümumilikdə, 300-dən çox enerjidoldurma cihazı quraşdırılıb.

Təqdimatda ölkəmizdə ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinə marağın və istifadə səviyyəsinin artırılması istiqamətində kompleks tədbirlərin davam etdirilməsi diqqətə çatdırılıb.

# Bakıda sudan səmərəli istifadə yolları axtarılır




**Azərbaycanın ən böyük pambıqçılıq və tekstil istehsalçısı olan "GP Cotton Holdings"ə daxil olan GiLTEX COP29 çərçivəsində Mavi Zonadakı Azərbaycan pavilyonunda "Suyun səmərəli istifadəsi" adlı tədbir keçirib.**

Tədbirdə dayanıqlı su idarəetmə üsullarının iqlim dəyişikliyinə qarşı mübarizə və kənd təsərrüfatı məhsuldarlığının artırılmasındakı əhəmiyyəti barədə danışılıb. İştirakçılar Azərbaycan və digər ölkələrdən ən yaxşı təcrübələri və uğurlu nümunələri öyrənmək imkanı qazanıblar. Müzakirələrdə qlobal miqyasda tətbiq edilə bilən səmərəli su idarəetmə üsullarını mənimsəmənin vacibliyi önə çəkilib.

GiLTEX-in baş icraçı direktoru Kamran Aqasi şirkətin strategiyasında dayanıqlılığın rolundan bəhs edib. O deyib ki, GiLTEX-də dayanıqlılıq, sadəcə, bir məqsəd deyil, həm də şirkətin strategiyasının əsasıdır: "Biz tekstil istehsalında suyun təkrar istifadəsinə imkan verən yeni texnologiyaların tətbiqini planlaşdırırıq. Bu, ətraf mühitə təsirimizi azaltmaqla yanaşı, sənayemizdə bir standart yaratmağımıza xidmət edəcək. Belə tədbirlər yeniliklərin təşviqində və əməkdaşlıqların inkişafında mühüm rol oynayır, daha dayanıqlı bir gələcək üçün yol açır".

"GP Cotton Holding"in sədri Con Yanq Simpson, pambıq istehsalında dayanıqlı təcrübələrin əhəmiyyətini vurğulayaraq bildirib ki, rəhbərlik etdiyi holdinqdə pambıq istehsalında daha az su istifadə etməyə və suvarma prosesini daha qısa müddətdə tamamlamağa imkan verən innovativ texnologiyalar tətbiq olunur. Onun sözlərinə görə, bu addımlar yalnız məhsuldarlığı artırmır, həm də dəyişən dünyanın tələblərinə cavab verən dayanıqlı təcrübələrə olan bağlılığımızı əks etdirir.

Diqqətə çatdırılıb ki, tədbir müxtəlif sahələrin nümayəndələrinə ideya və təcrübə mübadiləsi üçün qiymətli platforma təqdim edərək sudan səmərəli istifadə sahəsində qlobal əməkdaşlığın təməlinin qoyulmasına xidmət göstərəcək.

# Antonio Quterreş: Bakıda yeni iddialı iqlim maliyyəsi məqsədinə dair razılaşma əldə etməliyik



**Bakıda yeni iddialı iqlim maliyyəsi məqsədinə dair razılaşma əldə etməliyik.**

Bu sözləri BMT-nin Baş katibi Antonio Quterreş Bakıda keçirdiyi mətbuat konfransında deyib.

Maliyyə artımının vacibliyini vurğulayan baş katib bildirib: "Bütün tərəflərin 1,5 dərəcə ilə uyğunlaşdırılmış yeni milli planlar təqdim etmələrini təmin etmək də vacibdir. Hər bir hökumətə, eyni zamanda, emissiyaların azaldılmasını sürətləndirərək təmiz, ucuz bərpaolunan mənbələrdən və ədalətli enerji keçidindən faydalanmaq şansı vermək lazımdır".

A.Quterreş diqqətə çatdırıb ki, maliyyə nəzarətsiz iqlim xaosunun hamımıza vuracağı dağıntılara qarşı sərmayədir. "Keçən həftə çoxtərəfli inkişaf bankları aşağı və ortagəlirli ölkələr üçün iqlim maliyyəsi ilə bağlı əhəmiyyətli maliyyə elan etdilər. Bu maliyyə 2030-cu ilə qədər ildə 120 milyard dollara çatacaq, daha 65 milyard dollar özəl sektordan səfərbər ediləcək. Mən hər bir tərəfi addımlar atmağa, sürəti artırmağa çağırıram, vaxt azdır", – deyə o əlavə edib.

# Azərbaycan – Türkiyə su ehtiyatları əməkdaşlığı



**COP29-un Mavi Zonasında təşkil olunan Türkiyə pavilyonunda Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov və qardaş ölkənin Dövlət Su İşləri Baş İdarəsinin rəisi Mehmet Akif Balta arasında görüş keçirilib.**

Görüşdə su ehtiyatlarının idarə edilməsində əməkdaşlıq perspektivləri, su təsərrüfatı sahəsində innovativ texnologiyaların tətbiqi və beynəlxalq təcrübə barədə fikir mübadiləsi aparılıb. Eyni zamanda, iqlim dəyişikliklərinin su ehtiyatlarına təsirlərinin azaldılması istiqamətində tədbirlər, sərhədyanı su ehtiyatlarının idarə olunması, regional əməkdaşlıq və gələcək layihələrin həyata keçirilməsi imkanlarına nəzər salınıb.

# İstiləşmə və şəhər həyatı

**COP29-un Azərbaycan pavilyonunda "Şəhərlərin təsiri: Şəhər iqlim gündəliyini necə sürətləndirə bilər?" adlı sessiya keçirilib. Tədbirdə çıxış edən Afrika Birləşmiş Şəhərlər və Yerli Hökumət Təşkilatının baş katibi Jan Pier Elonq Mbassi COP29-un təşkilatçılığını yüksək qiymətləndirib.**



O, təmsil etdiyi təşkilat barədə sessiya iştirakçılarına ətraflı məlumat verib. Qeyd olunub ki, qərargahı Mərakeşin Rabat şəhərində yerləşən submilli qurumun ümumi təşkilatı olan Birləşmiş Şəhərlər və Afrika Yerli Hökumətin Şərqi Afrika üzrə Keniya, Nayrobi, Cənubi Afrika üzrə isə Viktoriya şəhərində regional ofisləri fəaliyyət göstərir. Onun sözlərinə görə, submilli və yerli hökumətlərin mandatlarının məqsədi bu yerli hökuməti qorumaq, ölkədə söz sahibi olmaqdır.

İqlim dəyişikliyinin icmalarına təsirindən narahatlığını ifadə edən afrikalı qonaq bu dəyişikliyin qitə və şəhərlərə fəlakətli təsirlərindən söhbət açıb: "Meşə yanğınları, qasırğalar, daşqınlar və quraqlıq kimi daha tez-tez, daha şiddətli və əvvəllər gözlənilməz hadisələr nəticəsində iqlimə davamlı şəhərlər, infrastruktur yenidən işlənməldir. Enerji və su ilə mühafizəsi, şəhərlərimizin və strukturlarımızın iqlim hadisələrinə tab gətirə bilməsini təmin etmək üçün daha çox iş görməliyik".

EY şirkətinin təşkilatçılığı ilə keçirilən sessiyada dünyada şəhərlərin iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün apardıqları səylər müzakirə olunub. Bununla yanaşı, yaşıl sahələrin təkmilləşdirilməsi, istixana qazı emissiyalarının azaldılması və davamlı nəqliyyat seçimlərinin inkişafı kimi əsas ekoloji problemlərə yönəlmiş şəhər rəhbərliyindəki nümunəvi layihələr nümayiş etdirilib.

**Səhifəni hazırladılar:
Vaqif BAYRAMOV,
Mirbağır YAQUBZADƏ
XQ**

# Təbii fəlakətlər sağlamlığa və dinc həyata ciddi təhlükə yaradır

**Siyasi karyeraya uruqvayın Artigas Milli Partiyasında başlayan İren Rene Moreyra Fernandez Respublika və sonra Katolik universitetinin hüquq fakültəsini bitirib. 3 il Artigas Departament Şurasında sədrin müavini vəzifəsində çalışıb. Qanunverici orqanda işləyərkən o, Mədəniyyət və Gender komitələrini birləşdirib. Ötən ilə qədər Uruqvayın Mənzil və Ərazi Planlaşdırılma və Ətraf mühit naziri vəzifəsində çalışmış İren Moreyra Uruqvay siyasi partiyasının üzvü, qadın hərəkatı fəalı və siyasətçidir.**

Uruqvay senatının üzvü olaraq COP29 konfransı çərçivəsində keçirilən tədbirlərdə iştirak etmək üçün Bakıya gələn İ.Moreyra Parlamentlərarası İttifaqın və Milli Məclisin birgə təşkil etdiyi iclasda "Dəyişən iqlim şəraitində sağlamlığın və ərzaq təhlükəsizliyinin qorunması tədbirləri" sessiyasında çıxış edib. Bildirib ki, iqlim dəyişikliyinin insan sağlamlığına birbaşa və dolayı təsiri var. Ekstremal hava şəraitləri təkcə iqlimə deyil, səhiyyəyə də mənfi təsir göstərir. Daşqınlar və quraqlıqlar daha çox yoluxucu xəstəliklərin yayılmasına səbəb olur, içməli su mənbələrinin azalmasına gətirib çıxarır. Bu problemlər, xüsusilə, təsirə birbaşa məruz qalan ərazilərdə özünü göstərir. İqlim dəyişikliyi yalnız keyfiyyətə təsir etmir, eyni zamanda, əlçatanlığı da azaldır. Onun təsirlərini kənd təsərrüfatında, balıqçılıqda da görmək olar. Dəyişiklik balıqçılıq mövsümlərini dəyişir. Bunun iş şəraitinə də təsiri olur. İnsanlar daha ağır şəraitdə işləməyə



məcbur qalırlar.

İren Moreyra iqlim dəyişikliyinə cavab vermək üçün təcili tədbirlər görülməli olduğunu deyib:

– İqlim dəyişikliyinə cavab olaraq təcili tədbirlərin görülməsinə ehtiyac olduğunu dərk etmək çox vacibdir. İcmalarımızın, xüsusən də dolanışıqları birbaşa torpaqdan asılı olanların davamlılığını gücləndirmək üçün siyasətlərə ehtiyac var. Əhalinin sağlamlığını yaxşılaşdıran, kənd təsərrüfatı infrastrukturunu inkişaf etdirən və hamı üçün ərzaq təhlükəsizliyini təmin edən konkret iqlim fəaliyyətini təşviq etmək vacibdir. İstilik dalğaları, quraqlıq və daşqınlar kimi ekstremal hava hadisələri təkcə infrastruktur və ekosistemlərə deyil, həm də əhalinin sağlamlığına təsir göstərir. Məsələn, isti dalğalar xüsusilə əhalinin ən həssas təbəqələri – yaşlılar və uşaqlar arasında ölüm hallarını artırır. Daşqınlar və quraqlıq, öz növbəsində, yoluxucu xəstəliklərin yayılmasına səbəb olur və içməli su təchizatını təhdid edə bilər. Belə anomal hadisələr insanların iş şəraitinə də təsirsiz ötüşmür. Onun təsirləri ekosistemə, iqtisadiyyata və insanların həyat keyfiyyətinə ziyan vurur. Xüsusilə sağlamlıq və ərzaq təhlükəsizliyi sahələrində yaranan problemlər dünya ölkələrini daha çox tədbirlər görməyə sövq edir. Çünki iqlim dəyişikliyi qlobal miqyasda sağlamlıq və ərzaq təhlükəsizliyi üçün ciddi təhlükə yaradır.

Buna görə güşünürəm ki, COP29-da müzakirəsi aparılan maliyyə yardımlarından başqa, səhiyyə sistemlərini də maliyyələşdirmək çox vacibdir. Pandemiyaya hazırlıq, qarşısının alınması və cavab tədbirlərinə də maliyyə ayrılmalıdır.

*Zərifə HÜSEYNOVA*
*XQ*

# Xəzəryanı ölkələrin ortaq ekoloji platforması



**Beynəlxalq iqlim konfransı çərçivəsində "The Caspian House": Xəzəryanı ölkələrin ekoloji təşkilatlarının platforması" adlı layihənin təqdimatı keçirilib. Tədbir zamanı 4 Xəzəryanı ölkə tərəfindən birgə protokol imzalanıb. Layihənin məqsədi Azərbaycan, Rusiya, Qazaxıstan və Türkmənistanın qeyri-hökumət təşkilatlarının ekoloji birliyinin yaradılmasıdır.**

Əməkdaşlıq barədə sənədi "İctimaiyyətlə Əlaqələrin İnkişafına Kömək" İctimai Birliyinin sədri Şəlalə Həsənova, "Avrasiya Xalqlarının Assambleyası" baş katibinin müavini Stanislav Korolyov, "EkoForum-Qazaxıstan" İctimai Birliyinin sədri Svetlana Moqilyuk və "Təbiqi Kuvvat" İctimai Birliyinin rəhbəri Bərkəli Atayev imzalayıblar.

Xatırladaq ki, tədbir Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və QHT-lərə Dövlət Dəstəyi Agentliyinin birgə elan etdiyi "COP29: beynəlxalq təşəbbüslər" adlı qrant müsabiqəsində qalib olan "İctimaiyyətlə Əlaqələrin İnkişafına Kömək" İctimai Birliyinin layihəsi çərçivəsində keçirilib.

# Şotlandiya parlamentindən COP29-un sülh çağırışına və Azərbaycanın təşəbbüslərinə dəstək

**Şotlandiya parlamentində "COP29-un sülh quruculuğu səyləri və COP atəşkəs təşəbbüsü" adlı qətnamə irəli sürülüb.**



Parlamentin rəsmi internet səhifəsində yerləşdirilən qətnamədə COP29-un dünyada, o cümlədən Azərbaycan və Ermənistan arasında sülh, beynəlxalq əməkdaşlıq və dostluq üçün əlamətdar hadisə olduğu vurğulanır. COP29-da iqlimlə bağlı fəaliyyətin sülh və əməkdaşlıq üçün xalqlar arasında necə körpü rolunu oynaya biləcəyi sənəddə qeyd olunur.

Sənəddə, həmçinin dünyada davam edən münaqişələrdə iştirak edən bütün tərəfləri hərbi əməliyyatları dayandırmağa çağıran "COP atəşkəs" təşəbbüsünə dəstək ifadə olunur.

COP29-un beynəlxalq iqlim danışıqları üçün həlledici məqam olduğu bildirilir və tədbirdə iştirak edən bütün tərəflərə iqlim böhranı ilə əsaslı şəkildə mübarizə aparmaq üçün əməkdaşlığa çağırış edilir.

Qeyd edək ki, sözügedən qətnaməni 5 siyasi partiyadan – Leyboristlər, Mühafizəkarlar, Yaşıllar, Liberal Demokratlar, Şotlandiya Milli Partiyasından 25 nəfər parlament üzvü dəstəkləyib.

# Kəlbəcərin küləyi də enerjiyə çevriləcək

**Bakı iqlim konfransı çərçivəsində Azərbaycanın Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, "Clean Energy Invest LLC" və "Baltech Green LLC" arasında Kəlbəcər Külək Elektrik Stansiyasının tikintisinə investisiya qoyuluşuna dair Anlaşma Memorandumu imzalanıb.**



Sənədə əsasən, "Clean Energy Invest LLC" və "Baltech Green LLC" şirkətləri layihə çərçivəsində birgə müəssisə yaradaraq yaxın zamanda ölçmə işlərinə və layihə hazırlıqlarına başlayacaq. 3100 metr hündürlükdə reallaşdırılacaq bu unikal layihə çərçivəsində inşa olunacaq külək elektrik stansiyasının gücü 200–240 meqavat təşkil edəcək. Stansiyanın 2028-ci ilin əvvəlində kommersiya fəaliyyətinə başlaması gözlənilir. Ərazinin yüksəkliyinin yaratdığı unikal şərait sayəsində layihənin ümumi gücünün gələcəkdə 600 meqavata çatdırılması üçün potensial mövcuddur.

Bu hadisəni Azərbaycan üçün qürurverici an olduğunu vurğulayan Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayevin sözlərinə görə, artıq yerli özəl investorlar ölkənin enerji keçidinə töhfə verməyə hazır olduqlarını nümayiş etdirirlər. "Baltech Green LLC"nin İdarə Heyətinin üzvü Volkan Gerdan isə rəhbərlik etdiyi şirkətin Türkiyədə "yaşıl" enerji layihələrinin hazırlanması və idarə olunmasında uğurlu təcrübəyə malikdir. O, Kəlbəcər Külək Elektrik Stansiyası layihəsinin azad edilmiş ərazilərdə həyata keçirilməsinin şirkətin Azərbaycanın dayanıqlı inkişafına verdiyi əhəmiyyətin göstəricisi kimi dəyərləndirib.

"Clean Energy Invest LLC"nin baş icraçı direktor Xəyalə Nağıyeva isə bu əməkdaşlıqdan məmnunluğunu ifadə edərək layihənin regionda yaşıl iqtisadiyyat və ekoloji dayanıqlığın qurulması istiqamətində şirkətin məqsədlərinə uyğun olduğunu bildirib. Qurumun Müşahidə Şurasının sədri və AGEC-in baş icraçı direktoru Mir Camal Paşayev Kəlbəcər külək layihəsinin Azərbaycanın dekorbanizasiya və dayanıqlı inkişaf istiqamətində əhəmiyyətli bir addım olduğunu vurğulayıb.

## Gəmiçilikdə emissiyalar azalıb



**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti (ASCO) 2012-ci illə müqayisədə emissiyaları 20 faiz azaltmağa nail olub. Bu da Beynəlxalq Dəniz Təşkilatının 2030 üçün müəyyənləşdirdiyi hədəfin üstələməsi deməkdir. Bu fikri ASCO- nun sədri Rauf Vəliyev COP29 çərçivəsində keçirilən "Gələcəyə istiqamət: Davamlı sabah üçün dəniz nəqliyyatında dekarbonizasiya" mövzusundakı tədbirdə deyib.**

Qurumun bu nailiyyətinin ətraf mühitə olan məsuliyyəti və prosesə töhfələri daha da artırmaq məqsədini əks etdirdiyini vurğulayan ASCO rəhbərinin sözlərinə görə, belə bir nəticəyə nail olmaq heç də asan başa gəlməyib: "Biz yeni gəmilərə böyük investisiyalar qoymaq, mövcud boru kəmərlərimizi modernləşdirmək, köhnə gəmilərimizi istismardan çıxarmaq və əlavə tədbirlər həyata keçirməklə buna bacardıq. Biz gəmiçilik şirkəti olaraq, iqlim dəyişikliyinə qarşı təsirimizi azaltmaq üçün əlimizdən gələni etməliyik. ASCO olaraq, biz də bu prosesə töhfə vermək məsuliyyətimizi, borcumuzu dərk edirik. Karbon izimizi azaltmaq və davamlılıq həllərini mənimsəmək üçün yeni strategiyaları araşdırmaq və həllər hazırlamaq prosesində fəal iştirak edirik".

# "Azəriqaz"ın yapon şirkəti ilə ekoloji əməkdaşlığı

**Azərbaycan Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi və Yaponiyanın "Mitsui & Co., Ltd." şirkəti arasında metan emissiyasının azaldılması layihələrinin birgə tədqiq edilməsi məqsədilə Anlaşma Memorandumu imzalanıb. Sənədi "Azəriqaz"ın baş direktoru Azər Məmmədov və "Mitsui & Co., Ltd."nin Karbon Həlləri Biznes Bölməsinin Baş Direktoru Kosuke Xattori imzalayıblar.**




Memorandum "Azəriqaz"ın Azərbaycan ərazisində idarə etdiyi qaz kəmərlərində qaz sızmalarının qarşısının alınmasını, həmçinin Birgə Kreditləşdirmə Mexanizminin və ya digər karbon kredit mexanizmlərinin tətbiqini nəzərdə tutur. Tədqiqat gələcəkdə daha geniş tətbiq potensialı ilə Zirə qəsəbəsində başlanacaq. Bu da hər iki şirkətin karbon emissiyalarını azaltmaqla iqlim dəyişikliyi ilə bağlı öhdəliyinə sadiqliyini nümayiş etdirir.

"Azəriqaz"ın baş direktoru Azər Məmmədov bildirib ki, bu əməkdaşlıq iqlim dəyişikliyi ilə mübarizəyə və karbon qazı emissiyalarının, xüsusən də metanın azaldılmasına töhfə verəcək, şirkətlər JCM və ya digər karbon kredit mexanizmləri çərçivəsində metan emissiyalarının azaldılması layihələrinin hazırlanmasına, tətbiqinə və izlənməsinə üstünlük verəcəklər. Onun sözlərinə görə, "Mitsui" ilə əməkdaşlıq Azərbaycanın qaz infrastrukturunun dayanıqlığına və təhlükəsizliyinə töhfə verəcək.

"Mitsui & Co., Ltd."nin Karbon həlləri biznes bölməsinin baş direktoru Kosuke Xattori isə Azərbaycanın enerji təhlükəsizliyinə töhfə vermək məqsədilə "Azəriqaz"la yaxından işləməyi səbirsizliklə gözlədiklərini diqqətə çatdırıb.

Xatırladaq ki, "Mitsui & Co., Ltd." 60-dan çox ölkədə fəaliyyət göstərən və geniş bir sahə üzrə biznes portfelinə sahib olan qlobal ticarət və investisiya şirkətidir. Qurum dünya miqyasında tanınmış şirkətlərlə qurduğu etibarlı tərəfdaşlıq əlaqələri ilə bizneslərini müəyyən edir, coğrafi və sahələrarası güclərini birləşdirərək uzunmüddətli davamlı dəyər yaradır.

COP29 çərçivəsində keçirilən imzalanma mərasimində SOCAR-ın vitse-prezidenti Elşad Nəsirov və "Mitsui & Co., Ltd."nin Enerji Həlləri Biznes Bölməsinin Əməliyyatlar üzrə baş əməliyyat direktoru Yasuhiro Uçidan iştirak ediblər.

## Ekofəalların inkişaf etmiş ölkələrə iqlim maliyyəsini artırmaq çağırışı

**COP29 iqlim konfransında növbəti ekoaksiya keçirilib. Aksiya iştirakçıları inkişaf etmiş ölkələri iqlim maliyyəsini artırmağa çağırıblar.**




Onlar iqlim dəyişikliyinin nəticələri ilə mübarizədə həssas ölkələrin dəstəklənməsinin vacibliyini vurğulayıblar. Eyni zamanda, ən çox zərər çəkmiş regionların qorunması üçün resursların ədalətli bölüşdürülməsinin əhəmiyyətini qeyd ediblər.

Ekofəallar "We need trillions, not billions" ("Bizə milyardlar deyil, trilyonlar lazımdır") və "Pay up or shut up" ("Ya ödəyin, ya da çıxıb gedin") şüarları ilə çıxış ediblər.

Aksiyanın təşkilatçılarından biri təkidlə bildirib ki, maliyyələ ilə bağlı məsələlər məhz burada – COP29-da həll edilməlidir.

**Səhifəni hazırladılar:**
**Vaqif BAYRAMOV,**
**Mirbağır YAQUBZADƏ**
**XQ**




# Bakı dünyaya təhlükəsiz gələcəyin "Yol xəritəsi"ni təqdim edir




**Bu gün müasir müstəqillik tarixinin mühüm mərhələsini yaşayan, ərazi bütövlüyü və suverenliyini gerçəkləşdirən Azərbaycan hazırda mili iqtisadiyyatını daha da gücləndirmək üçün davamlı islahatları uğurla davam etdirir, neft və qeyri-neft sektorlarının dayanıqlı inkişafını uğurlu layihələrlə sürətləndirir.**

Bütün bunlarla yanaşı, "yaşıl" enerji siyasətini yüksək səviyyədə reallaşdırmaqla qlobal iqlim dəyişikliyi ilə mübarizənin önündə gedir, dünya enerji xəritəsinə yeni yön, yeni töhfələr verir. Yeri gəlmişkən, COP29-un Bakıda keçirilməsi, bu nüfuzlu konfransa evsahibliyi etməsi ölkəmizin beynəlxalq münasibətlər sistemindəki layiqli yerinin, böyük nüfuzunun və güclü mövqeyinin olduqca yüksək göstəricisidir.

BMT-nin mühüm önəm daşıyan bu sessiyası çoxistiqamətli üstünlüklərinə görə xarakterizə oluna bilər. Belə ki, konfrans, ilk növbədə, ölkəmizin humanizm dəyərləri çərçivəsində etibarlı dostluq və tərəfdaşlıq sahəsindəki keyfiyyətlərini, işğaldan azad olunan ərazilərimizin yenidən qurulmasına və həyata keçirilən layihələrə tam dəstəyi ifadə edir. Konfransda Azərbaycanın "yaşıl" enerji siyasəti təqdir edilir, ölkəmizə yeni tərəfdaşlar və dostlar qazandırır. Bu isə şübhəsiz ki, milli iqtisadi quruculuq proseslərinin daha dinamik əsaslarla davamlılığını şərtləndirir.

COP29 başlayandan indiyədək Azərbaycanın irəli sürdüyü bir sıra taleyüklü təşəbbüslər diqqət çəkib. Burada belə bir faktı xatırlatmaq istərdim: İqlim konfransının baş danışıqçısı Yalçın Rəfiyev sessiyaların birində Azərbaycanın təşəbbüslərindən biri olan İqlim Maliyyəsi Fondunun yaradılmasında və yeni maliyyə mexanizminin qurulmasında əsas məqsədin iqlim dəyişikliyi ilə mübarizəyə töhfə vermək olduğunu vurğulayıb. O, bunun üçün qrant əsaslı 1 milyard dollar vəsait toplanılmasının zəruriliyini xatırladıb.

Baş danışıqçı Y.Rəfiyev bildirib ki, İqlim Maliyyəsi Fondu Azərbaycan fondu olmayacaq, çoxtərəfli bir maliyyə qurumu kimi fəaliyyət göstərəcək. Fondun işində tərəfdar dövlətlər də iştirak edəcək və rəhbərlər bu sahəyə töhfə verən ölkələrdən seçiləcək. Çoxtərəfli maliyyə təşkilatları onun fəaliyyətinə nəzarət edəcək. Bakı sadəcə bu fondun katibliyinə ev sahibliyi edəcək.

Onun sözlərinə görə, indiyədək kiçik ada dövlətlərinin şikayətlərindən biri o idi ki, təbii fəlakət baş verəndə onlar beynəlxalq təşkilatlara müraciət etsələr də bu, nəticəsiz qalır. Ona görə də Azərbaycan alternativ maliyyə qurumunun yaradılması təşəbbüsünü irəli sürdü və bu, müsbət dəyərləndirildi.

Qeyd edim ki, ayrılacaq vəsaitin 50 faizi iqlim fəaliyyətinə və "yaşıl" enerji texnologiyalarına yönəldiləcək. İnvestisiyalardan gələn gəlirlərin 20 faizi isə "2R2F" adlandırılan maliyyə mexanizmi vasitəsilə inkişaf etməkdə olan ölkələrə istiqamətləndiriləcək. İqlim Maliyyəsi Fondu kiçik və orta bərpaolunan enerji istehsalçılarına da dəstək göstərəcək.

Onu da deyim ki, sözügedən təşəbbüsün gerçəkləşməsi üçün geçikmədən hərəkətə keçilməlidir. Çünki iqlim üzrə maliyyənin hazırkı miqyası kifayət qədər deyil. 1,5 ºC-yə gedən yol isə Bakıdan keçir. Bu, asan həll yolu deyil. Biz inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr, qlobal Cənub və qlobal Şimal arasında, ada və qitə ölkələri arasında inam yaratmalıyıq. Azərbaycan COP29-u hər kəsin səsinin eşidildiyini hiss edəcəyi əhatəli mühit olmasını təmin etməyəkdə qərarlıdır.

Prezident İlham Əliyev bu il iyulun 13-də ATƏT-in baş katibi xanım Helqa Mariya Şmidini qəbul edərkən də bu barədə fikirlərini diqqətə çatdırıb. Dövlətimizin başçısı ölkəmizin "yaşıl" keçid siyasəti və bu istiqamətdə görülən tədbirlərdən danışaraq inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Azərbaycanın gündəliyində prioritet istiqamətlərdən biri olduğunu deyib və "Commonwealth" təşkilatı ilə birlikdə kiçik ada dövlətləri ilə əlaqədar xüsusi fondun yaradılması istiqamətində iş aparıldığını bildirib.

Buradan göründüyü kimi, iqlimlə bağlı bütün səylərin dəstəklənməsində maliyyə mühüm rol oynayır. 29-cu iqlim konfransında aparılan müzakirələrdən də aydın görünür ki, bu problemin həllində irəliləyiş var. Qlobal maliyyə institutlarının bununla bağlı çağırışlarından da bu, qabarıq nəzərə çarpır. Ümumiyyətlə, beynəlxalq maliyyə institutları insanların yaşamaları üçün əlverişli planet və yoxsulluqdan azad bir dünya yaratmaq niyyətləri ilə bağlı artıq müsbət mesajlar verirlər və onlar iqlimlə bağlı öhdəliklərini konkret fəaliyyətlərlə gücləndirirlər. İqlim maliyyəsini daha geniş miqyasda əlçatan etmək üçün bu qurumlar genişmiqyaslı tədbirlər görürlər.

Hazırda Azərbaycan COP29-a ev sahibliyi mandatı çərçivəsində bütün iştirakçı tərəflərlə danışıqlar prosesinə şəffaflıq, inklüzivlik və neytrallıq prizmasından yanaşır. COP29 danışıqlarının əsas mövzuları, o cümlədən iqlim maliyyələşməsi bütün tərəflərlə əhatəli şəkildə müzakirə olunur, danışıqların uğurlu nəticələnməsi üçün mümkün həll yolları üzərində fəal iş aparılır.

Respublikamızda reallaşdırılan sosial-iqtisadi inkişaf strategiyası ekoloji problemlərin operativ həllinə, ətraf mühitin mühafizəsi istiqamətində ardıcıl və səmərəli tədbirlərin görülməsinə əlverişli şərait yaradır. Bunun nəticəsidir ki, hazırda ölkəmizdə "yaşıl enerji" növləri uğurla gerçəkləşdirilir və "yaşıl enerji"nin dünya bazarlarına nəqli enerji siyasətinin yeni prioritet istiqaməti kimi diqqətdə saxlanılır.

Təmiz ekoloji mühitin gerçəkləşdirilməsi məqsədilə mövcud təbii resursların dayanıqlı və səmərəli istifadəsi, tullantıların idarə edilməsi ilə bağlı infrastrukturun yaradılması istiqamətində də davamlı layihələr gerçəkləşdirilir. Azərbaycanın 2050-ci ilə qədər istixana effekti yaradan qazların emissiyası həcminin 40 faizə qədər azaldılmasının, habelə düşməndən təmizlənən ərazilərimizdə "təmiz 0" emissiya zonasının yaradılmasının şərti hədəf kimi götürülməsi də bunun bariz ifadəsidir.

***Cavadxan QASIMOV,***
***Naxçıvan Dövlət Universitetinin dosenti, iqtisad üzrə fəlsəfə doktoru***

# COP29: Şərqdən Qərbə "yaşıl" enerji dəhlizi



**(əvvəli 1-ci səhifədə)**

Bu barədə Qazaxıstan Prezidenti qeyd edib ki, saziş Mərkəzi Asiya və Cənubi Qafqazın inkişafı üçün imkanlar açır: "Müqavilə ölkələrə enerji sistemlərini inteqrasiya etməyə və "yaşıl" enerjinin Avropa və digər beynəlxalq bazarlara çatdırılması üçün etibarlı marşrutlar yaradır. Qazaxıstan burada böyük tranzit ərazi kimi son dərəcə mühüm rol oynayır. Onun praktiki nəticələri həm də Orta Dəhliz ölkələrinin iqtisadiyyatlarını birləşdirən "yaşıl" körpü kimi inkişafına töhfə verir".

Kasım-Jomart Tokayev vurğulayıb ki, ölkəsi beynəlxalq tərəfdaşlarla ümumi gücü 43 GVt olan "yaşıl" layihələrin tikintisinə dair razılığa gəlib. Qazaxıstan karbon neytrallığına və "yaşıl" texnologiyaların inkişafına xüsusi diqqət yetirir. 2030-cu ilə qədər ümumi istehsalda bərpaolunan enerji mənbələrinin payını 15 faizə çatdırmağı planlaşdırır.

Azərbaycan Prezidenti İlham Əliyev də bu sazişin qardaşlıq əlaqələrini möhkəmləndirdiyini və üç ölkənin strateji tərəfdaşlığını yeni səviyyəyə qaldırdığını vurğulayıb: "Mərkəzi Asiya və Qafqaz regionları bir çox məsələlərdə, o cümlədən "yaşıl" enerjinin inkişafı istiqamətində ardıcıl fəaliyyət göstərir. Biz Özbəkistan və Qazaxıstanda bərpaolunan enerji mənbələrinin yaradılması üzrə əsas planlarla və artıq əldə edilmiş uğurlarla tanışıq".

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev isə əlavə edib ki, saziş təkcə iqtisadi əhəmiyyət kəsb etmir, həm də mühüm ekoloji komponentə malikdir: "Köçürüləcək enerji külək və günəş enerjisidir ki, bu da iqlimə təsiri azaltmağa kömək edəcək. Həmçinin Paris Sazişinin məqsədlərinə və davamlı inkişafa uyğun olaraq iqlimin qorunmasına ümumi töhfəmizi əks etdirir".

COP29 çərcivəsində bağlanmış saşiş təkcə bərpaolunan və ümumi enerji sistemlərinu birləşdirməyəcək, həm də Mərkəzi Asiya ölkələrində istehsal olunan alternativ enerjinin Azərbaycana və oradan da Qərbə potensial ixracını gerçəkləşdirəcək. Bu istiqamətdə Azərbaycan Gürcüstan, Bolqarıstan, Rumıniya və Macarıstanla birgə Qara dəniz vasitəsilə bərpa olunan "yaşıl" enerjini Avropa bazarlarına çatdıracaq. Bu fəaliyyəti gerçəkləşdirəcək layihə isə Qara dənizin dibi ilə sualtı kabel vasitəsilə "yaşıl enerji"nin maneəsiz hərəkət etməsinə və bununla da enerji bazarlarını birləşdirməyə imkan verəcək.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Ölkəmiz qlobal biomüxtəliflik konfransına da ev sahibliyi edəcək

**Gələn ilin iyun ayında ölkəmizdə "Davamlı meşəçilik və biomüxtəliflik üçün sinerji: yaşıl dünya naminə əməkdaşlıq dialoqu" adlı beynəlxalq konfrans keçiriləcək. Bunu Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov COP29 çərçivəsində "İqlim və biomüxtəliflik arasında əlaqə: dayanıqlı gələcək üçün inteqrasiya olunmuş həllər" adlı tədbirdəki çıxışı zamanı bildirib.**

Qeyd olunub ki, tədbir meşəçilik və biomüxtəliflik sahəsində qlobal çağırışları müzakirə etmək üçün elm adamlarını, ekoloqları, siyasətçiləri, beynəlxalq təşkilatları, özəl sektor və vətəndaş cəmiyyəti nümayəndələrini bir araya gətirəcək. Bütün maraqlı tərəfləri bu konfransda iştirak etməyə dəvət edən nazir müavini deyib ki, gələcəkdə az meşə örtüyünə malik ölkələrin çətinliklərin aradan qaldırılmasına, qlobal dayanıqlığa töhfə verən innovativ həlləri təşviq etməyə və tərəfdaşlıqları gücləndirməyə çalışacağıq. Onun sözlərinə görə, konfrans ən yaxşı təcrübələrin bölüşülməsi və daha yaşıl gələcək üçün əməkdaşlığın inkişafı üçün mühüm platforma olacaq.

# "Yaşıl" rəqəmsal iqtisadiyyata elmi baxış



**Hazırda dünyanın əksər ölkələrində iqtisadi artım ətraf mühitin deqradasiyası, çirklənmə səviyyəsinin artması, təbii resursların tükənməsi, biosferin pozulması və iqlim dəyişikliyi kimi mənfi təzahürlər fonunda müşahidə edilir. Bu isə insan sağlamlığına zərər vurur və sonrakı nəsillərin normal inkişafına mane olur.**

İnsanın rifahının yüksəlməsinə xidmət edən iqtisadiyyat cəmiyyətin sosial şəraitinin yaxşılaşmasına mənfi təsir göstərir, eləcə də insan sağlamlığının itirilməsini şərtləndirir. Buna görə də indiki dövrdə modernləşmənin istiqaməti ətraf mühitin yaxşılaşdırılmasını gerçəkləşdirən, iqtisadi inkişafı sürətləndirən mütərəqqi innovativ texnologiyaların tətbiqinə yönəldilməlidir. Belə halda isə ekoloji təhlükəsizlik həm iqtisadi artım, həm də insanın özünün daha yaxşı yaşayışı və sağlamlığı üçün həlledici amilə çevrilir.

Yeri gəlmişkən, iqtisadiyyatın davamlı inkişaf tendensiyalarından biri də təbii ehtiyatlara və biliyə əsaslanan uzunmüddətli inkişafın təmin edilməsidir. Ancaq bəşəriyyət ənənəvi iqtisadiyyat modeli əsasında da çoxlu məhsul və xidmət yaradıb. Buna baxmayaraq, dayanıqlı iqtisadi inkişaf üçün iqtisadiyyatın yaşıllaşdırılması zəruridir. Ona görə də ayrı-ayrı ölkələrdə "yaşıl" texnologiyaların yaradılmasına böyük maraq göstərilir. Bu prosesdə rəqəmsal texnologiya və transformasiya əsaslı rol oynadığından onun problem və perspektivlərinin araşdırılması da mühüm əhəmiyyətə malikdir.

İqtisad elmləri doktoru Əlövsət Əliyevin İnformasiya Texnologiyaları İnstitutu Elmi Şurasının müvafiq qərarı ilə çap edilən " Yaşıl rəqəmsal iqtisadiyyata keçid problemləri və həll istiqamətləri" monoqrafiyasında da (Bakı, "İnformasiya Texnologiyaları" nəşriyyatı, 2024) ölkə iqtisadiyyatının yaşıllaşdırılmasında rəqəmsal texnologiya, innovasiya və trasformasiyaların mahiyyəti açıqlanaraq onların geniş tətbiqi problemləri təhlil olunub, eləcə də həlli mexanizmləri təklif edilib. Əsərdə həmin problemlərin aradan qaldırılmasına elmi dəstək verilməsi məqsədilə İnformasiya Texnologiyaları İnstitutunun müvafiq şöbəsində uzun müddət ərzində aparılan elmi-tədqiqat işlərinin nəticələri öz ifadəsini tapıb.

Monoqrafiya qlobal və milli səviyyədə "yaşıl" iqtisadiyyata keçidin formalaşması, bu prosesdə effektivliyin yüksəldilməsi məqsədi ilə rəqəmsal texnologiyalar, innovasiyalar, eləcə də transformasiyaların tətbiqi, işlənilməsi məsələləri və onların həlli mexanizmlərinin tədqiqi diqqət mərkəzində saxlanılıb.

Əsər "yaşıl" rəqəmsal iqtisadiyyata keçidlə bağlı bəzi problemlərin həll yollarının hərtərəfli təhlilini təqdim etmək məqsədi daşıyır. Burada "yaşıl" rəqəmsal transformasiyanın asanlaşdırılmasında tənzimləmə məsələləri, bərpaolunan enerji ilə təminat proseslərində innovasiyalar və onların "ağıllı" texnologiyalarla inteqrasiyası, rəqəmsal vasitələrin iqtisadi sistem və proseslərdə tətbiqi nəticələri, dünyada uğurlu "yaşıl" rəqəmsal təşəbbüslərin nümunələrinin yayılması və s. kimi problemlər araşdırılır.

Ayrı-ayrı bölmələrdə problemlər müəyyənləşdirilir, onların aradan qaldırılması üçün praktik həllər, mexanizmlər və strategiyalar təklif edilir. Uğurlu araşdırmalarla, innovativ texnologiyalarla zəngin olan monoqrafiya "yaşıl" rəqəmsal iqtisadiyyata keçidi idarə etmək istəyən menecerlər, biznes liderləri, tədqiqatçılar, alimlər "yaşıl" vətəndaş elm iştirakçıları üçün yol xəritəsi rolunu oynayır.

***XQ***

# "Təmiz" mübarizənin gender hədəfləri




**COP29 çərçivəsində keçirilən "Şəffaflıqda gender" mövzusu üzrə yüksək səviyyəli toplantıda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova deyib ki, COP fəaliyyətlərinin əsas prinsipləri inklüzivlik və gender bərabərliyini vurğulayır. Azərbaycan inanır ki, əhalinin müxtəlif qruplarının – uşaqların, gənclərin, qadınların və həssas icmaların potensialını səfərbər etmək iqlim dəyişikliyinin yaratdığı problemlərin həllinə mühüm töhfə verəcəkdir.**

BMT-nin Qadınlara Qarşı Ayrı-seçkiliyin Aradan Qaldırılması Komitəsinin üzvü, professor Rangita de Silva de Alwisin moderatorluğu ilə keçirilən tədbirin rəsmi açılış mərasimində ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayevin və BMT-nin İqlim Dəyişmələri Konfransı katibinin müavini Hamladjinin salamlama nitqləri dinlənilib.

Bahar Muradova iqlim dəyişiklikləri və dünyamıza təsir edən təbii fəlakətlərin, habelə digər qlobal ekoloji problemlərin bəşəriyyətin gələcəyinə ciddi təhlükələr yaratdığını vurğulayıb. O, ölkələrin və beynəlxalq ictimaiyyətin bütün səviyyələrdə səylərini birləşdirməsini bu vəziyyətdən minimal itkilərlə çıxmağın əsas şərti olduğunu qeyd edib. Komitə sədri bildirib ki, 30 illik müharibə təcrübəsi ilə üzləşmiş Azərbaycan iqlim dəyişikliklərini və ekoloji çağırışları daha da kəskinləşdirən ərazi, iqtisadi və insan itkilərinə baxmayaraq, bu böhranın effektiv həlli üçün beynəlxalq təhlükəsizlik, sülh və sabitliyin birgə səylərdə olduğunu dərk edir.

Çıxışlardan sonra "BTR (İkiillik Şəffaflıq Hesabatı) və NDC-lərdə (Milli Müəyyən Edilmiş Töhfələr) gender inteqrasiyasının gücləndirilməsi" adlı panel öz işinə başlayıb. Konfrans çərçivəsində gender komponentlərini özündə əks etdirən pantomima tamaşası nümayiş etdirilib.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# YAP Sədrinin müavini Asiya Siyasi Partiyalarının iclasında



**Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Kamboca Xalq Partiyasının ev sahibliyi ilə bu ölkənin Pnompen şəhərində keçirilən Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) 12-ci Baş Assambleyası çərçivəsində ICAPP Daimi Komitəsinin 42-ci iclasında iştirak edib.**

Məclisdə ICAPP-ın cari il ərzində fəaliyyətinə nəzər salınıb, Daimi Komitənin yeni üzvləri təqdim olunub və qurumun gələcək planlarına dair ətraflı fikir mübadiləsi aparılıb. İclasda ICAPP-ın BRICS vasitəsilə müxtəlif ölkələrlə, o cümlədən müxtəlif siyasi partiyalarla əməkdaşlıq məsələləri nəzərdən keçirilib. ICAPP-ın UNESCO ilə əməkdaşlığının genişləndirilməsi imkanları barədə də təkliflər səsləndirilib.

*XQ*

# Azərbaycan XİN Pakistana başsağlığı verib

**Azərbaycan Pakistanda törədilən terror aktı ilə bağlı bu ölkəyə başsağlığı verib.**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin "X" hesabındakı paylaşımda bildirilib: "Pakistanın Kurram bölgəsində çoxlu dinc sakinin silahlı hücum nəticəsində ölməsi və yaralanması xəbərindən təsirləndik. Bu dəhşətli hücumla əlaqədar həlak olanların ailələrinə və Pakistan hökumətinə dərin hüznlə başsağlığı veririk".

Xatırladaq ki, bu gün Pakistanda sərnişin avtobusuna hücum nəticəsində 28 nəfər ölüb, 30 nəfər yaralanıb.

*XQ*

# BHİK Baş katibinin müavini "Buzovna" Fizioterapiya Mərkəzində



**COP29-da iştirak etmək üçün Bakıda səfərdə olan Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının (BHİK) Baş katibinin müavini Erik Manzi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının "Buzovna" Fizioterapiya Mərkəzində olub.**

Mərkəzə baxış zamanı AHİK-in sədri Sahib Məmmədov qonağa məlumat verib ki, burada 90 nəfərlik 2 dördmərtəbəli yataq korpusu var. Bütün otaqlar zəruri məişət avadanlıqları ilə təchiz edilib. Eləcə də mərkəzdə ittifaq üzvlərinin rahat dincəlməsi üçün istirahət guşələri yaradılıb. İkimərtəbəli müalicə korpusunun birinci mərtəbəsində yeməkxana zalı, ikinci mərtəbəsində müalicə və müayinə kabinetləri, masaj otaqları yerləşir.

BHİK rəsmisinə mərkəzin iş prinsipi, göstərilən xidmətlər, prosedur qaydaları, qidalanma haqqında məlumat verilib. Həmçinin bildirilib ki, COP29 tədbirlərinə qatılan xarici qonaqların yerləşdikləri məkanların arasında "Buzovna" Fizioterapiya Mərkəzi də var. Qonaqların burada qalmaları və istirahəti üçün bütün zəruri tədbirlər görülüb.

Erik Manziyə "AHİK könüllüləri" proqramı haqqında da məlumat verilib. Könüllülərlə söhbətləşən BHİK rəsmisinin diqqətinə çatdırılıb ki, onlar AHİK-in Əmək və Sosial Münasibətlər Akademiyasının tələbələridir.

Erik Manzi Bakı şəhəri və iştirakçısı olduğu COP29 haqqında təəssüratlarını bölüşüb, tədbirin yüksək səviyyədə təşkil olunmasından, insanların qonaqpərvərliyindən razılığını ifadə edib.

# Milli Məclis Lüksemburq Deputatlar Palatasının qətnaməsinə münasibət bildirib

**Milli Məclis Lüksemburq Deputatlar Palatasının noyabrın 20-də qəbul etdiyi qətnaməni qərəzli, qeyri-obyektiv və ədalətsiz bir akt kimi qiymətləndirir, ölkəmizi hədəf alan əsassız iddia və ittihamları qətiyyətlə rədd edir. Lüksemburq parlamentinin bu siyasi aksiyası həmin ölkənin parlamentinin siyasi avantüra meydanına çevrildiyini göstərir.**

Bu barədə Milli Məclisin Lüksemburq Deputatlar Palatasının qətnaməsinə dair açıqlamasında yer alıb.

Bildirilib ki, Azərbaycanın suverenliyinə aşkar hörmətsizliyin, onun milli təhlükəsizliyinin, ictimai sabitliyinin və ərazi bütövlüyünün qorunması üçün görülən tədbirlərə etinasızlığın nümayiş etdirildiyi qətnamədə ölkəmizdə cərəyan edən proseslərlə bağlı qaldırılan məsələlər daxili işlərə kobud müdaxilədən başqa bir şey deyil.

Azərbaycan Respublikası Lüksemburq da daxil olmaqla, bütün beynəlxalq tərəfdaşlarla konstruktiv dialoqa sadiqdir, lakin bu cür dialoq qarşılıqlı hörmətə və beynəlxalq hüquqa riayət edilməsinə əsaslanmalıdır. Bununla əlaqədar Azərbaycan Milli Məclisi Lüksemburq Nümayəndələr Palatasından aqressiv ritorikanı kənara qoymağı, eləcə də parlament dialoqu və diplomatiyası prinsiplərinə zidd olan, etimadı və əməkdaşlıq yaradılması səylərini sarsıdan qətnamələr qəbul edilməsi praktikasından əl çəkməyi tələb edir.

# Şəhid ailəsinin mənzil hüququ qorunur

**"Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi, habelə yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin uçotun onun ailə üzvləri üçün saxlanılması Qaydası" təsdiq edilib.**

Nazirlər Kabinetinin təsdiqlədiyi yeni Qaydaya əsasən uçota alınmış şəxsin uçotunun onun ailə üzvləri üçün saxlanılması məqsədilə ailənin yetkinlik yaşına çatmış üzvlərindən biri "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri"nə ərizə ilə müraciət edir. Bu zaman həmin şəxsin və digər ailə üzvlərinin şəxsiyyətini təsdiq edən sənədlərin surəti, və ailəni təmsil etməsi barədə ərizə tələb olunur. Şəxsin qeydiyyatda olması haqqında sənəd notarial qaydada təsdiq edilməlidir. Sənədlərə uçota alınmış şəxsin ölümü haqqında şəhadətnamənin surəti və mənzilə ehtiyacı olan şəxsə sonradan şəhid statusu verilməsi haqqında arayış da əlavə edilir.

Həmin sənədlər və ya məlumatlar elektron sistemi vasitəsilə əldə edilərsə şəxsdən tələb edilmir. Bu mümkün olmadıqda təmsilçinin razılığı ilə müvafiq dövlət orqanından tələb olunur.

Sənədlər təqdim edildiyi gündən 30 iş günündən gec olmayaraq təmsilçinin uçota alınması və ya bundan imtina edilməsi barədə (səbəbləri göstərilməklə) qərar qəbul edilir. Qərar 3 iş günü




ərzində təmsilçiyə şəxsən və ya poçt vasitəsilə göndərilir, yaxud qeyd edilən vahid əlaqələndirmə mərkəzinə təqdim olunur.

*Zərifə HÜSEYNOVA*
*XQ*

# Əcnəbilər COP29-un əhəmiyyətini yüksək qiymətləndirirlər

**COP29 konfransında müzakirə edilən mövzular bəşəriyyət üçün önəmli daşıyır. Ölkəmizə gələn əcnəbilər də bildirirlər ki, Bakı konfransının nəticələri bütün dünya üçün əhəmiyyətli olacaq.**

**Anyagva Tobechukvu Elvis** nigeriyalıdır. COP29-da ölkəsini təmsil edir.



Bu gün təbii ekosistemlərin bərpası üçün ağacların əkilməsi, su hövzələrinin təmizlənməsini vacib sayır:

– Ətraf mühit problemlərinə dair ictimaiyyəti məlumatlandırmaq bu gün mühüm əhəmiyyət daşıyır. Media nümayəndələri də COP29-un yüksək səviyyədə təşkilinə öz töhfələrini verirlər. Ekoloji cəhətdən məsuliyyətli həyat tərzini təbliğ etmək üçün maarifləndirmə kampaniyalarında hamı fəallıq göstərməlidir. Alim və mühəndislər su təmizləmə sistemləri, günəş panelləri və ekoloji problemləri həll etmək üçün digər yeni texnologiyaların yaradılmasına çalışmalıdırlar.

Konfransda yaşıl dünya ilə bağlı məsələlərin müzakirəsi olduqca maraq kəsb edir. Hamı təmiz dünya istəyir. Amma necə? Bu gün dünyamızın qeydinə qalmırıqsa, onu böhrana sürükləyiriksə, gələcəkdə təmiz dünyamız olmayacaq. Planetdə su çatışmazlığının qarşısının alınması ilə ciddi şəkildə məşğul olmaq lazımdır. Düşünürəm ki, neft çıxarışını da dayandırmaq lazımdır. Çünki bu, torpağı korlayır. Dünyanın yaşıl örtüyünün qorunmasına diqqət çəkməliyik.

Qonaq Azərbaycanın yaşıl dünya uğrunda səylərini xüsusilə qiymətləndirdiyini dedi:

– Bu mötəbər tədbirin belə yüksək səviyyədə təşkilinə görə Azərbaycana minnətdarıq. Dünya mediası COP29-u geniş işıqlandırır. Ölkənizdə media strukturunun inkişafını da xüsusi qeyd edərdim. Hər şey əladır. Azərbaycanla yaxından tanışlıqdan çox məmnun oldum. Burada insanlar çox qonaqpərvər və səmimidirlər. Hərdən yolu itirdikdə kömək edirlər. Sənə hər an yardıma gəlməyə hazırdırlar.

**Vladimir Zuyev Qreysman** Moskvadan gəlib. İlk dəfərdir Azərbaycanda olur.



Bakının onu yaxşı mənada təəccübləndirdiyini deyir:

– Son illər Azərbaycanın inkişafı ilə bağlı çox sayda məqalələr oxumuşdum. Amma bu səviyyədə olduğunu bilmirdim. Bakı xüsusilə gözəldir. Müasirliyi ilə zövq oxşayır. Bununla belə, Şərq mədəniyyət nümunələrinə xas ornamentləri də yaşadır.

Şəhərinizdə diqqətimi çəkən məqamlardan biri də məscidlərlə yanaşı, kilsələr, sinaqoqlar və müxtəlif dini məbədlərin fəaliyyəti üçün bərabər imkanların yaradılmasıdır. Bu da onu göstərir ki, Azərbaycan müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşamağa davam etdiyi tolerant ölkədir. Mən özüm inanclıyam. Bakıda bir neçə kilsədə oldum, dua etdim, şam yandırdım.

Ölkənizin təhlükəsiz olması buraya qonaq gələn hər bir kəsin ürəyincədir. Gecənin istənilən vaxtında ürəyimiz istərsə, şəhərə çıxıb gəzirik. Küçələr gecələr əla işıqlandırılır. Hazırda şəhərə dünyanın hər yerindən çoxlu qonaq gəlib. Hər şey çox yaxşıdır. Bakılılar istiqanlı və mehribandırlar. İstənilən zaman dəstək verməyə, kömək etməyə hazırdırlar. Bakının gecələri füsunkardır. Şəhərinizlə yaxından tanışlıqdan məmnun oldum.

Bakıda təşkil edilən COP29-a böyük ümidlərimiz var. Yaşıl dünya xəyallarımızdadır. İnanırıq ki, bir gün gerçək olacaq. Azərbaycanın qısa müddət ərzində belə böyük tədbirin yüksək səviyyədə təşkilinə nail olması, onun artan gücündən xəbər verir.

**Malintle Kheleli** Lesotodan gəlib. COP29-un iştirakçısıdır. Ətraf mühitin mühafizəsi üzrə mütəxəssisdir:



– Heç vaxt belə yüksək səviyyədə keçirilən COP tədbiri görməmişdim. İclaslarda mövzu ilə bağlı maraqlı müzakirələr gedir. Nəqliyyat, xidmət məsələlərində xırda detala qədər hər şey düşünülüb. İştirakçıların iclaslarda fəallığı təqdirəlayiq haldır.

Afrika iqlim dəyişikliyindən çox əziyyət çəkir. Bu, belə davam edərsə, böyük təhlükələrlə üzləşə bilərik. Çünki iqlim böhranı getdikcə daha böyük və dağıdıcı itkilərə gətirib çıxarır.

Artıq noyabrın 22-də Bakını tərk edəcəyəm. Azərbaycan çox gözəl ölkədir. İnsanları səmimidir, gülərüzdür. Şəhəri başdan-başa gəzdim. Bakı ilə bağlı çox gözəl xatirələr qalacaq. Gələcəkdə yenə də ölkənizdə olmaq istərdim. Növbəti dəfə ailəmlə gələcəyəm.

**Aylin Kar** qardaş Türkiyədən Bakıya gəlib. Özünü vətənindəki kimi hiss etdiyini deyir:



– COP29 kimi beynəlxalq tədbirin Azərbaycanda keçirilməsi Türk dünyası adına böyük uğurdur. Türkiyə və Azərbaycan arasında dərin tarixi, mədəni və siyasi əlaqələrə əsaslanan xüsusi bir bağlılıq var. Bu əlaqə, "bir millət, iki dövlət" prinsipi ilə ölçülür və həm Azərbaycan, həm də Türkiyənin xalqları üçün çox böyük əhəmiyyət kəsb edir. Qardaşlıq anlayışı, yalnız tarixi və mədəni ortaq dəyərlərə deyil, həm də qarşılıqlı dəstək, güvən və əməkdaşlığa əsaslanır. Bu gün dünyanın birlik və həmrəyliyə hər zaman olduğundan daha çox ehtiyacı var. İqlim böhranı ilə mübarizədə dövlətlər bir-birlərinə dəstək olmalı, öz bilik və texnologiyalarını digər dövlətlərlə bölüşməlidirlər. Bu problemlərin həll edilməsi üçün liderlər bir araya gəlməli və müzakirələri genişləndirməlidirlər.

Azərbaycanın yüksək səviyyədə ev sahibliyi etdiyi COP29 burada olan hər kəs üçün çox böyük bir imkandır ki, dünyamızı narahat edən problemlərin həll yolları ilə bağlı müzakirələr aparsın. Qardaş Azərbaycan bu konfransa ev sahibliyi etməklə qlobal müstəvidə mühüm töhfə verib.

**Madiyar Kazanqapov** Qazaxıstandandır. Aktau şəhərindən qonaq gəlib.



Şəhərimizi çox bəyəndiyini deyir:

– Dostumla 3 gündür Bakıdayıq. Belə bir mötəbər tədbirin keçirildiyi bir vaxtda Bakıda olmaq bizə xoş oldu. Düzdür, düşündürdük şəhərdə qarışıqlıq olacaq. Amma belə deyil. Bakı çox səliqəli şəhərdir, "göydələn"ləri ilə göz oxşayır. Bakının rəmzlərindən olan İçərişəhər, Qız qalası, "Alov qüllələri" və digər yerlərdə olduq. Yeməkləriniz çox ləzzətlidir.

Azərbaycan son illər bütün sahələrdə çox inkişaf edib. Beynəlxalq əlaqələri genişlənib. COP29-un yüksək səviyyədə olması üçün böyük işlər görüb. Azərbaycanda tədbirlər qaydasında və yaxşı bir şəkildə təşkil edilir. Öz ölkənizlə qürur duya bilərsiniz.

**Leyla QURBANOVA,**
**Vüsalə ƏLİYEVA,**
**Rizvan FİKRƏTOĞLU,**
**Cavid QAÇAYEV**
**XQ**

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# Bəbirləri dəyişən iqlim təsirlərindən qoruyaq




**Noyabrın 21-də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin IDEA İctimai Birliyinin və Ümumdünya Təbiəti Mühafizə Fondunun birgə təşkilatçılığı ilə COP29 çərçivəsində "Dəyişən iqlim şəraitində bəbirlərin mühafizəsi" mövzusunda panel müzakirələri təşkil olunub.**

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İB-nin təsisçisi və rəhbəri Leyla Əliyeva tədbirin açılışında çıxış edərək iqlim dəyişmələrinin və qlobal ekoloji sistemdə mənfi tendensiyaların müşahidə edilməsinin Qafqaz bəbirləri də daxil olmaqla, bir çox canlının populyasiyasını təhlükə altına qoyduğunu bildirib. Qeyd edib ki, temperaturun yüksəlməsi və digər çoxsaylı təbii kataklizmlər bəbirlərin təbiətdə sağ qalmasını çətinləşdirir.

IDEA tərəfindən icra olunmuş çoxsaylı fəaliyyətlər, o cümlədən ETSN və WWF ilə əməkdaşlıq çərçivəsində həyata keçirilmiş "Azərbaycanda bəbirlərin populyasiyasının bərpası" layihəsinin bəbirlərin ölkəmizdə sayının artırılmasına verdiyi töhfə barədə layihə iştirakçılarına ətraflı məlumat verilib. Leyla Əliyeva diqqətə çatdırıb ki, 2014-cü ildə keçirilmiş Qafqaz Biomüxtəlifliyi Sammiti Cənubi Qafqaz bölgəsində ekoloji tarazlıq və canlıların mühafizəsi məsələlərinə diqqətin artırılmasını təmin edib. IDEA İB-nin təsisçisi və rəhbəri vurğulayıb ki, atılan addımların sayəsində ötən illər ərzində Azərbaycan ərazisində 23 bəbir fərdinə rast gəlinib.

Çıxışının sonunda Leyla Əliyeva bəbirlərin səmərəli mühafizəsini təmin etmək məqsədilə qlobal səyləri daha da möhkəmləndirməyə çağırıb.

Daha sonra WWF-in Avropa və Şimali Afrika üzrə regional direktoru Ajay Barai, təşkilatın Azərbaycan ofisinin direktoru Elşad Əsgərov, WWF-in Almaniya ofisinin direktoru Aurel Heidelberg, ETSN-in Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəis müavini Rəşad Allahverdiyev, Beynəlxalq Təbiəti Mühafizə İttifaqının pişikkimilər üzrə eksperti Tatjana Rosen və "Ecocorridors Fund for the Caucasus" təşkilatının nümayəndəsi Jernej Stritih çıxış ediblər.

# Leyla Əliyeva COP29 çərçivəsində Qlobal Liderlərin Dialoqunda



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva noyabrın 21-də COP29 Sədrliyi, IDEA İB və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının (BTMİ) birgə təşkilatçılığı ilə keçirilən "Qlobal liderlərin dialoqu: Təbiət üçün müsbət gələcəyə nail olmaq məqsədilə iqlim fəaliyyəti və biomüxtəlifliyin qorunması və Paris Sazişinin məqsədlərinə uyğunlaşdırılması" mövzusunda panel müzakirələrində iştirak edib.**

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində keçirilən tədbirin açılışında çıxış edən Leyla Əliyeva iqlim dəyişmələrinin və biomüxtəlifliyin itirilməsinin planetimizə vurduğu zərərin miqyaslarını vurğulayaraq beynəlxalq ictimaiyyət tərəfindən təcili tədbirlərin görülməsinin zəruri olduğunu bildirib. Eyni zamanda, Cənubi Qafqazda, xüsusilə də Azərbaycanda bir sıra heyvan növləri, o cümlədən Xəzər pələngi və Asiya şirinin keçmişdə yaşadığı, lakin nəslinin tükənməsi barədə tədbir iştirakçılarına məlumat verilib.

Leyla Əliyeva qeyd edib ki, 2011-ci ildən etibarən IDEA İB tərəfindən ölkəmizin unikal təbiəti və ekoloji balansın qorunması məqsədilə bir sıra layihə və tədbirlər icra olunub. Qafqazın "Böyük Beşliyi", zubrlar, ceyranlar və Xəzər nərələrinin mühafizəsi, eləcə də minlərlə könüllülər ilə birgə həyata keçirilmiş çoxsaylı fəaliyyətlər barədə müzakirə iştirakçılarına məlumat verilib. Çıxışının yekununda Leyla Əliyeva daha dayanıqlı və sağlam gələcəyin təmin olunması məqsədilə iştirakçıları yeni tərəfdaşlıqlar və birgə səylər göstərməyə çağırıb.

Sonra COP29-un Prezidenti Muxtar Babayev, BTMİ-nin prezidenti Razan Al Mubarak, təşkilatın baş direktoru Grethel Aguilar, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) əməliyyatların koordinasiyası üzrə baş direktoru Çhaya Kapilaşrami, Bioloji Müxtəliflik haqqında Konvensiyanın icraçı katibi Astrid Schomaker, BMT-nin Ətraf Mühit Proqramının baş direktoru İnger Andersen çıxış edərək müzakirə mövzuları ilə bağlı fikir və təkliflərini iştirakçılarla bölüşüblər.

*XQ*

# İqlim savaşında mədəni qalxan





**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) mədəniyyət görüşləri və müzakirələri ilə də zəngindir.**

Xəbər verdiyimiz kimi, bir neçə gün əvvəl sammitdə Mədəniyyət Nazirlərinin II Yüksək Səviyyəli Görüşü keçirilib. COP28, COP29 və COP30-un sədrliklərini müvafiq olaraq təmsil edən Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və Braziliyanın COP sədrlikləri üçlüyünün bir araya gəldikləri görüşdə kommunike qəbul olunub. Sənəddə Mədəniyyətə Əsaslanan İqlim Fəaliyyəti üzrə Dostlar Qrupunun yaradılmasından ötən bir il ərzində mədəniyyət və iqlim əlaqəsində əldə olunan mühüm irəliləyiş qeyd edilib. İqlim dəyişikliyinin bütün formalarının mədəni irsə artan çoxşaxəli təsirini, eləcə də iqlim dəyişikliyinin müəyyən bölgələrə və həssas qruplara qeyri-mütənasib təsirindən narahatlıq ifadə olunub.

Kommunikedə 2022-ci il MONDIACULT Bəyannaməsi və 2024-cü il G20 Salvador da Bahia Bəyannaməsi kimi beynəlxalq normativ sənədlərdə təsbit olunmuş öhdəliklərin yerinə yetirilməsinə çalışaraq COP29-un Mədəniyyət Üçlüyü üzv dövlətlərinin bir sıra mühüm müddəalara sadiq qaldıqları vurğulanıb.

*

Sonrakı proqramda silsilə tədbirlərin keçirilməsi davam edib. "İqlim üçün mədəniyyət: Gənclərin davranış dəyişikliyinin formalaşdırılmasına cəlb edilməsi" adlı panel sessiya maraqlı olub. Heydər Əliyev Fondu, IDEA İctimai Birliyi, ICESCO və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə reallaşan sessiyada eyni adlı videoçarx göstərilib. ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki, Mədəni Mülkiyyətlərin Qorunması və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin (ICCROM) Baş direktoru Aruna Francesca Maria Gujral, İordaniya Haşimilər Krallığının şahzadəsi, UNESCO-nun xoşməramlı səfiri, Petra Milli Trestinin prezidenti, xanım Dana Firas və Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəhbəri Soltan Məmmədov çıxış ediblər.

Natiqlər mədəniyyət layihələrindən, bu sahə təmsilçilərinin iqlim böhranına qarşı mübarizədə ruhlandırıcı rolundan danışıblar. Mədəniyyətə Əsaslanan İqlim Fəaliyyəti üzrə Dostlar Qrupu (GFCBCA) və Azərbaycanın yeni "İqlim üçün mədəniyyət" (C4C) təşəbbüsü kimi beynəlxalq platformaların bu cəhdlərdəki rolu diqqət mərkəzində olub.

*

İqlim çağırışları mədəniyyətin turizm sektorunun da inkişaf vacibliyini diktə edir. Çünki Dünya Səyahət və Turizm Şurasının ən son məlumatlarına görə, turizm sektoru qlobal ÜDM-in 10 faizini yaradır və hər 10 nəfərdən biri bu sahədə işləyir. Bir çox ölkələr üçün turizm həyat mənbəyidir – əhalini gəlir, məşğulluq və xarici valyuta ilə təmin edir.

Bakı sammitində Turizm Sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə Nazirlərin Birinci Görüşündə ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev deyib ki, turizm qlobal istixana qazı emissiyalarının əhəmiyyətli bir hissəsinə görə məsuliyyət daşımaqla yanaşı, iqlim dəyişikliyinin təsirlərinə qarşı da həssas sahədir. Ona görə də bu görüş turizmin qlobal iqlim gündəminə inteqrasiya edilməsi və onu Paris Sazişi və Dayanıqlı İnkişaf Məqsədləri ilə uyğunlaşdırmaq üçün konkret addımdır. M.Babayev diqqətə çatdırıb ki, təqdim edilən "Turizmdə İqlim Fəaliyyətinin Gücləndirilməsi üzrə COP29 Bəyannaməsi" turizmin beynəlxalq iqlim strategiyalarına inteqrasiyasını tələb edir.

Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili isə deyib ki, əvvəlki konfranslardan fərqli olaraq, Bakıda ilk dəfə və geniş formatda turizm haqqında danışılması təqdirəlayiqdir: "Bu görüşün təşkili böyük və vacib bir ənənənin başlanğıcıdır, çünki turizm sülh də daxil olmaqla, bir çox dəyişikliyin böyük bir hissəsidir. İlk növbədə, sülhdən danışdıqda, turizm sülhü bərqərar etmək üçün ən güclü alətlərdən biridir. Sülh bu gün dünyada heç vaxt olmadığı qədər vacibdir. Biz iqlim dəyişikliyindən, ətraf mühit problemlərindən, qida israfından danışırıq. Bu yeni çağırışlar turizmə və onun effektivliyinə təsir edir".

Görüşün 2-ci günü "Turizm üzrə Təkmilləşdirilmiş İqlim Təşəbbüsü" müzakirə edilib, 50-dən çox ölkə və 8 qeyri-dövlət aktorunun qoşulduğu "Turizm Sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə COP29 Bəyannaməsi" digər dövlətlərin də iştirakı üçün elan olunub. Natiqlər bu qənaətə gəliblər ki, birlikdə turizmin təkcə iqtisadi artım üçün deyil, həm də ətraf mühitin qorunması və qlobal həmrəylik üçün qüvvə olması təmin edilməlidir.

*

COP29 Azərbaycan Əməliyyat Şirkəti və COP29-un Dayanıqlı inkişaf üzrə tərəfdaşı "Azersun Holding"in dayanıqlı turizm mövzusunda birgə panel müzakirəsi keçirilib. "Slou Fud" zəif effekt: Yerli aqromahsullar ilə dayanıqlı turizmin gücləndirilməsi" adlı tədbirdə bir araya gələn ekspertlər, dayanıqlılıq tədqiqatçıları, iş dünyasının liderləri və turizm peşəkarları "slou fud" hərəkatı və dayanıqlı kənd təsərrüfatı prinsiplərinin aşağıtəsirli turizmin inkişafında necə rol oynayacağını müzakirə ediblər. Vurğulanıb ki, yerli kənd təsərrüfatı məhsullarına üstünlük verərək və dayanıqlı kənd təsərrüfatı təcrübələrini dəstəkləyərək, turizmin yaratdığı karbon emissiyalarını azaltmaq, səyahət təcrübəsini zənginləşdirmək və daha yaşıl, eyni zamanda, dayanıqlı bir gələcəyə töhfə vermək mümkündür.

*

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşkil etdiyi "UNICEF Azərbaycan" ilə birgə Dünya Uşaqlar Günü münasibətilə "Gələcəyə qulaq as" adlı sərgidə ekspozisiyanı süni intellekt vasitəsilə 20-dən çox ölkədən uşaqların iqlim fəaliyyətinə dair fikir və ideyaları bəzəyib. Naziri Fərid Qayıbov, UNICEF-in Azərbaycandakı nümayəndəsi Dr. Saca Faruq Abdullah və gənc iqlim elçiləri açılış mərasimində iştirak ediblər. Hər kəsin maraqla ziyarət etdiyi Gənclər Evi pavilyonunda uşaqların yaşıl dünya naminə həmrəyliyinə nail olunub.

*Ə.ƏLİYEV*
*XQ*

# "Qırmızı kitab"ın yaşıl səhifəsi

**Dünən IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyi və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının əməkdaşlığı ilə COP29 çərçivəsində "Mühafizənin 60 ili: BTMİ-nin Qırmızı Siyahısı" mövzusunda panel müzakirələr təşkil olunub.**




Tədbirin açılışında çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İB-nin təsisçisi və rəhbəri Leyla Əliyeva nəsli kəsilməkdə olan bioloji növlərin mühafizəsinin qlobal ekosistemin və biomüxtəlifliyin qorunmasında vacib rol oynadığını qeyd edib. Leyla Əliyeva vurğulayıb ki, canlı orqanizmlərin məhv olunmasının qarşısının alınması beynəlxalq həmrəylik və əməkdaşlıq mühitində birgə addımların atılmasını tələb edən qlobal çağırışdır.

Sonra tədbir iştirakçılarına Cənubi Qafqazın zəngin təbiəti və buraya xas olan, lakin nəsli kəsilmiş bir sıra heyvan növləri barədə məlumat verilib.

IDEA İB tərəfindən 2011-ci ildən etibarən icra olunan fəaliyyətlərə toxunan Leyla Əliyeva bildirib ki, nadir canlıların qorunması, ölkəmizə xas nadir heyvan və bitki növlərinin mühafizəsi, eləcə də onların populyasiyasının bərpası təşkilatın əsas fəaliyyət istiqamətləri sırasında xüsusi yer tutur. IDEA İB-nin təsisçisi və rəhbəri BTMİ ilə əməkdaşlıq çərçivəsində 2012-ci ildə geniş ictimaiyyətə təqdim olunmuş Qafqazın "Böyük Beşliyi" layihəsini qeyd edib. Bildirib ki, Qafqaz bəbiri, ceyran, qonur ayı, boz canavar və imperator qartalının populyasiyasının qorunması və artırılması məqsədilə bir sıra addımlar atılıb.

Daha sonra Leyla Əliyeva qeyd edib ki, nəsli kəsilmiş zubrların populyasiyasının bərpası və onların ölkə təbiətinə reintroduksiya olunması məqsədilə 2017-ci ildən etibarən 46 zubr Avropanın müxtəlif ölkələrindən Şahdağ Milli Parkına gətirilib və 2028-ci ilədək zubrların sayının 100-ə çatdırılması nəzərdə tutulub. Eyni zamanda, ceyranların reintroduksiyası layihəsi və digər müvafiq tədbirlər nəticəsində ölkə ərazisində ceyran populyasiyasının 8 minə çatdırıldığı, eləcə də yüz minlərlə nərə balığı körpələrinin Xəzər dənizi və Azərbaycanın digər su hövzələrinə buraxıldığı bildirilib.

BTMİ-nin Şərqi Avropa, Şimali və Mərkəzi Asiya üzrə regional direktoru Oliver Avramoskinin moderatorluğu ilə keçirilən tədbir çərçivəsində çıxış edən BTMİ-nin baş direktoru Grethel Aguilar, "Conservation International" təşkilatının meşə strategiyası üzrə baş direktoru Jason Funk və "Birdlife International" təşkilatının baş meneceri Cathy Yitong Li BTMİ Qırmızı Siyahısında adları qeyd olunan canlıların mühafizəsi, eləcə də qlobal biomüxtəlifliyin birgə səylər və nəticəyönümlü fəaliyyət vasitəsilə qorunmasının əhəmiyyətinə dair fikirlərini müzakirə iştirakçıları ilə bölüşüblər.

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

Məsumə Məlikova – 95

# Hüquqşünas alim, nüfuzlu ziyalı



**Azərbaycan Respublikasının Əməkdar hüquqşünası, AMEA-nın müxbir üzvü, hüquq elmləri doktoru, professor Məsumə Fazil qızı Məlikova Bakı Dövlət Universitetinin (o zamankı Azərbaycan Dövlət Universiteti) hüquq fakültəsində 70 ildən artıq bir müddətdə − 1952-ci ildən bu günədək elmi-pedaqoji fəaliyyətlə məşğul olur. Alim kimi həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda tanınan Məsumə xanım dövlət və hüquq nəzəriyyəsi, hüquq tarixi, siyasi-hüquqi təlimlər tarixi elmlərinin inkişafına, bütövlükdə, Azərbaycanda elm siyasətinin səmərəli həyata keçirilməsinə böyük töhfələr vermişdir.**

Azərbaycanda hüquqşünaslığın bir elm və ixtisas kimi formalaşmasının bünövrəsini qoyanlardan biri, özünün elmi məktəbini yaradan və onu inkişaf etdirməklə hüquq elmini layiqincə təmsil edən Məsumə Məlikova böyük və mənalı həyat yolu keçmişdir. Onun elmi-pedaqoji fəaliyyətinə və əldə etdiyi nailiyyətlərə həsr olunmuş məqalələrdən birində − 1994-cü ildə nəşr edilmiş Azərbaycan qadınlarının həyat və fəaliyyətinə dair "Hər sətirdə bir tarix" adlı ensiklopedik topluda Məsumə Məlikova haqqında verilmiş yazı bu sözlərlə başlayır: "Hüquq elmləri doktoru alimlik dərəcəsi almış ilk azərbaycanlı qadın, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar hüquqşünas". Onu bu uca zirvəyə yüksəldən şəxsi elmi potensialı və gərgin əməyi olmuşdur.

22 noyabr 1929-cu ildə Bakı şəhərində zəhmətkeş bir ailədə dünyaya göz açmış və tərbiyə almış Məsumə Məlikova erkən yaşlarından oxumağa, biliyə böyük həvəs göstərmiş, əməksevərliyin mahiyyətini dərk etmiş və onu özünün yaşam tərzi və fəaliyyəti ilə sübuta yetirmişdir. Onun xarakterinin formalaşmasında və elmin yüksək səviyyəsinə çatmasında məhz bu amillərin böyük rolu olmuşdur. Elə hazırda da Məsumə Məlikovanı tanıyanlar onun elmi işlərə necə tələbkar olduğunu, məzmunlu, keyfiyyətli elmi işlərin hazırlanması yolunda necə səy göstərdiyini, elmi fikirlərin və yanaşmaların dəqiqliyinə və tutumluluğuna necə həssaslıqla yanaşmasını müşahidə edə bilərlər.

Böyük alimin ömür payının ən önəmli səhifələrindən biri onun Bakı Dövlət Universitetinin (BDU) hüquq fakültəsində təhsil aldığı illəri əhatə edir. Özünün geniş erudisiyası və biliklərə yiyələnməkdə sonsuz həvəsi ilə seçilən Məsumə Məlikovanın həyatının sonrakı dönəmi məhz bu illərdən qidalanmışdır. 1952-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirdikdən sonra elmə münasibətdə şəxsi səyini, bilik və bacarığını, habelə elmi-pedaqoji fəaliyyətə həvəsini nəzərə alan hüquq fakültəsinin rəhbərliyi M.Məlikovanı "Dövlət hüququ" kafedrasında müəllim vəzifəsində saxlamışdır.

1953-cü ildə ADU-nun aspiranturasına qəbul olunmuş və tədqiqat işində şəxsi istedadını nəzərə alan ADU rəhbərliyi M.Məlikovanı elmi işini davam etdirmək üçün 1954-cü ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) aspiranturasına ezam etmişdir. Aspiranturanı bitirdikdən sonra 1958-ci ildə MDU-da "M.F.Axundovun ictimai-siyasi baxışları" mövzusunda namizədlik, 1973-cü ildə isə "XIX əsrin II yarısı–XX əsrin başlanğıcında Azərbaycan maarifçilərinin siyasi və hüquqi baxışları" mövzusunda doktorluq dissertasiyalarını uğurla müdafiə etmişdir. Lakin elmi və pedaqoji fəaliyyətini təhsil aldığı doğma universitetlə bağlamış, burada müəllimlikdən kafedra müdirliyinədək şərəfli bir yol keçmişdir.

M.Məlikova 1968-ci ildən indiyədək hüquq fakültəsinin Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının müdiridir. O, 1974-cü ildə professor elmi adını almış, 1989-cu ildə isə AMEA-nın müxbir üzvü seçilmiş ilk hüquqşünas qadın alimdir.

Özünün çoxillik elmi-pedaqoji fəaliyyəti ərzində M.Məlikova yüksək ixtisaslı mütəxəssislər hazırlamış, ölkədə və ondan kənarda monoqrafiyalar, dərsliklər, kitablar, çoxsaylı elmi məqalələr müəllifi kimi tanınmışdır. Onun elmi əsərlərinin sayı 200-dən artıqdır. Hüquq elminin ümumnəzəri və tarixi sahələrini əhatə edən bu elmi əsərlər və bir alim kimi M.Məlikovanın əldə etdiyi elmi nailiyyətlər onun istedadının, öz qarşısına qoyduğu məqsədlərinə nail olunmasındakı gərgin əməyinin nəticəsidir.

Çoxsaylı monoqrafiyaların, dərsliklərin və elmi məqalələrin müəllifi olan M.Məlikova məhsuldar, peşəkar, geniş dünyagörüşlü alim-tədqiqatçı kimi tanınmışdır. Onun elmi-tədqiqat fəaliyyətinin başlıca istiqamətlərinin içərisində hüquqşünaslığın iki mühüm sahəsini – ümumi dövlət və hüquq nəzəriyyəsinin və siyasi-hüquqi təlimlər tarixinin aktual problemlərinin tədqiqini xüsusi qeyd etmək lazımdır. Məsumə xanım Azərbaycanda milli siyasi və hüquqi təlimlər tarixi elminin banisi olmuş, hüquq elminin bu sahəsində məktəb yaratmış və hüquqşünaslıqda yeni istiqamətin təməlini qoymuşdur.

Məsumə Məlikova ilk dəfə elmi metodologiyanın müxtəlif üsullarından istifadə etməklə dövlət və hüquqi təlimlər tarixi sahəsində mühüm nailiyyətlərə imza atmış, maarifçiliyin ən erkən köklərinin yer aldığı bir sıra hüquqi abidələri, xüsusən də zərdüştiliyin qanunlar külliyyatı olan "Avesta"nı və "Kitabi-Dədə Qorqud" eposunu tədqiq etmiş, bu hüquqi abidələrdə siyasi-hüquqi ideyaların mahiyyətini açıb göstərmişdir. "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik yubileyi ilə əlaqədar aparılan araşdırmalar kontekstində bu böyük abidədə ictimai-siyasi ideyaların ilk tədqiqi məhz professor M.Məlikova tərəfindən həyata keçirilmişdir. Onun bu eposda ictimai-siyasi və hüquqi ideyaların araşdırılmasına həsr olunmuş "Kitabi-Dədə Qorqud" da ictimai-siyasi və hüquqi ideyalar" adlı kitabı böyük elmi marağa səbəb olmuşdur.

Görkəmli alim hüquq ədəbiyyatında ilk dəfə Azərbaycanda ideya cərəyanlarının tarixini, maarıfçilik ideologiyasının təşəkkülü və inkişaf qanunauyğunluqlarını, Azərbaycanın görkəmli maarifçilərinin siyasi-hüquqi baxışlarını tədqiq etmiş, ən qədim dövrlərdən XX əsrin başlanğıcınadək bu ideologiyanın dövrləşdirilməsi konsepsiyasını elmi cəhətdən əsaslandırmışdır. Onun "M.F.Axundovun ictimai-siyasi baxışları" (1958), "XIX əsr-XX əsrin başlanğıcında Azərbaycanda siyasi-hüquqi təlimlər tarixi" (1972) kitablarında, eləcə də "Nizami Gəncəvi və Azərbaycan maarifçiliyi" (1992) , "Azərbaycanın siyasi-hüquqi təlimlər tarixinin dərk edilməsində tarixilik və varislik prinsipləri" (2006), "Azərbaycanda maarifçiliyin tarixinin dövrləşməsi məsələsinə dair" (2008), "III-X əsrlərdə Azərbaycanda maarifçiliyin tarixi" (2009) və s. bu qəbildən olan əsərlərində Azərbaycan maarifçiliyinin siyasi və hüquqi ideyalarının, sosial tərəqqi, dövlətin, hüququn və şəxsiyyətin qarşılıqlı əlaqəsi problemlərinin ilkin tədqiqi aparılmışdır.

Elmi ictimaiyyət arasında özünün çoxşaxəli yaradıcılığı ilə tanınan M.Məlikovanın böyük elmi tutumlu və maraqlı əsərləri Sovetlər Birliyinin hüquqşünas alimlərinin diqqətini cəlb etmişdir. O, SSRİ-nin ən nüfuzlu universitetlərində çalışan hüquqşünas alimlərlə birlikdə "Siyasi və hüquqi təlimlər tarixi" adlanan çoxcildli monoqrafiyaların üç cildində (I,II,III cildlər), eləcə də "Siyasi və hüquqi təlimlər tarixi" adlı dərsliklərdə (1965, 1971, 1991) bir neçə bölmənin müəllifi olmuşdur. 1985-ci ildə Moskvada çap edilmiş "Siyasi və hüquqi təlimlər tarixi" kitabının "Qədim dünya" adlanan I cildində, 1986-cı ildə "Orta əsrlər və İntibah dövrü" adlı II cildində, 1989-cu ildə "XVII-XVIII əsrlər"i əhatə edən III cildində, 1965 və 1971-ci illərdə "Siyasi təlimlər tarixi" dərsliyində, 1991-ci ildə "Siyasi və hüquqi təlimlər tarixi" dərsliyində bir neçə bölməni məhz professor M.Məlikova yazmışdır. Həmin bölmələrdə Şərq mütəfəkkirlərinin siyasi və hüquqi baxışlarının tədqiqi, Azərbaycan mütəfəkkirlərinin əsərlərində, həmçinin dövrün ictimai həyatının hüquqi tənzimini nəzərdə tutan bir çox hüquqi aktlarda öz ifadəsini tapmış siyasi-hüquqi ideyaların araşdırılması və təhlili yer almışdır.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda ilk dəfə olaraq professor M.Məlikova 1991-ci ildə nəşr edilmiş "Hüquq ensiklopedik lüğəti"nin tərtib edilməsində baş redaktor qismində böyük müəlliflər kollektivinə rəhbərlik etmiş və şəxsən özü 85-dən artıq elmi məqalənin müəllifi olmuşdur. Bununla yanaşı, o, "Sovet Hüquq Ensiklopediyası"nda "Avesta" adlı elmi məqalənin, habelə "Azərbaycan Sovet Ensiklopediyası"nda 30-dan artıq elmi-hüquqi məqalələrin müəllifidir.

Məhz professor M.Məlikova ilk dəfə olaraq Azərbaycan dilində "Dövlət və hüquq nəzəriyyəsi" (1979-cu ildə) adlı dərslik yazaraq nəşr etdirmişdir. İlk ana dilli dərslik olmaq etibarilə bu kitab respublikamızın həyatında dövlət və hüququn nəzəri məsələlərini əhatəli surətdə özündə ehtiva etmiş, 1988-ci ildə isə onun ikinci – təkmilləşdirilmiş nəşri işıq üzü görmüşdür.

Sovetlər Birliyi dönəmində hüquqşünaslıq ixtisası üzrə bütün İttifaq miqyasında M.Məlikovanın təşəbbüsü ilə hüquq üzrə təhsilin tədris planına ilk dəfə milli siyasi və hüquqi təlimlər tarixi ilə bağlı fənn daxil edilmiş, 1984-cü ildə onun hazırladığı "Azərbaycanın siyasi-hüquqi nəzəriyyələr tarixi" (birgə müəlliflikə) monoqrafiyası dərc edilmişdir. Qədim dövrlərdən XX əsrin başlanğıcınadək Azərbaycanda demokratik siyasi-hüquqi fikrin təşəkkülü və inkişafı prosesinin dərin təhlilini əks etdirən bu monoqrafiya ölkəmizdə hüquq elminin inkişafı, milli fikir tariximizin araşdırılmasında mühüm elmi nailiyyət sayılır.

Görkəmli alimin və onun rəhbərlik etdiyi məktəbin elmi tədqiqatları nəticəsində ölkəmizdə hüquq təhsili sahəsində tədris planına ilk dəfə olaraq "Azərbaycanın siyasi-hüquqi təlimlər tarixi", "Azərbaycanın dövlət və hüquq tarixi", "Müsəlman hüququnun əsasları" fənləri daxil edilmiş və həmin fənlərin tədrisi üçün müvafiq elmi baza yaradılmışdır.

Müstəqilliyimizi əldə etdiyimiz andan etibarən kafedrada tədris olunan fənlərin elmi-metodiki bazasının yenidən təşkili məsələsini rəhbər tutmaqla professor M.Məlikovanın rəhbərliyi altında və bilavasitə onun müəllifliyi ilə çoxsaylı dərslik, dərs vəsaitləri və elmi məcmuələr hazırlanaraq nəşr edilmişdir. Bunların içərisində xüsusi olaraq "Hüquq nəzəriyyəsi" (2019, 2022, 2023), Azərbaycanın və xarici ölkələrin dövlət və hüquq tarixi sahələrinə dair "Xarici ölkələrin dövlət və hüquq tarixi" (qədim və orta əsrlər) (1997, 2005, birgə müəlliflikə), "Müasir dövlət və hüquq tarixi" (2003, birgə müəlliflikə) dərslikləri, "Qədim dövrlərdə və erkən orta əsrlərdə Azərbaycanın dövlət və hüququ" (2001, birgə müəlliflikə) dərs vəsaiti və "Qafqaz xalqlarının hüquq abidələrinin antologiyası. Azərbaycanın hüquq abidələri" (17, 18 və 19-cu cildlər, birgə müəlliflikə) elmi məcmuəsini göstərmək olar. M.Məlikovanın yazdığı "Azərbaycan Respublikasının Konstitusiyası və insan hüquqları" (1995), "Azərbaycanda hüquqi islahatlar və Konstitusiya Məhkəməsi" (1998), "Azərbaycan Respublikası qanunvericiliyinin konstitusiya-hüquqi əsasları" (2003), "Azərbaycan Respublikası qanunvericiliyinin proqnozlaşdırılma məsələləri" (2005), "Rəqəmsal texnologiyaların hüquqi sferaya tətbiqi probleminə dair" (2021), "Beynəlxalq və dövlətdaxili hüququn nisbəti və milli hüquq mənbələrinin sistemi" (2023) və s. kimi elmi əsərlərində ölkəmizdə hüquqi dövlət quruculuğu prosesini sürətləndirən və bütövlükdə hüquq sisteminin təkmilləşdirilməsinə xidmət edən yeni təkliflər irəli sürülmüşdür.

Professor M.Məlikovanın çoxcəhətli elmi fəaliyyətinə bir çox monoqrafiya, dərslik və dərs vəsaitlərinin, habelə məcmuələrin elmi redaktorluğu, ölkə daxilində, eləcə də onun hüdudlarından kənarda nəşr olunan bir sıra hüquq jurnallarının – "История государства и права" (RF), Azərbaycan-Rusiya müştərək "Между-народное право и сравнительное право", "AMEA-nın Xəbərləri" jurnalının tarix və hüquq elmləri seriyasının, AMEA-da "M.F.Axundzadə Ensiklopediyası"nın hazırlanmasına dair redaksiya heyətinin, "Hüquqi dövlət və qanun", "Dövlət və hüquq", "Hüquq+Gənclik" jurnallarının redaksiya heyətlərinin üzvlüyü daxildir. M.Məlikova 30 ildən artıq müddətdə "Bakı Universitetinin Xəbərləri" jurnalının sosial-siyasi elmlər seriyasının redaktorudur və bu jurnalda fundamental elmi problemlərlə bağlı məqalələrin hazırlanması və nəşri istiqamətində yorulmadan fəaliyyət göstərir.

Elmi kadrların hazırlanması işinə böyük töhfələr verən görkəmli alim yalnız ölkəmiz deyil, həmçinin xarici ölkələr üçün yüksək ixtisaslı elmi kadrlar hazırlığına böyük əmək sərf etmişdir. Onun rəhbərliyi altında 30-dan artıq, o cümlədən Suriya, İordaniya, Fələstin, Vyetnam və s. ölkələr üçün hüquq üzrə fəlsəfə doktoru, 5 hüquq elmləri doktoru dissertasiya işi müvəffəqiyyətlə müdafiə edilmişdir. M.Məlikova hazırda da hüquq üzrə fəlsəfə doktoru və hüquq elmləri doktoru proqramı üzrə elmi rəhbərliyini davam etdirir.

Azərbaycanın milli hüquq sisteminin formalaşmasında və qanunvericiliyinin təkmilləşdirilməsində mühüm xidmətləri olan professor M.Məlikova Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını tərtib edənlərdən biri, ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında respublikanın 1978-ci il və müstəqil Azərbaycanın 1995-ci il konstitusiyalarının, Naxçıvan Muxtar Respublikasının 1998-ci il Konstitusiyasının hazırlanması üzrə komissiyaların üzvü olmuşdur.

M.Məlikova ölkəmizdə, keçmiş sovet respublikalarında və xarici ölkələrdə keçirilmiş çoxsaylı elmi konfransların fəal iştirakçısı olmuşdur. Belə ki, o, 1976-cı ildə İngiltərədə keçirilmiş Beynəlxalq Siyasi Elmlər Assosiasiyasının X konqresində Siyasi Elmlər Assosiasiyası İcraiyyə Komitəsinin üzvü kimi iştirak etmiş və "Zaman amili və Azərbaycanda milli dövlət quruculuğunun nailiyyətləri" mövzusunda məruzə ilə çıxış etmiş, 1986-cı ildə ABŞ-də və Kanadada Amerika və sovet hüquqşünaslarının seminar müşavirəsində sovet hüquqşünaslarının Assosiasiyasının xüsusi qrup iştirakçısı kimi, 1991-ci ildə Türkiyədə Azərbaycan Respublikasının Qadınlar Cəmiyyətinin nümayəndəsi kimi iştirak etmişdir. O, ölkəmizdə 1991-ci ildə ilk dəfə keçirilən Azərbaycan–Amerika simpoziumunun təşkilatçılarından biri olmuş və onun elmi məruzəsi böyük maraqla qarşılanmışdır.

M.Məlikova müstəqillik dövründə də dövlətimizin bir çox elmi təşkilatlarının fəaliyyətində gərgin əmək sərf etmişdir. O, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının yarandığı gündən 1998-ci ilədək iqtisadi, fəlsəfə və hüquqi elmlər üzrə Ekspert Komissiyasının sədri, Baş Prokurorluğun Elmi-məsləhət Şurasının və Ali Məhkəmənin analoji şurasının üzvü, AMEA-nın nəzdində Hüquq elmləri üzrə Problem Şurasının sədri, AMEA-nın ictimai elmlər bölməsinin bürosunun və AMEA-nın Rəyasət Heyəti yanında Terminologiya Komissiyasının hüquqşünaslıq bölməsinin üzvü kimi elmin müxtəlif sahələrinin təkmilləşdirilməsi yönümündə dəyərli tövsiyələrini vermişdir.

Dövlətimiz professor M.Məlikovanın elmin və təhsilin inkişafındakı xidmətlərini layiqincə qiymətləndirmiş və onu fəxri adlar və coxsaylı təltiflərlə mükafatlandırmışdır. Bu yüksək mükafatların içərisində görkəmli alimin layiq görüldüyü "Azərbaycan Respublikasının Əməkdar hüquqşünası" fəxri adını, "Şərəf nişanı" ordeni və "Şöhrət" ordeni, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"nu, "Heydər Əliyevin 100 illiyi (1923–2023)" yubiley medalını, Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Bakı Dövlət Universitetinin 100 illiyi (1919–2019)" yubiley medalını, "Əmək veteranı" medalını, Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Fərqlənməyə görə" döş nişanını, Bakı Dövlət Universitetinin 75 illiyi münasibəti ilə "Xatirə medalı"nı, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin "Xatirə" medalını və çox sayda fəxri fərmanları göstərmək olar. M.Məlikova 2009-cu ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

Yüksək işgüzarlıq qabiliyyəti, gələcəyə olan böyük inamı, xeyirxahlığı, diqqətliliyi, həssaslığı, həmkarları və tələbələri ilə mehriban münasibəti M.Məlikovanın qazandığı yüksək nüfuzun haradan qaynaqlandığını göstərir. Məlumdur ki, hər bir insanın həyatının mənası onun arzularını reallaşdırmasında, konkret hərəkətlərində, özünün fəaliyyətinin gözlə görünə biləcək nəticələrində və nəzərdə tutulan niyyətlərin yerinə yetirilməsində öz ifadəsini tapır. Məsumə xanım o şəxsiyyətlərdəndir ki, onlar bir çox həyati hadisələrdə qalib çıxırlar, çətinlikləri dəf edirlər, nə istədiklərini bilirlər və başqalarına yalnız xeyirxah fikirlər aşıladıqları üçün onların sevimlisinə çevrilirlər.

Bütün mənalı həyatı elmi-pedaqoji fəaliyyətlə bağlı olan M.Məlikovanın neçə-neçə hüquqşünaslar nəslinin yetişməsində misilsiz xidmətləri bütün hüquq ictimaiyyətinə məlumdur. Böyük alimin elmi-pedaqoji fəaliyyətində qazandığı uğurlar, tələbələrinə və həmkarlarına göstərdiyi diqqət və qayğı, elmə münasibətdə tutduğu prinsipial mövqe və nəhayət, onun konkret əməllərində təzahür edən insani keyfiyyətləri və bir alim, pedaqoq kimi keçdiyi zəngin həyat yolu nəinki hüquqşünaslar, həm də elmi-pedaqoji sahədə çalışan bütün insanlar üçün bir nümunədir.

Dərin hörmət və ehtiramı özünün layiqli həyatı ilə qazanmış, öz peşəsinə müstəsna sadiqlik nümunəsinə çevrilmiş, Vətəninə və xalqına layiqli xidmət göstərmiş bənzərsiz alim və nəcib ziyalı, professor Məsumə Məlikovanı yubileyi münasibətilə təbrik edir, ona can sağlığı və hüquq elminin inkişafı istiqamətində bundan sonra da uzun illər fəaliyyət göstərməsini arzulayırıq.

***Zaur ƏLİYEV,***
***Bakı Dövlət Universiteti***
***hüquq fakültəsinin dekanı***

# İqlim fəaliyyəti üçün dialoq

*Su yoxdursa, ərzaq təhlükəsizliyi də olmaz*

**COP29 çərçivəsində Amerika Əməkdaşlıq İnstitutunun təşkilatçılığı ilə "İqlim fəaliyyəti üçün dialoq: su yoxdursa, ərzaq təhlükəsizliyi də yoxdur" adlı panel müzakirələr keçirilib.**



Müzakirələrdə Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Rəşad Hüseynov da iştirak edib. Nazirliyin məlumatına görə, suya əlçatanlıq, qida istehsalı və ərzaq təhlükəsizliyi, biomüxtəliflik, iqlim dəyişikliyinə davamlılıq və fəlakət riskinin azaldılması sahələrində kənd təsərrüfatı həllərindən bəhs olunan tədbirdə mərkəz rəhbəri ona ünvanlanan suallar əsasında Azərbaycanda suvarma suyunun idarə edilməsi sahəsində görülən işlərdən danışıb. Qeyd olunub ki, Azərbaycanda suya qənaət məqsədilə müasir suvarma sistemlərinin tətbiqinə mühüm dövlət dəstəyi verilir, su ehtiyatlarının səmərəli istifadəsi, itkilərin azaldılması, yeni su mənbələrinin yaradılması, idarəetmənin təkmilləşdirilməsi və digər istiqamətlərdə genişmiqyaslı tədbirlər həyata keçirilir.

Ölkəmizdə sututarların, suvarma kanallarının dövlətin maliyyəsi hesabına qurulduğunu, köhnəlmiş sistemlərin dövlət büdcəsi hesabına təmir olunduğunu diqqətə çatdıran R. Hüseynov bildirib ki, son illər iqlim dəyişiklikləri ilə əlaqədar olaraq suya artan tələbatın təmin olunması üçün yeni sututarlar yaradılır, suya qənaət edilməsi üçün onun örtülü kanallar və borular vasitəsilə çatdırılması istiqamətində işlər görülür.

Mərkəzin direktoru, həmçinin deyib ki, kənd təsərrüfatında suya qənaət edən müasir suvarma sistemlərindən istifadə dövlət tərəfindən təşviq edilir, bu sistemlərin qurulmasına dövlət dəstəyi göstərilir. Onun sözlərinə görə, Azərbaycanda fermerlər müasir suvarma sistemlərini qurmaq üçün ümumi məbləğin yalnız 20 faizini avans şəklində ödəyir, 40 faizini dövlət qarşılayır, qalan məbləğin isə 5 il müddətində ödənilməsi üçün faizsiz kreditlər verilir. Bununla yanaşı, müasir suvarma sistemlərindən istifadə etməklə məhsul istehsal edən fermerlərə subsidiyalar ayrılır.

Tədbirdə su çatışmazlığı problemləri, kənd təsərrüfatında su idarəçiliyinin səmərəliliyinin artırılması və s. məsələlərlə bağlı maraqlı çıxışlar edilib, müzakirələr aparılıb.

***XQ***

COP29 Baku Azerbaijan

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

COP29 Baku Azerbaijan

Uzaqdan gələn sorağımız

# Türkiyə əl cərrahiyəsini ABŞ-də təmsil edən azərbaycanlı

**Azərbaycanda onu dost-tanışlarından və qohumlarından başqa, geniş bir çevrədə tanıyan yoxdur. Amma qosqoca Türkiyəni əl cərrahı kimi Amerikada təmsil edib. Qardaş ölkədən belə bir yüksək status almasını eşidən kimi, onunla maraqlandıq. Rüstəm Cəlilov Egey bölgəsinin ən müasir şəfa ocaqlarından olan yeni tipli İzmir şəhər xəstəxanasında çalışan soydaşımızdır.**

Rüstəm 1986-cı ildə Goranboy rayonunda anadan olub. Tibb Universitetinin məzunudur, 2009-cu ildə pediatriya fakültəsini bitirib. Sonrakı həyat yolu isə qardaş Türkiyə ilə bağlı olub. İstanbul Bakırköy dövlət xəstəxanası, Ankara Hacəttəpə Universitet xəstəxanası, Balıkəsir "Sevgi" özəl xəstəxanası, İstanbul Mətin Sabancı araştırma xəstəxanası, İzmir Katip Çələbi Universitet xəstəxanası və nəhayət, İzmir şəhər xəstəxanası onun təkcə əmək kitabçasına yox, həm də taleyinə yazılanlardır. Buraya London Thomas xəstəxanası və Əl cərrahiyyəsi klinikasını, daha sonra Amerikanın Ohayo Vanderbilt, Loyola, Çikaqo, Duke universiteti xəstəxanaları əlavə olunub.

Bu məşhur mərkəzləri bir məslək birləşdirir: əl, qol və üst ətrafları ilə bağlı müxtəlif xəstəliklərin, travmaların və qüsurların müalicəsində yüksək keyfiyyətli xidmətlər təklif etmək. Məqsədləri də xəstələrə mümkün olan ən yaxşı tibbi yardım göstərmək və bərpa prosesində onlara dəstək olmaqdır. Rüstəm həkim məkan və ünvanlarını dəyişsə də, ən yüksək tibbi yardım göstərmək əzmini heç vaxt dəyişməyib.

**Rüstəm söhbət zamanı özünün Amerika təcrübəsindən və orada gördüklərindən danışdı:**

– İlk diqqətimi cəlb edən əməliyyatxana və poliklinikanın texniki baxımdan yüksək səviyyədə təchiz olunması oldu. Türkiyədə gündəlik əməliyyatxana şəraitində həyata keçirdiyimiz bəzi prosedurlar burada poliklinik müdaxilə otağında icra edilə bilər. Klinikaların idarəçiləri həkimlərin səmərəli



işləməsi və xəstəxananın iqtisadi gəlirini artırmaq üçün hər cür fikrə açıqdır. Həkimlər qrupu sənaye ilə sıx əməkdaşlıq edir.

**– Amerikada təçürbədə olmağınız sizə nə verdi?**

– Türkiyə əl cərrahiyyəsinin tarixini, məni yetişdirən müəllimlərimi və çalışdığım xəstəxananı tanıtmaq fürsəti əldə etdim. Bir əl cərrahının həyata keçirə biləcəyi əməliyyat növlərini təqdim etdim, aldığım müsbət rəylər məni çox ümidləndirdi və hesab etdim ki, bu qürur səhiyyəmizin uğurudur. Ən önəmlisi, çalışdığım sahənin çox dəyərli mütəxəssisləri ilə tanışlıq və müzakirə imkanı əldə etdim, ziyarət etdiyim mərkəzlərlə ikitərəfli əlaqələr qurdum.

**– Bundan əvvəl də Londonda Thomas xəstəxanasında olmusunuz...**

– Bundan əvvəl 3 ay Londonda “Hand Surgery clinic” (Əl Cərrahiyyyəsi klinikası) və Thomas xəstəxanasında elmi ezamiyyətdə oldum. Londonun Thomas xəstəxanasının, təxminən, 1000 yaşı var. Dünyadakı bir çox ölkə və millətlərdən daha qədim, daha təcrübəli və daha müdrik bir məkandır. Bu xəstəxanada onilliklərlə toplanmış təcrübədən faydalandım, həm də dünyanın çox nadir yerlərində icra edilən müasir əməliyyatlarda iştirak etmək fürsətim oldu. Bunu fərdi olaraq qazanmaq mümkün deyil və dəyəri ölçülə bilməz. Bir çərrahın illərlə qazana biləcəklərini az bir zamanda qazana bildim.

**– Çalışdığınız sahənin incəlikləri haqqında nə deyərdiniz?**

– Yaxşı bir deyim var: yeniliklər ehtiyacdan doğar. Əl cərrahiyyəsinin yaranma tarixi 1-ci və 2-ci dünya müharibələri dövrünə gedib çıxır. Yaralanmış yuxarı ətrafların müalicəsi üçün sınmış sümüklər travmatoloqa, yaralanmış damarlar damar cərrahına, zədələnmiş sinirlər neyrocərraha və açıq yaralar, kəsilmiş vətərlər plastik cərrahlara ehtiyac yaradırdı. Fərqli sahələrin müxtəlif qaydaları olduğundan əməliyyat zamanı çətinliklər yaranırdı. Buna görə də həm nəzəri biliklərə, həm də bu cərrahiyyə əməliyyatları icra edə biləcək ümumi bir sahəyə ehtiyac duyulurdu, bu da əl cərrahiyyəsinin yaranmasını labüd etdi. Bu sahə hazırda özünün yeni inkişaf mərhələsini yaşayır.

**– Öyrəndik ki, elmi iş üzərində də işləyirsiniz...**

– Hacəttəpə Universitetinin professoru Xəlil Gökhan Dəmirkıranın rəhbərliyi ilə skolyoz xəstəliklərinin yaranma səbəblərini öyrənirəm. Bu, omba və bel əyrilikləri ilə özünü göstərən və hər yaşda müşahidə edilə bilən bir xəstəlikdir. Erkən yaşlarda başlamağı daha ciddi fəsadlara yol aça bilir. Ona görə də erkən müalicə və müdaxilə çox önəmlidir. Müalicə metodunun effektivliyi, xəstənin yaşına, skolyozun dərəcəsinə və uzunmüddətli nəticələrə təsiri tədqiqatın mövzusudur.

**– Bu sahəyə gəlmək istəyənlərə nələri tövsiyə edərdiniz?**

– Əl cərrahiyyəsi əlavə ixtisaslaşma ilə mümkündür. Əsas olaraq yuxarı ətrafların anadangəlmə anomaliyalarının, xoş və bədxassəli törəmələrin müalicəsində, sinir patologiyalarında, yaş və peşə ilə bağlı patologiyalarda və xəsarətlər zamanı əsas rol oynayır. Hazırda bu ixtisasa yiyələnmək üçün 1-2 il müddətində ixtisaslaşma keçmək tələb olunur. Bu müddət ərzində yerinə yetirməli normativlər var. Bu proqramda plastik cərrahların travmatoloq kimi, travmatoloqların isə plastik cərrah kimi düşünmə bacarıqları öyrədilir. Bu, hər bir əl cərrahının keçəcəyi yoldur.

**– Azərbaycanda bu sahədə hansı işlər görmək istərdiniz?**

– Bu illər ərzində peşəmlə əlaqədar olaraq kifayət qədər təcrübə toplamaqla yanaşı, Türkiyə, İngiltərə və Amerikada şəxsi münasibətlər qurmağı bacardım.




Bunun Azərbaycanın gələcəyi üçün də çox faydalı olacağına inanıram. Burada bu sahədə aparılan işlərdə yaxından iştirak etmək əsas məqsədlərimdəndir. Türk dünyası ilə əməkdaşlığı inkişaf etdirmək də mütləq lazımdır. Bu, bizi daha güclü bir mövqeyə gətirəcək.

*Söhbəti apardı:*
***Namiq QƏDİMOĞLU***
***XQ***

# “Ulduz” futbol akademiyası adını doğruldacaqmı?

**Azərbaycanda da ronaldinyolar, messilər yetişdirmək olarmı? Bunun üçün ölkəmizdə kifayət qədər istedadlı uşaqlar varsa, niyə olmasın. Əsas məsələ onları düzgün inkişaf etdirərək böyük meydanlar üçün hazırlamaqdır. Bu məqsədlə məşqçilər və yeniyetmə futbolçular “Ulduz” Futbol Akademiyasının (FA) ətrafında cəm olublar. Yaşlılar milli komandanın gələcək liderlərini yetişdirmək, yeniyetmələr isə namizədlər siyahısına düşmək üçün var gücləri ilə məşqləri davam etdirirlər.**

Xatırladaq ki, “Ulduz” FA yeni yaradılıb. 2023-cü ildən fəaliyyət göstərir. Burada hazırlıq keçən gənc futbolçuların məşq prosesləri, qayğıları, arzuları ilə yaxından tanış olduq. Məlumat aldıq ki, akademiyanın U-13, U-14 komandalarının üzvləri Bakının Xəzər rayonunun Şüvəlan qəsəbəsində yerləşən “Cırtdan” Respublika Uşaq-Gənclər İstirahət və Sağlamlıq Mərkəzində yaşayır, yaxınlıqda yerləşən 237 saylı orta məktəbdə təhsil alırlar.

Dərsdən çıxan akademiya üzvləri nahar etmək və istirahət üçün “Cırtdan”a gəlirlər. Bir neçə il bundan əvvəl maraqlı dizaynla qurulan mərkəzin binasında yenidənqurma işləri aparılıb. Uşaqların daha rahat yaşamaları, maraqlı, faydalı və əyləncəli vaxt keçirmələri üçün hər cür şərait yaradılıb. Mərkəzin həyətində əsaslı abadlaşdırma işləri aparılıb, yaşayış kompleksi, yeməkxana tamamilə yenilənib. İdman meydançaları, qaçış zolağı, kitabxana, akt zalı, əyləncə zonası və s. inşa edilib.

Uşaqlar əvvəlcə onlar üçün ayrılmış otaqlarda əyinlərini dəyişir, sonra yeməkxanaya gedirlər. Burada onların vaxtı-vaxtında və keyfiyyətli qidalanmasına diqqət yetirilir ki, bu da önəmli faktorlardan biridir. Çox zaman yeniyetməlik çağlarında intensiv məşqlərə cəlb olunan uşaqlar təhsillərinə istədikləri qədər vaxt ayıra bilmirlər. Nəticədə, gələcəkdə peşəkar idmanı seçən və bu sahədə çalışan mütəxəssislər keyfiyyətli təhsilə sahib ola bilmirlər. Bəzən isə məktəb yaşlı uşaqlar dərslərini çatdıra bilmədikləri üçün idmandan ayrılmalı olurlar.

Akademiyanın yetirmələri bu qayğıdan azaddırlar. Onların dərsdən sonra yemək masası arxasında günün planlarını müzakirə etmələrini müşahidə edirik. Yeməkdən sonra 2 saata yaxın istirahət edir, çay süfrəsində bir daha görüşürlər. Artıq komandaları gözləyən avtobus mərkəzdədir. Uşaqlar tələsmədən ikibir, üçbir avtobusa minirlər. Bir qədər istirahətdən sonra əhval-ruhiyyələri daha da yüksəlib. Yolboyu birgə mahnılar, o cümlədən məşhur “Xudayar təsnifi”ni oxuyurlar: “Vahid sorma Vətən nədən yaxşıdır, Adı gəlcək könlüm xəndan göründü”.

Kövrək notlar üzərində “Qarabağ” da səsləndirildi. Gələcəyin “ulduz”larının ifa etdikləri bütün musiqilərin vətənpərvər mövzusunda olması da təsadüfi deyildi. Məktəbdə gənc nəslin vətənpərvər ruhda tərbiyəsi prioritet tələbdir. Məhz vətənpərvərlik hissi komanda ruhunu yüksəldən əsas amillərdəndir.

Şağan Olimpiya İdman Kompleksinə istiqamət alırıq. Ümumi sahəsi 3,25 hektar olan kompleksin əsas korpusu ikimərtəbəlidir. Burada müxtəlif idman növləri üzrə zallar, hakimlər, soyunub-geyinmə və digər xidməti otaqları yerləşir.

Çöldə isə çiskinli yağış və soyuq küləkli hava şəraiti hökm sürür. Belə bir deyim var, futbol üçün pis hava şəraiti yoxdur, sadəcə pis oyun var. Çünki bu dinamik və sürətli idman növü üzrə əksər çempionatların təqvimi o qədər sıxdır ki, hətta açıq stadionlarda soyuq mövsümdə də bəzən oynamaq lazım gəlir. Günəşli Azərbaycanın qışı sərt olmasa da, isti hava şəraitinə öyrəşmişik. Ona görə 13-14 yaşlı uşaqların soyuq havada necə məşq edəcəklərini düşünürük.





Yaşıl meydan isə sahiblərini gözləyir. Doğru deyimdir: İdman bədəni və ruhu güclü olan insanların seçimidir. Gənc futbolçular soyunub-geyinmə otağından birbaşa meydana tələsirlər. Çiskin yağış süni ot örtüyünü bir qədər sürüşkən edib. Lakin futbolun hər anından zövq alan yeniyetmələr məşqçinin tapşırıqlarını dəqiqliklə yerinə yetirməyə səy göstərirlər. Axı əsl futbolçu bilir ki, pis hava şəraiti əngəl deyil, onların potensialının və oyuna olan sevgisinin yeni cəhətlərini göstərmək imkanıdır.

**Akademiyanın direktoru Mehman Əlimovla həmsöhbət oluruq. Qurum rəsmisi Gənclər və İdman Nazirliyinin dəstəyi ilə akademiyada yeniyetmə futbolçuların inkişafı üçün hər bir şəraitin yaradıldığını bildirdi:**

– Akademiya 2023-cü ilin may ayında yaradılıb. Bölgələrdən istedadlı futbolçular seçmək üçün səfərlər təşkil edirik. Cari ilin yay aylarında təşkil etdiyimiz seleksiya xarakterli məşqlərdə Bakı da daxil olmaqla 1000-dən çox uşaq iştirak edib. İlkin olaraq bölgələrdə uşaqlara baxış keçirilir, istedadlı futbolçular 2-ci mərhələdə akademiyaya cəlb olunur. Burada yaşamaq, qidalanmaq və təhsil almaq üçün hər bir şərait yaradılır. Onlar komanda ilə məşqə çıxırlar. Əgər potensialı varsa müqavilə bağlanılır və akademiyaya cəlb olunur. Biz bu cür turnirləri və seçilən oyunçuları diqqətlə izləyirik.

Qruplar seleksiya məşqləri zamanı formalaşdırılıb. Akademiya 4 yaş qrupu üzrə fəaliyyətə başlayıb. Artıq 2024–2025-ci il mövsümündə 9 komanda AFFA bayrağı altında keçirilən liqalarda çıxış edir. Onlardan 7-si oğlan, 2-si qızlardan ibarət komandalardır. 2011-2012-ci illər təvəllüdlü uşaqlar Şağan Olimpiya Kompleksində məşq edirlər. Aşağı yaş qruplarından, eləcə də qızlardan ibarət yığmalarmız isə köhnə “Neftçi” bazada Cüdo Federasiyasının təlim-məşq mərkəzində hazırlıq keçirlər. Onların həm dərsləri, eyni zamanda, nizam-intizamları diqqətdə saxlanılır.

Öyrənirik ki, bütün məşqçilər UEFA lisenziyalarına malikdirlər. Onların işinə nəzarət, eləcə də düzgün məşq proseslərinin aparılmasına kordinator və idman direktoru nəzarət edir.

Futbolçular bütün günü eyni məkanda sıxılmasınlar deyə, akademiyaya məxsus nəqliyyat vasitəsi ilə milli komandamızın, eləcə də klublarımızın oyunlarına, müxtəlif tədbirlərə gedirlər.

**Uşaqların qidalanmasından danışan komandanın həkimi Seyidağa Abbaszadə əsas və yardımçı qidalardan, vitamin kompleksləri, minerallardan istifadə edildiyini bildirdi. Qeyd etdi ki, bu yaşda uşaqların qida rasionuna çox diqqət yetirilməlidir. Uşaqlar həm burada, həm də evdə düzgün qidalanmaya üstünlük verməlidirlər.**

Zədələrlə bağlı danışan həkim qeyd etdi ki, ən kiçik travma belə diqqətsiz qala bilməz:

– Belə olduğu halda uşaqlara təcili ilkin yardım göstərilməlidir. Kiçik zədə də olsa önəm verilməlidir. Adətən əzələ dartınmaları, damar zədələri və digər travmalar zamanı ağrıkəsici preparatlardan istifadə edilir. Fizioterapeya və digər müalicələrlə zədələri sağaldırıq. Elələri də olur ki, ambulator və stasionar şəraitdə müalicə olunmalıdır. O zaman klub rəhbərliyinə müraciət edib, tədbirlər görürük.

**Günün məhsuldar məşq prosesini izləyirik. Burada uşaqlara təkcə gözəl futbol oynamaq öyrədilmir, həm də əzmkar xarakter, möhkəmlik və komanda ruhu aşılanır. Fasilə zamanı uşaqlar onlar üçün ayrılmış xidməti otaqda su və çay içirlər. Sonda məşqçilərinin fikirlərini öyrənirik.**

**13 yaşlılardan ibarət yığmanın baş məşqçisi Şahin Şükürov komandanın potensialından söhbət açır:**

– Yığmada güclü oyunçular var. Onların gələcəyinə böyük ümidlər bəsləyirik. Komandamız ölkədaxili yarışlarla yanaşı, beynəlxalq turnirlərdə də uğurla çıxış edir. Gürcüstanda beynəlxalq yarışda medalın bir addımlığında dayandıq. Yaxşı oyun nümayiş etdirdik.

**U-14 Liqasının baş məşqçisi Rüstəm Əliyev futbolçulardan razı oduqlarını bildirdi:**

– Çalışırıq ki, komandanın üzvləri məşqlərdə verdiyimiz tapşırıqları maksimum icra etsinlər. Milli komandaya namizədlərimiz var. Gözləyirik ki, o uşaqları dəvət edəcəklər.

Futbolçulardan **Ayxan Qurbanzadə** ilə həsöhbət olduq. Onun 13 yaşı var. 14 yaşlılarda oynayır. Biləsuvardandır. Beyləqanda təşkil edilən seçim turnirində diqqəti cəlb etdiyini deyir. Daha sonra Abşeronda təlim-məşqə cəlb edilib. Məşqçilər onun futbol bacarığını qiymətləndiriblər. Ondan futbolçularımızdan kimi bəyəndiyini soruşduq. Cavab verdi ki, “Qarabağ”ın oyunçusu Bəhlul Mustafazadəni bəyənir. Komandalardan daha çox “Neftçi”nin oyunlarını izləyir:

– Mən özüm də müdafiəçiyəm. Hər həftəsonu yarış olur. Hər oyunu daha yaxşı oynamağa çalışırıq. “Liman”, “Vətən”, “Lamasiya-Baku”, “Binə” kimi komandalara qalib gəlirik. Bazar günü istirahət edirik.

Gələcəkdə yaxşı futbolçu olmağı arzulayıram. Avropada, “Barselona”da oynamaq istərdim.

U-14-ün kapitanı **Müşfiq Zamanov** Yevlax rayonundandır. Yaxşı futbol oynamağı öyrənir. “Qarabağ”ın heyətində Marko Yankoviçin oyununu bəyənir:

– Yorulmadan üzərimizdə çalışırıq. “Qarabağ”ın heyətində Marko Yankoviçin oyunu xoşuma gəlir. Düşünürəm ki, yaxşı komandamız var. Biz də nə vaxtsa gözəl futbolumuzla çoxlu azarkeş qazanacağıq.

Müşfiq dərslərini də yaxşı oxumağa çalışır. Riyaziyyat, coğrafiya sevdiyi fənlərdəndir. Asudə vaxtylarını futbolçu dostları ilə “Cırtdan”ın oyun zallarında səmərəli keçirməyə çalışır. Şahmat, “PlayStation” oyunlarına maraq göstərir.

**Hüseyn Hüseynli** qapıçıdır. Əli zədəli olduğu üçün sarıqlı gəzir. Yaxınlaşıb travmanın ciddi olub-olmamasını soruşuruq. Cavabında öyrənirik ki, oyundan qabaq məşq prosesində zədələnib:

– Yoldaşlıq görüşünə zədəli çıxdım. Həmin qarşılaşmada 2:1 hesablı qələbə qazandıq. Rəqib komanda 1 qolu qapıdan keçirə bildi. Onu da penalti vasitəsilə.

**Cəbrayıl Əkbərov** U-13-də oynayır. Masallıdan gəlib:

– Bizə bəslənilən ümidləri doğrultmağa çalışırıq. Komandamız artıq bir sıra nailiyyətlər də qazanıb. Futbolda olduğu kimi, dərslərdə də bir-birimizə kömək edirik. Boş vaxtlarımızı şahmat, dama, stolüstü tennis və digər oyunlarla daha səmərəli keçiririk.

**Mehdi Kərimovun** 12 yaşı var. Öz üzərində səylə işləyir. Məşqçilərin verdiyi tapşırıqları yüksək səviyyədə yerinə yetirməyə çalışır. Onun arzusu da böyük klublarda oynamaqdır.

Yeni yaranmasına baxmayaraq, akademiyanın 2011-ci illər təvəllüdlü futbolçuları Özbəkistanda, U-13 komandası ilə Gürcüstanda beynəlxalq turnirlərdə yaxşı oyun nümayiş etdiriblər. 2013-cü təvəllüdlü uşaqlar isə Trabzonda turnirdə iştirak ediblər. Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Qubada “Ulduz-Cup” beynəlxalq turniri keçirilib. Belarus, Gürcüstan, Özbəkistanın komandaları, o cümlədən Şimali Kipr millisinin mübarizə apardığı yarışda klubun komandaları uğurla çıxış ediblər.

Bu ayın 24-də isə “Ulduz” FA-nın U-11 komandası Moskva şəhərində keçiriləcək Vasili Kulkovun xatirəsinə həsr olunmuş turnirdə iştirak edəcək. Komanda artıq turnirə hazırdır.

Uşaqlara təkcə gözəl futbol oynamaq yox, həm də əzmkar xarakter, möhkəmlik və əsl komanda ruhu aşılayan akademiyadan xoş təəssüratla ayrılırıq. İnanmaq istəyirik ki, burada, nəhayət, dünya futbolunun məşhur ulduzları yetişəcək.

***Leyla QURBANOVA***
***Cavid QAÇAYEV (foto)***

Azərbaycanı tanıdanlar

# Dənizləri ram edən alim

**Azərbaycanda Bayraq Günü idi. Zəfər bayramının 4-cü ildönümünün coşqusu davam edirdi. Görüş üçün həmin günə vədələşmişdik. Moskvanın cənubunda, maşınların gurultusundan uzaq çox sakit həyət evində görüşdük. Həmişəki təmkinli təbəssümü ilə qarşıladı məni. Bir stəkan pürrəngi çay içib iş otağına qalxdıq.**

***– Dilican müəllim, lap əvvəldən başlayaq. Uşaqlıq illərinə, məktəb dövrünə qısa bir nəzər salaq...***

– Ermənistanın Dilican şəhərinin yaxınlığında Salah kəndində doğulmuşam. Adımı da ona görə belə qoyublar. Bəzən zarafatla deyirəm ki, şəhəri mənim şərəfimə belə adlandırıblar. O vaxt kəndimizdə orta məktəb yox idi. 4-cü sinfə qədər öz kəndimizdə, 5-dən 7-yə qədər Qaraqayada, 8-ci sinifdən 10-cu sinfə qədər Polad kəndində oxumuşam.

Məktəbi əla qiymətlərlə bitirdikdən sonra iki il kənddə mexanizator işlədim. Ali təhsil dalınca yollanmazdan əvvəl əsgərliyə getmək istəyirdim. Təbii ki, evdəkilər bunu istəmirdilər. Özbaşıma hərbi komissarlığa getməyim deyə, rayon mərkəzinə gedəndə bəhanə ilə yanıma müşayiətçi qoşurdular. Amma fürsət tapıb komissarlığa getdim və mütləq əsgər olmaq istədiyimi bildirdim.

Hətta açıqca bildirdim ki, valideynlərimin, qohumlarımın xahişinə görə məni saxlasalar, şikayət edəcəyəm. Nəhayət, 19 yaşında orduya çağırıldım və Riqada xidmət etdikdən sonra Bakıya gələrək Politexnik İnstitutunun hidromeliorasiya fakültəsinə qəbul olundum.

3-cü kursun sonunda instituta SSRİ Neft Sənayesi Nazirliyindən şelf problemlərinə rəhbərlik edən Viktor Samarski gəldi. Nazir müavini Sabit Orucovun tövsiyəsi ilə Bakıya gələn Samarski bu problemlə məşğul olacaq ilk mütəxəssisləri seçirdi. Çünki dənizdə neft hasilatı getdikcə sahildən uzaqlaşır, daha dərinliklərdən çıxarılmağı tələb edirdi. Ölkədə isə dənizdə neft və qaz hasilatı üçün hidrotexniki qurğular üzrə mütəxəssis qıtlığı vardı.

Problemi Sabit Orücov belə izah edirdi: “İnşaatçıları işə götürürük (o, sənaye və mülki tikinti üzrə mütəxəssisləri nəzərdə tuturdu), onlar inşa etməyi bacarırlar, amma dənizi görmədikləri üçün qorxurlar. Dənizçiləri götürürük, onlar da belə qurğuları yaratmağı bacarmırlar, üstəlik də, neftdən bixəbərdirlər. Moskva İnşaat Mühəndisləri İnstitutunda lazımi kafedraları və professorları olan hidrotexniki qurğular fakültəsi var. Gəlin, burada xüsusi qrup yaradaq. Qurğular, onların material müqaviməti, digər inşaat istiqamətləri üzrə mühazirələri o professorlar oxuyar, neft və qaz üzrə mühazirələri mən öz üzərimə götürərəm. Əsas olan odur ki, “kətilləri”, – stasionar platformaları Orucov zarafatla belə adlandırırdı, – peşəkarlar hazırlasın.”

Mən təhsilimi Moskvada davam etdirmək imkanını əldən vermək istəmədim. Beləcə Moskva həyatım başladı. Bizə mühazirə oxuyan professorlardan biri elə Sabit Orucov idi. O vaxt o həm nazir müavini, həm də su təsərrüfatı və dəniz limanları kafedrasının professoru idi. Sonra o, 1972-ci ildən 1981-ci ilə qədər SSRİ-nin qaz sənayesi naziri oldu. Onun mühazirələrini dinləmək üçün biz nazirliyin binasına gedirdik. Sabit Atayeviçin pəncərələri Kremlə baxan kabinetini çox yaxşı xatırlayıram. Xüsusən də onun keçdiyi dərsləri! Mühazirələri yazmağı bizə qadağan edib deyirdi: “Siz oturun, diqqətlə qulaq asın, başa düşmədiyinizi soruşun”.




Mühazirələri onun stenoqrafçı köməkçisi Yelena Dmitriyevna yazırdı və dərsdən sonra çox qısa müddətdə tələbələrin hamısına mühazirələrin surətini paylayırdı. İnstitutda başqa tələbələr bizə həsədlə baxır, zarafata salıb “nazir qrupu”, – deyirdilər, – heç mühazirələri də yazmırlar. Bircə xidməti maşınları çatmır”.




***– Siz yataqxana həyatı da yaşadınız, yəqin. Paytaxtda özünüzü əcnəbi kimi hiss edirdinizmi?***

– Bakıda oxuyanda da, Moskvada da yataqxanada yaşamışam. O vaxt milli zəmində heç bir problem yox idi, əksinə, müxtəlif millətlərin nümayəndələrinin milli koloriti birgə yaşayışı zənginləşdirirdi. Paytaxtda öz üzərimə çoxlu ictimai vəzifələr götürməli oldum. Çünki hələ orduda xidmət edərkən partiyaya üzv olmuşdum. Partiyaçı tələbələr az olduğundan onlar, ilk növbədə, ictimai vəzifələrə irəli çəkilirdilər. Mən həm əlaçı, həm orduda xidmət etmiş partiya üzvü olduğumdan tələbə şəhərciyinin sədri seçildim və bu da mənim üçün böyük həyat təcrübəsi oldu. Hər həftə sonu rəqs axşamları təşkil olunurdu. Xasiyyətim elədi ki, ictimai məcburiyyət olmasa heç orada iştirak etməzdim. Amma hər hansı arzuolunmaz halların qarşısını almaq üçün nəzarət etməliydim. Dəliqanlı gənclər arasında da belə hallar az olmurdu...

***–Dilican müəllim, keçən il “Qazprom VNİİQAZ” (Ümumittifaq Elmi Tədqiqat Təbii Qazlar İnstitutu) MMC özünün 75 illik yubileyi ilə birgə sizin də qaz sənayesi sahəsində əmək fəaliyyətinizin 50 illik yubileyini qeyd edib. Bu məqamda kollektivin sizə ünvanladığı təbrikdən bir hissəni oxumaq yerinə düşər: 1973-cü ildə SSRİ Qaz Sənayesi Nazirliyinin təşəbbüsü ilə VNİİQAZ-da dənizdə qazma işləri və neft-qaz hasilatı texnologiyalarını tədqiq etmək üçün laboratoriya yaradılmışdır. Moskva İnşaat Mühəndisləri İnstitutunun (MİMİ) məzunu, Qaz sənayesi naziri Sabit Orucovun tələbəsi Dilican Mirzəyev həmin laboratoriyanın rəhbəri təyin edilmişdir.***

***Geologiya, dəniz neft-qaz yataqlarının kəşfi və hasilata hazırlanması, dəniz şəraitində neftin və qazın çıxarılması və nəqli üçün mədən hazırlığı, texniki-iqtisadi əsaslandırmalar və işlərin normativ təminatı nəticəsində laboratoriya çoxsahəli korporativ elmi-texniki mərkəzə çevrilmişdir. Mərkəzin inkişafında və peşəkarlığının artmasında Dilican Allahverdi oğlunun şəxsən çox böyük rolu var.” Təbrik sizin həyat yolunuzu işıqlandıran başqa xoş sözlərlə və faktlarla doludur. Bu yolun bəzi mərhələləri haqqında bir az da özünüz məlumat verin.***

– İnstitutu bitirən kimi aspiranturaya qəbul olundum. O vaxt bu, qeyri-adi addım idi, çünki ən az iki il işləmək tələb olunurdu. Aspiranturanı bitirib bir il 2 ay “Qazprom”un mərkəzi aparatında işlədim, sonra mənə yuxarıda dediyiniz laboratoriyaya başçılıq etməyi təklif etdilər. Laboratoriya Azov dənizindəki yataqlarla məşğul olmalı idi. Sonra mənim laboratoriyamın bazasında xüsusi texniki konstruktor bürosu yaradıldı. Şelf problemləri üzrə aparıcı institut büronun aid olduğu “Dənizneftqaz” Ümumittifaq Elmi Tədqiqat Layihə İnstitutu idi. Orada şöbə müdiri, elmi axtarışlar üzrə direktor müavini, direktor əvəzi işlədim. 1995-ci ildə yenidən “VNİİQAZ”a “Dəniz neft-qaz yataqları” mərkəzinə direktor vəzifəsinə dəvət edildim. 2009-cu ildən isə qaz və neft sənayesi müəssisələri üçün avadanlıq hazırlayan əsas mərkəzi konstruktor bürosuna müdir müavini təyin edildim.

Əsas fəaliyyət sahələrimdən biri Qubkin adına Rusiya Dövlət Neft və Qaz İnstitutunda mühazirələr oxumaqdır. Dəniz neft yataqlarının istismara hazırlanması həmişə diqqət mərkəzində olan problemdir. Ona görə universitetdə işlədiyim 20 ilə yaxın müddətdə mühazirələrimi dinləməyə başqa kafedraların mütəxəssisləri və tələbələri də gəlirlər. Bu ixtisaslaşma üzrə yeganə əsaslı tədris materialı mənim hazırladığım 4 dərslik və 3 dərs vəsaitidir. Burada bir cəhəti qeyd etmək istəyirəm. Həyatımın ən bəxtəvər illərini həyat yoldaşım, iki övladımızın anası, həyatdan vaxtsız köçmüş Şəmsiyə xanımla keçirmişəm. Ona görə kitabın titul səhifəsində bütün uğurlarımın ilhamçısı kimi onun xatirəsinə həsr olunması təsadüf deyil.

Yeri gəlmişkən, Rusiya Federasiyasında kontinental şelfin yanacaq ehtiyatları xəzinəsini istifadəyə vermək öz mürəkkəbliyinə, çətinliyinə görə kosmosun fəth edilməsindən geri qalmır. Hətta neft-qaz mütəxəssisləri dünyanın məşhur şirkətləri arasında enerji müstəqilliyi baxımından Rusiyanın liderliyini təmin edən bu prosesi kontinental şelfin “kosmosunu fəth etmək” adlandırırlar.

Yenə qeyd edim ki, kontinental şelfin genişmiqyaslı istismarı birinci növbədə məhz həmyerlimiz, müəllimim Sabit Orucovun xidməti ilə bağlıdır. Ona görə də fəaliyyətimə verilən qiymətlər, təltiflər arasında ən dəyərli mükafat 2023-cü ilin avqustunda layiq görüldüyüm S.A. Orucovun adını daşıyan fəxri xatirə nişanıdır. Bir də xüsusi qeyd etmək istədiyim bir məqam var. Məşhur həmyerlimiz, uzun müddət SSRİ Dövlət Plan Komitəsinin sədri işləmiş Nikolay Konstantinoviç Baybakovun adına təsis edilmiş Beynəlxalq Yanacaq Energetika Kompleksi mükafatını mənə şəxsən Baybakovun özü digər məşhur həmyerlimiz Qərbi Sibirdə neft-qaz yataqlarını kəşf etmiş Fərman Salmanovun hüzurunda təqdim etmişdi. Onda Baybakov məni Salmanova belə təqdim elədi: “Baxın, Mirzəyev Sabit Orucovun tələbəsidir və hər zaman özünü bu ada layiq aparır.”

Haşiyə. Kontinental şelfin vəziyyəti və perspektiv problemlərinin müzakirəsi üçün 1993-cü ildə “Qazprom” səhmdar cəmiyyətinin təşəbbüsü ilə Arktika şelfində yanacaq ehtiyatlarının istismarı üzrə beynəlxalq konfrans (RAO/CİS Offshore) təşkil edilmişdir. İki ildən bir Sankt-Peterburqda keçirilən konfransın təşkil edildiyi vaxtdan indiyə qədər icraiyyə komitəsinin sədri texnika elmləri doktoru, professor Dilican Mirzəyevdir.

Onun nailiyyətlərini bir məqaləyə sığışdırmaq çətindir. Rusiyada və xarici ölkələrdə nəşr edilmiş 400-dən artıq elmi məqalənin, 15 kitabın, o cümlədən 4 cildlik dərsliyin, 3 cildlik dərs vəsaitinin və 8 monoqrafiyanın, müəllif şəhadətnamələri ilə təsdiq olunmuş 61 ixtiranın və patentin, dərs vəsaitlərinin və elmi-metodiki tövsiyələrin müəllifidir. Onun rəhbərliyi altında 14 elmlər namizədi, 3 elmlər doktoru dissertasiyaları müdafiə olunub. Fəaliyyəti dövlət mükafatları ilə qeyd olunub. Rusiya Su Təsərrüfatı və Texnoloji Elmlər Akademiyalarının həqiqi üzvüdür. RF Prezidentinin təqdirnaməsi ilə təltif edilib, elm və texnika sahəsində hökümətin mükafatına layiq görülüb.

Görkəmli alim 84-cü yaşını universitet kafedrasında, VNİİQAZ-dakı, evdəki iş otaqlarında fəal elmi axtarışlarla, tələbələrə mühazirələr oxumaqla qeyd edir. “Mən kiməsə lazım olduğumu dərk etdiyim zaman özümü xoşbəxt sayıram” deyir. Bu xöşbəxtliyin daha da uzunömürlü olması arzusu ilə gələn görüşlərə qədər, Dilican müəllim!

***Söhbətləşdi:***
***Cəfər SADIQ***

**Moskva**

Beynəlxalq həyat

# Rusiyanın nüvə zərbəsi ehtimalı gündəmə gəlib



**(əvvəli 1-ci səhifədə)**

Xüsusilə, hər hansı qeyri-nüvə dövlətinin Rusiya Federasiyasına təcavüzü, lakin nüvə ölkəsinin iştirakı və ya dəstəyi ilə indi onların Rusiyaya birgə hücumu hesab ediləcək. Rusiya Federasiyasının suverenliyinə adi silahlarla kritik təhlükə yaranarsa və ya Belarusa hücum olarsa, nüvə reaksiyası da mümkün olacaq. Nüvə doktrinasının əvvəlki nəşrində Rusiyanın ölkə ərazisinə və (və ya) müttəfiqlərinə hücum edən ballistik raketlərin buraxılmasına nüvə reaksiyasından danışılırdı, lakin müttəfiqlərin konkret adı çəkilmirdi.

Ancaq Qərbin Rusiyanın yeni nüvə həmləsinə reaksiyası sakit oldu. ABŞ bildirdi ki, Ukraynaya Rusiyanın dərinliklərinə raket zərbəsi endirməsi böyük müharibəyə səbəb olmayacaq. Qərbin reaksiyana arxalanan Ukrayna noyabrın 18-nə keçən gecə Rusiya ərazisinə – Bryansk vilayətinin Karaçev şəhəri yaxınlığındakı sursat anbarına zərbələr endirmək üçün Amerikanın uzaqmənzilli ATACMS raketlərindən istifadə etdi. Karaçev Bryansk yaxınlığında və Ukrayna sərhədindən təxminən 130 kilometr aralıda yerləşir. Zərbə endirilməsini təsdiqləyən Ukrayna silahlı qüvvələrinin Baş Qərargahının məlumatına görə, Kiyev Rusiyanın silah-sursat anbarlarının məhv edilməsi prosesini davam etdirəcək.

Ukraynanın raket zərbəsi ilə bağlı müəyyən ehtimallar səsləndirilsə də, bir çox media orqanı, məsələn, “Forbes” yazır ki, bu, son dərəcə vacib və möhkəmləndirilmiş hədəfin ovuna işarə edən çox sayda raket hücumudur. Məlumatda Britaniyanın BAE Systems şirkətinin yeraltı bunkerlər kimi davamlı strukturları məhv etmək üçün “Storm Shadow” döyüş başlığını xüsusi olaraq hazırladığı vurğulanır. Rusiyalı bloqer bu dəfə hədəfin Kursk bölgəsində minlərlə əsgəri idarə edən komanda məntəqəsinin olduğunu iddia edir. Moskva bu barədə rəsmi açıqlama vermir.

Rusiyanın bu zərbəyə nə ilə cavab veriləcəyi Qərb mediasında müzakirə olunurdu. Dünən KİV-də Rusiya ordusunun Ukrayna ərazisinə ilk dəfə “Rubej” qitələrarası ballistik raketi atması barədə məlumatlar yayıldı. Sözügedən raketin Həştərxan vilayətindən buraxıldığı qeyd olunur. Bununla yanaşı, rusiyalı hərbçilərin Dneprə Tambov vilayətindən “MiQ-31K” qırıcıları ilə “Kinjal” raketləri, eləcə də “Ty-95MC” vasitəsilə yeddi ədəd “X-101” qanadlı raketləri atdığı bildirilir. “Defense Express” analitiklərinin fikrincə, Rusiya Ukraynaya qitələrarası ballistik raket atmaqla nüvə zərbəsi mümkünlüyünü nümayiş etdirir. Rəsmi Moskva zərbə endirilməsi barədə hələlik heç bir məlumat vermir.

Qarşıdurmada gərginliyin artması fonunda Ali Radanın milli təhlükəsizlik məsələləri komitəsinin sədr müavini Yeqor Çernev “Politico”ya müsahibəsində bildirir ki, Ukrayna ABŞ prezidenti Co Bayden administrasiyasından Rusiya ərazisinə zərbələr endirmək üçün 2400 kilometr mənzilli “Tomaqavk” raketlərinin istifadəsinə icazə verməsini xahiş edə bilər. Nəşrin məlumatına görə, Ukrayna hakimiyyəti Donald Tramp Ağ evə qayıtmazdan əvvəl Amerika silahlarından istifadə imkanını nəzərdən keçirir. “Politico” yazır ki, Kiyev Rusiyadakı müdafiə zavodlarına hücum etmək üçün “Tomaqavk” raketlərindən istifadə etməyi düşünür. Ukrayna hakimiyyəti “Tomaqavk”ın mövcudluğunu rəsmi olaraq açıqlamır. Bu raketlərin uçuş məsafəsi 2400 kilometrdir ki, bu da ATACMS raketlərinin radiusundan yeddi dəfə çoxdur. Ağ evin Kiyevin istəyinə razılıq verəcəyi təqdirdə gərginliyin çox təhlükəli xarakter alacağı şübhə doğurmur.

***SE LAY***
***XQ***

# “PowerChina” şirkəti ilə Anlaşma Memorandumu



**COP29 çərçivəsində “SOCAR Green” və “PowerChina” şirkətləri arasında Azərbaycanda bərpaolunan enerji layihələrinin inkişafında birgə imkanların araşdırılması məqsədilə Anlaşma Memorandumu imzalanıb.**

Dövlət Neft Şirkətindən aldığımız məlumata görə, tərəflər arasında strateji tərəfdaşlıq Azərbaycanda bərpaolunan enerji mənbələrinin inkişafı hədəflərinə töhfə vermək məqsədi daşıyır.

Memorandum günəş və külək elektrik stansiyalarının inşası, inteqrasiya olunmuş “ağıllı” enerji sistemləri, “yaşıl” hidrogen istehsalı ilə bağlı layihələrin qiymətləndirilməsi və sərmayə qoyuluşunda birgə səyləri nəzərdə tutur.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 257 (30661) 22 noyabr 2024-cü il, cümə



# Bizim “gizli imza”mız

*2 insan varmı ki, barmaqlarının izləri eyni olsun?*



**Baxmaq ayrıdır, gördüklərini anlaya bilmək tamam başqa məsələdir. Biz çox şey görürük, ancaq bu, azdır, gərək gördüklərimizi anlamağa çalışaq.**

Böyük adamların fərqi də gördüklərini anlamaqdan başlayır. Gəlin uzağa getməyək, sağımıza-solumuza baxaq. Ağacların niyə yerdən göyə ucaldığına diqqət yetirək.Yazda ağacların yarpaq açmasını, payızda isə tökməsini izləyək. Yaxud, əlimizi qarşımıza qoyub diqqətlə baxaq və bu yaradılışın mənasını anlamağa çalışaq. Bir əldə beş barmaq, işləmək üçün hər barmaq da buğumlara bölünüb. Bundan gözəlini, daha mükəmməlini fikirləşmək mümkün deyil. Arayıb-axtarsaq, mənasını da anlayacağıq.

Siz dostunuzu, doğmanızı minlərlə insan arasında görsəniz, yəqin ki, tanıyacaqsınız. Çünki onun üzü, sifət cizgiləri, boy-buxunu, səsi təkrarsızdır. Ola bilsin ki, oxşarları olsun, amma tam eyni ola bilməz. Təkrarsız olan təkcə səsimiz, gözlərimiz, baxışlarımız, mimikalarımız deyil, eyni zamanda, əllərimizdəki cizgilər, naxışlardır. Siz elə iki insan tapa bilməzsiniz ki, barmaqlarının ucundakı naxışlar eyni olsun. Barmaqucu nədir, heç əllərinin içindəki naxışların da eyni olduğu iki adam tapa bilməzsiniz.

### Barmaq izləri təkrarsızdır

İslam dünyası əsrlər boyu Qurani-Kərimlə təmasda olsa da, oradakı “barmaqların ucu” ifadəsinin fərqinə varmayıb. Amma ingilislər müqəddəs kitabımızı oxuyan kimi maraqlanıblar və həmin ifadənin möcüzəsi üzə çıxıb. İngilislər bu gerçəyi öyrənəndən sonra barmaq izlərindən kriminalistikada istifadə etməyə başlayıblar. İnsanın barmaq izlərinin hər hansı obyektdə qaldığını və bunun vasitəsilə bir çox cinayətin üstünün açıla biləcəyini isə ilk dəfə Tomas Taylor irəli sürüb.

### “Gizli imza”

Yəqin çoxları bilir ki, hələ XX əsrin əvvəlində yazıb-oxuya bilməyən soydaşımız hər hansı sənədə imza atmaq istəyəndə barmaq basardı. Onun barmağına əvvəlcədən bir damla mürəkkəb damızdırardılar. Əvvəlcə də demişdik ki, hər kəsin barmağının ucundakı naxışlar özəldir və onun barmaq imzasını təkrarlamaq mümkün deyil.

### Kimliyi tanıyan cihazlar

Elm və texnologiya artıq elə bir səviyyəyə çatıb ki, bir çox cihazlar sizin barmaq izlərinizi tanıdıqdan sonra işə düşür. Məsələn, əgər barmaqla qapıya toxunsanız, qapı sizi “tanıyır” və üzünüzə açılır. Sizdən başqa min insan gəlsə də, o qapını aça bilməz. Qapı ona görə sizə açılır ki, barmaq izlərinizə alışıb. Bəzi avtomobillər də sahibinin barmaq izini tanıdıqdan sonra işə düşür. Kompüterlər də eləcə.

Bəli, indi dünyada müxtəlif sahələrdə müasir texnologiyalardan istifadə olunur və illər ötdükcə daha yeniləri istehsalata ayaq açır, həyatımıza qovuşur. Artıq kimsə yanında yarım kiloluq açarlar, pultlar gəzdirmək istəmir. İnsanın barmaq izləri bunları bacarıqla həll edir.

### Barmaq izləri necə götürülür?

Biz çılpaq əllə toxunduğumuz hər yerə “möhür” vururuq və orada barmaq izlərimiz qalır. Həmin izləri görünən hala gətirib şəkillərini çəkə bilmək üçün bəzi üsullardan istifadə edilir. Ən köhnə üsullardan biri barmaq naxışları üzərinə toz pudra səpməkdir. Bunun üçün hidrokarbonların istilik ilə pozulmasından əldə edilən çox nazik qara karbon barmaq izinin olduğu yerə səpilir, nəticədə



karbon zərrəcikləri barmağın əşya üzərində buraxdığı tərə yapışaraq izi görünən hala gətirir. Bu üsulun daha təkmilləşdirilmiş formasında isə flörans pudralardan (parıldayan) istifadə edilir.

Bu işdə istifadə olunan ikinci üsul, yod üsuludur. Yod qızdırıldıqda buxarlanaraq yağların quruluşundakı karbon-karbon arasındakı cüt bağlar ilə reaksiyaya girir və qabartma formasındakı barmaq izi naxışını sarımtıl qəhvəyi rəngə çevirir.

Tətbiq olunan üçüncü üsul isə ninhidrin üsuludur. Əvvəlki üsullar dəliksiz səthlərdə, bu üsul isə kağız və taxta kimi dəlikli yerlərdəki barmaq izi nümunələrində daha yaxşı nəticə verir. Bu üsulun təməli, amin turşuları ilə ninhidrin arasındakı mürəkkəb bir reaksiyadan ibarətdir. Qızdırıldıqda mühitdəki bir əsas ilə reaksiyaya girərək bənövşəyi rəngdə təsvirə çevrilir. Tərdəki amin turşuları kağız və ya taxtanın əsas maddəsi olan selluloz ilə hər hansı bir reaksiyaya girmədiyi üçün, bu texnika çox köhnə izlərin müəyyən olunmasına da imkan verir.

Hazırda cinayət axtarışı işlərində bu üsullardan geniş istifadə edilir.

***Səməd MƏLİKZADƏ***

## İdman xəbərləri

# Avropa çempionatında bürünc medal

**Azərbaycan taekvondoçusu Səyyad Dadaşov Bosniya və Herseqovinanın Sarayevo şəhərində keçirilən Avropa çempionatında uğurla çıxış edib.**




Azərbaycan Taekvondo Federasiyasından verilən məlumata görə, o, 21 yaşadək idmançılar arasında təşkil olunan yarışda 3-cü yeri tutub.

S.Dadaşov bürünc medalı 54 kiloqram çəki dərəcəsində əldə edib.

# Voleybolçularımız Şərqi Avropa turnirində

**Azərbaycanın 16 yaşadək oğlanlardan ibarət millisi Şərqi Avropa Voleybol Zonal Assosiasiyasının çempionatında iştirak edəcək.**



Bu barədə Azərbaycan Voleybol Federasiyasının mətbuat xidmətindən məlumat verilib.

Estoniyada təşkil ediləcək turnirdə ev sahibi ilə yanaşı, Azərbaycan, Latviya, Gürcüstan, Ukrayna və Polşa yığmaları iştirak edəcəklər. B qrupunda yer alan millimizin rəqibləri Latviya və Estoniya kollektivləridir. U-16 noyabrın 27-də Estoniya, iki gün sonra Latviya ilə görüşəcək.

Yarış noyabrın 27–30-da keçiriləcək.

Qeyd edək ki, turnir AVRO-2025-ə seçmə xarakter daşıyır. Reqlamentə əsasən, çempion qitə birinciliyinin final mərhələsinə vəsiqə qazanacaq.

***L.QURBANOVA***
***XQ***

## Hava

# Yağmursuz və dumanlı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, noyabrın 22-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir.**



Lakin gecə bəzi yerlərdə arabir az çiskinli olacağı ehtimalı var. Mülayim cənub-qərb küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 10-12°, gündüz 13-17° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 767 mm civə sütununa yüksələcək, nisbi rütubət 70-80 faiz olacaq.

Azərbaycanın rayonlarında, əsasən, yağmursuz keçəcək. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 6-10°, gündüz 15-20°, dağlarda gecə 0-4° isti, yüksək dağlıq ərazilərdə 4° şaxta, gündüz 5-10° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

# Salyanda leylək xilas edilib



**Leyləyi düşdüyü bataqlıqdan çıxaran rayonun Sarvan kəndinin sakini Nicat Xəlilov ona qulluq etdikdən sonra yenidən təbiətə buraxıb.**

Nicat Xəlilov bildirib ki, o, tez-tez leylək quşlarının endiyi əraziyə gedərək onlara tamaşa edir. “Günorta saatlarında, yenə həmin yerə getdim. Ərazidə 200-ə yaxın leylək var idi. Onları seyr edəndə bir quşun dəstədən xeyli aralıda bataqlıqda qaldığını, nə qədər çırpınsa da, oradan çıxa bilmədiyini gördüm. Tez ora yaxınlaşıb onu kənara çıxardım. Sonra həyətə gətirərək təmizlədim və yenidən leylək dəstəsinin olduğu əraziyə buraxdım”, – deyə kənd sakini əlavə edib.

Onun sözlərinə görə, hər il bu əraziyə mövsüm zamanı leyləklər gəlir, bir müddət qaldıqdan sonra yenidən köç edirlər.

***XQ***

# “Ceyms Uebb” “Eynşteyn ziqzaqı”nı təsdiqləyib




**“James Webb” Kosmik Teleskopu əvvəllər “Eynşteyn ziqzaqı” kimi tanınan fenomenin mövcudluğunu təsdiqləyib. Bu effekt J1721+8842 sistemində aşkar edilib. Bir kvazardan (Yüksək enerji və parlaqlığa sahib göy cismidir) gələn işıq əyri boşluğun iki müxtəlif bölgəsindən keçərək obyektin 6 eyni nüsxəsini yaradıb.**

Alimlər əvvəlcə J1721+8842-nin 3 dəfə linzalanmış qoşa kvazar olduğunu inanırdılar. JWST köməyi ilə əldə edilən yeni məlumatlar göstərdi ki, 6 işıq nöqtəsinin hamısı eyni kvazara aiddir. İki ən zəif təsvir, hər bir linazalanmış obyektin qarşı tərəfindən keçərək “Eynşteyn ziqzaqı” adlanan unikal konfiqurasiyanı meydana gətirir. Obyektinin əks tərəflərini əhatə edir.

"Eynşteyn halqaları" və "Eynşteyn ziqzaqları" kimi qravitasiya linzalı obyektlər astronomiya və kosmologiyada mühüm rol oynayır. Onlar alimlərə linza kimi fəaliyyət göstərən qalaktikaların kütləsini müəyyən etməyə, qaranlıq maddə və qaranlıq enerji kimi fundamental hadisələri öyrənməyə imkan verir. Teleskop kainatın uzaq yerlərində belə obyektlərin aşkarlanmasını xeyli asanlaşdırıb.

***PÜNHAN***
***XQ***

## Sağlamlıq

# Viruslar xərçəng də yaradır

**Xərçəngi yaradan amillərdən biri də viruslardır. Xarici mətbuatın yazdığına görə, xərçəng xəstəliyi özbaşına yaranmır və hava-damcı yolu ilə də keçmir. Amma bir çox elmi araşdırmalar sübut edib ki, hətta hava-damcı yolu ilə yayılan bir çox viruslar şiş yarada bilir.**

Rusiyanın Bloxin adına Onkoloji Mərkəzinin əməkdaşı Vadim Pokrovski xərçəng yaradan viruslardan danışıb. Deyib ki, bunlar ölkədə çox yayılan Epşteyn-Barr, hepatit və papiloma viruslarıdır. Bu viruslar orqanizmdə zaman keçdikcə mutasiyaya uğrayır, hüceyrələri zədələyir və nəticədə, bədxassəli hüceyrələr çevrilişi artırır.

Jurnalistlərə bu barədə açıqlama verən V.Pokrovski deyib: “Yer üzündə əhalinin yarıdan çoxunda Epşteyn-barr virusu var. Bu virus uşaqdan böyüyə hər kəsə müxtəlif yollarla yoluxur. Əsasən, boyun, boğaz, burun, qida borusu və cinsiyyət üzvlərində şiş yarada bilir. Virusu orqanizmdən tam təmizləmək mümkün deyil, bunun üçün dərman da yoxdur. Sadəcə, immuniteti yüksək saxlamaq lazımdır.

HPV-nin (papilomavirus) 16–18 tipi qadınlarda uşaqlıq boynu xərçəngi yaradır. Hepatit B də qara ciyərdə sağlam hüceyrələri dəyişir.



Əgər insanda bu viruslar varsa, o demək deyil ki, mütləq xərçəng olacaq. Daha çox xroniki formalar risk artırır. Buna görə immuniteti daim qorumaq lazımdır”.

***Z.HÜSEYNLİ***
***XQ***

# ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi qurumun hüquqşünası Vacib Eldarova atası

**ƏBÜLFƏZ ELDAROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2657
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00